www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 13 iyun 2023-cü il Çərşənbə axşamı № 102 (8238) Qiymәti 60 qәpik

**Xəbər**

**Rusiyadan Azərbaycana pul köçürmələri 3 dəfə artıb - səbəb**

yazısı səh.13-də

**Gündəm**

**Ərdoğan Azərbaycanda - mühüm səfərin detalları**



Əliyevlə hansı məsələlər müzakirə olunacaq?

yazısı səh.5-də

**Danışıqların davamı üçün danışıqlar: Vaşinqtonun "götür-qoyu" çoxmu çəkəcək...**

yazısı səh.9-da

**Türkiyə və Gürcüstanda pandemiya cərimələri qaytarılır, bəs Azərbaycanda?**

yazısı səh.15-də

**Bakı-İrəvan anlaşmasına qarşı fransız-rus gizli birliyi**

yazısı səh.9-da

**Zəngəzur dəhlizi açılır, amma kimin nəzarətində - Paşinyanın qəliz dilemması**

yazısı səh.5-də

**"Böyük Qayıdış"a ərəb yatırımı- böyük pulları hara cəlb etmək olar - təhlil**

yazısı səh.10-da

**Parlamentdə Qərbi Azərbaycanla bağlı dinləmə keçirildi - mühüm təkliflər, çağırışlar**

yazısı səh.4-də

**Həbsdə olan sabiq deputatla bağlı daha bir cinayət işi açıldı**

yazısı səh.11-də

**"Pfizer" vaksini ilə bağlı qorxunc iddia: həyatımız təhlükədədir...**

yazısı səh.12-də

**Molla rejimindən növbəti hiylə - Güneydə Azərbaycan kəlməsinə yasaq cəhdi**

yazısı səh.12-də

# SEPARATÇILARIN SONUNCU YAYI: QARABAĞDA İLDIRIMSÜRƏTLİ TƏMİZLƏMƏ - CƏMİ 3 GÜNƏ...

"Böyük Qayıdış" planı, keçmiş köçkünlərin aktuallaşan təhlükəsizliyi Bakını tələsmək zorunda qoyur; Rusiya isə Qarabağda qalmağın yeni düsturunun axtarışında...

yazısı səh.8-də






# Taksilərlə bağlı sərt qaydalar gəlir - xaosa son qoyulacaqmı...

**Nazir:** "İlkin mərhələdə bizim məqsədimiz taksilərin deyil, taksi gedişlərinin sayını azaltmaqdır"; "Qiymətlər birmənalı olaraq qalxacaq"

yazısı səh.3-də



*Vahid Əhmədov:*

**"Qarabağa dair məsələlərin həllini Brüsseldə görürəm, çünki..."**

yazısı səh.6-da



*Ceyhun Məmmədov:*

**"Müəllimlərin nüfuzuna mənfi təsirin məsuliyyətini həm özləri, həm də valideynlər daşıyır"**

yazısı səh.11-də



**Vasif Talıbovun başı qalmaqalda: yeni qurum yaradıldı, ətrafındakı halqa daralır**

yazısı səh.3-də



## Ərdoğan: “Kiprlə bağlı müzakirələrə dönüşün yolu ŞKTC-nin suverenliyindən keçir”

**Kipr adasında müzakirə masasına dönüşün yolu Şimali Kipr Türk Respublikasının suverenliyindən keçir. APA-nın İstanbul müxbirinin verdiyi xəbərə görə, bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Şimali Kipr Türk Respublikasının Prezidenti Ersin Tatarla birgə mətbuat konfransı zamanı bildirib.**

O qeyd edib ki, Türkiyə Kipr məsələsində hər zaman dialoqun tərəfdarıdır: “Mənasız silahlanma tərəfdarı olanlar bu təşəbbüsün risklərini anlamalıdırlar. Şimali Kiprdəki türk qardaşlarımızın təhlükəsizliyini öz təhlükəsizliyimiz kimi qiymətləndiririk”.



## Avropa İttifaqı Qərbi Azərbaycan İcmasının müraciətinə rəsmi cavab verib

**Xəbər verdiyimiz kimi, Qərbi Azərbaycan İcması Avropa İttifaqı Şurasının və Avropa Komissiyasının prezidentlərinə müraciət edərək, azərbaycanlıların zorla qovulduğu Ermənistandakı evlərinə qayıtmaq hüququnun təmin edilməsinə Aİ-nin müdaxiləsini xahiş etmişdi.**

İcmadan APA-ya verilən məlumata görə, Aİ bu müraciətlərə rəsmi cavab verib. Cavabda Aİ bütün müvafiq əhali qruplarının geri qayıtmaq hüququnu dəstəklədiyini birmənalı şəkildə təsdiq edir və bu məsələnin daha geniş sülh prosesi çərçivəsində əhəmiyyətini qeyd edir: “Beynəlxalq aləmdə böyük çəkiyə malik olan Avropa İttifaqı Ermənistan və Azərbaycan arasında dövlətlərarası münasibətlərin normallaşmasında və regionda sülh və sabitliyin təşviqində mühüm rol oynayır.

Biz hesab edirik ki, Aİ-nin azərbaycanlıların öz vətənlərinə qayıtmaq hüququnu dəstəkləməsi bu işə beynəlxalq dəstəyin gücləndirilməsində mühüm addımdır. Fikrimizcə, bu rəsmi cavab Ermənistandan qovulmuş azərbaycanlıların çətin vəziyyətinin həll edilməsinə olan təcili ehtiyacın beynəlxalq səviyyədə artan etirafını ifadə edir. Bu, həm də Qərbi Azərbaycan İcmasının bu aktual humanitar problemin ədalətli və davamlı həllinə nail olmaqda etibarlı tərəfdaş kimi mövqeyini gücləndirir.

Qərbi Azərbaycan İcması bu istiqamətdə Aİ ilə gələcək dialoq və praktiki əməkdaşlığı səbirsizliklə gözləyir. İcma azərbaycanlıların öz evlərinə təhlükəsiz və ləyaqətlə qayıtmasını təmin etmək, beləliklə, beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq regionda barışıq, sabitlik və birgəyaşayışı təşviq etmək üçün Aİ ilə sıx əməkdaşlıq etməyə sadiq qalır" - icmanın məlumatında qeyd edilib.

# İlham Əliyev Rusiya Prezidentinin köməkçisini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 12-də Rusiya Federasiyası Prezidentinin köməkçisi İqor Levitini qəbul edib. Musavat.com xəbər verir ki, Prezident İlham Əliyev 12 iyun - Rusiya Günü münasibətilə təbriklərini çatdırıb.**

İqor Levitin təbriklərə görə təşəkkür edib. O, Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdıb.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirib, onun da salamlarını Vladimir Putinə çatdırmağı xahiş etdi.

İqor Levitin Ümummilli Lider Heydər Əliyevin xatirəsini ehtiramla yad edərək, Ulu Öndərin 100 illiyinin Rusiyada geniş şəkildə qeyd olunduğunu məmnunluqla vurğulayıb.

Görüşdə Azərbaycanla Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə uğurla inkişaf etdiyi qeyd olunub.

Söhbət zamanı Şimal-Cənub nəqliyyat dəhlizinin inkişafı üzrə qarşılıqlı səylərin davam etdirilməsi, yük həcmlərinin artırılması, Azərbaycan ərazisində müvafiq infrastrukturdan istifadə imkanları, müasir nəqliyyat habına çevrilən ölkəmizin ərazisindən Bakı-Tiflis-Qars və Şimal-Cənub nəqliyyat dəhlizləri vasitəsilə daşımalar barədə fikir mübadiləsi aparılıb.

Gələcəkdə Zəngəzur dəhlizinin potensialından Rusiyanın istifadə imkanlarının araşdırılması ilə əlaqədar məsələlər müzakirə olundu. Azərbaycanda müasir gəmiqayırma sahəsinin imkanlarından istifadə edilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.



## Berluskoninin dəfn mərasimi günü İtaliyada milli matəm elan olunacaq

**İtaliyanın keçmiş baş naziri Silvio Berluskoninin dəfn mərasimi günü ölkədə milli matəm elan ediləcək.**

APA xəbər verir ki, bu barədə İtaliya hakimiyyəti məlumat yayıb.

Qeyd edək ki, dəfn mərasimi 14 iyunda Milanda keçiriləcək.

Xatırladaq ki, sabiq baş nazir iyunun 12-də 87 yaşında vəfat edib.




## DYP Muğanlı-İsmayıllı yolunda tikinti işləri ilə bağlı müraciət edib

**Hazırda Muğanlı-İsmayıllı avtomobil yolunda əsaslı tikinti işləri aparılır. Bununla əlaqədar yolun inşaat işləri aparılan hissələrdə daralması nəticəsində avtomobillərin hərəkətində sıxlıq müşahidə edilir.**

APA xəbər verir ki, bu barədə DİN-in Baş Dövlət Yol Polisi İdarəsindən bildirilib.

DİN-in Baş Dövlət Yol Polisi İdarəsi mövsümlə əlaqədar sözügedən avtomobil yolunda hərəkət intensivliyinin əhəmiyyətli dərəcədə artmasını da nəzərə alaraq, sürücülərdən alternativ yollardan istifadə etməyi, mövcud vəziyyəti düzgün qiymətləndirməyi, tikinti işlərinin aparıldığı ərazidə hərəkət edərkən diqqətli olmağı, müvəqqəti nizamlama vasitələrinin tələblərinə ciddi əməl etməyi xahiş edir.

## Aİ Rusiyaya qarşı 11-ci sanksiyalar paketini müzakirə edəcək

**Avropa İttifaqı Rusiyaya qarşı növbəti sanksiyalar paketini müzakirə edəcək.**

APA xəbər verir ki, bu barədə Aİ-yə üzv dövlətlərin Daimi Nümayəndələr Komitəsinin iclasının gündəliyində qeyd olunub.

Bildirilib ki, iyunun 14-də Aİ ölkələri Rusiyaya qarşı 11-ci sanksiya paketini razılaşdırmaq üçün yenidən cəhd edəcək.



## Binəqədi məhkəməsi hakimin liftin düyməsini qırmasına münasibət bildirdi

**Bəzi media orqanlarında və sosial şəbəkələrdə Binəqədi Rayon Məhkəməsinin hakimi Zamiq Bağırovun barəsində şəxsi zəmində baş vermiş məişət hadisəsi ilə bağlı məlumatlar yayılıb. Yayılan məlumatlarla əlaqədar bildiririk ki, aidiyyəti üzrə müvafiq araşdırmalar aparıldıqdan sonra nəticəsi barədə ictimaiyyətə əlavə məlumat veriləcək.**

APA xəbər verir ki, bu barədə Binəqədi Rayon Məhkəməsinin hakim Zamiq Bağırovla bağlı yaydığı məlumatda bildirilib.

“Həmçinin ictimaiyyəti və media nümayəndələrini həqiqətə uyğun olmayan, təqibedici, dəqiqləşdirilməmiş, hakimin və məhkəmə hakimiyyətinin nüfuzuna zərbə vura biləcək, eləcə də şəxsin icazəsi olmadan ona məxsus fərdi məlumatları yaymamağa çağırırıq”, - qeyd olunub.

Xatırladaq ki, Binəqədi Rayon Məhkəməsinin hakimi Zamiq Bağırovun Bakıda yaşayış kompleksində liftin idarəetmə lövhəsindəki hissəni qırmasını əks etdirən görüntülər yayılıb.

YENİ MÜSAVAT
N 102 (8238) 13 iyun 2023

# Taksilərlə bağlı sərt qaydalar gəlir - xaosa son qoyulacaqmı...

**Nazir:** "İlkin mərhələdə bizim məqsədimiz taksilərin deyil, taksi gedişlərinin sayını azaltmaqdır"; "Qiymətlər birmənalı olaraq qalxacaq"

**Uzun müddətdir hökumətin ölkədə taksilərin fəaliyyətini tənzimləməklə bağlı planlar hazırladığı bildirilirdi. Nəhayət, bu məsələ ilə bağlı sərt qayda-qanunların müəyyənləşdiyi bəlli olub.**

Belə ki, buna dair müvafiq qanunvericiliyə dəyişikliklər edilir.

Azərbaycanda icazəsiz taksi sifarişi operatoru kimi fəaliyyət göstərənlər 40 min manat cərimələnəcək.

İnzibati Xətalar Məcəlləsinə əlavə olunan yeni maddəyə görə, icazə olmadan taksi sifarişi operatoru kimi fəaliyyət göstərilməsinə görə vəzifəli şəxslər 20 min manat, hüquqi şəxslər isə 40 min manat cərimə ediləcək.

Yeni qərara əsasən xarici nömrəli avtomobillərlə ölkədaxili sərnişin və yük daşımalarını yerinə yetirənlər 400 manat cərimələnəcək.

Məcəlləyə əlavə edilən yeni bənddə qeyd edilib ki, xarici dövlət qeydiyyat nişanlı nəqliyyat vasitələri ilə Azərbaycan Respublikasının ərazisində ölkədaxili sərnişin və yük daşımalarının yerinə yetirilməsinə görə 400 manat məbləğində cərimə olunacaq.

Bütün bunlarla yanaşı, Azərbaycanda taksi kimi istifadə olunan bütün avtomobillərdə taksometr quraşdırılması təklif edilir.

Bu isə Milli Məclisə daxil olan "Avtomobil nəqliyyatı haqqında" Qanunda dəyişikliklərlə bağlı qanun layihəsində öz əksini tapıb.

Sənəddə deyilir ki, minik avtomobillərində onların qət etdiyi məsafənin, boşdayanmanın müddətinin uçotunun aparılması, gedişhaqqının məbləğinin hesablanması və bu barədə sərnişinin məlumatlandırmasını təmin edən, taksi üçün nəzərdə tutulmuş fiskal yaddaşlı xüsusi cihaz (taksometr) və proqram təminatı olmalıdır.

Eyni zamanda sənəddə qeyd olunur ki, taksilərdə hərəkətə fasiləsiz olaraq nəzarət etmək üçün rəqəmsal taxoqraf cihazı quraşdırılmalıdır. Bu cihaz imkan verəcək ki, avtomatik rejimdə avtonəqliyyat vasitələrinin hərəkətinə, o cümlədən qət edilmiş məsafəyə, sürücülərin iş və istirahət dövrlərinə dair bütün məlumatlar fasiləsiz olaraq qeydə alınsın.

Bununla yanaşı, sürücünün iş və istirahət dövrlərinə dair məlumatların, habelə rəqəmsal taxoqrafla işləmək üçün tələb olunan digər məlumatların saxlanılmasını təmin etmək üçün rəqəmsal taxoqraf kartının quraşdırılması təklif edilir.

Azərbaycanda avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarına icazələrin verilməsi üçün dövlət rüsumlarının dərəcələri də müəyyənləşir.

Bu isə Milli Məclisə daxil olan "Dövlət rüsumu haqqında" qanunda dəyişiklik edilməsi haqqında qanun layihəsində öz əksini tapıb.

Belə ki, taksi sifarişi operatoru fəaliyyətinə icazənin verilməsi üçün rüsumun 3 min manat olması təklif edilir.

Bundan başqa, taksi minik avtomobilləri ilə sərnişin daşımalarına buraxılış vəsiqəsinin verilməsi üçün rüsum 125 manat, hər bir nəqliyyat vasitəsi üçün buraxılış kartının verilməsi üçün isə rüsum 25 manat olacaq.

Eyni zamanda Azərbaycanla xarici ölkələr arasında avtomobil nəqliyyatı ilə daşımaları yerinə yetirmək operatorlara beynəlxalq yük və qeyri-muntəzəm sərnişin daşımalarına buraxılış vəsiqəsinin verilməsi üçün 250 manat, hər bir nəqliyyat vasitəsi üçün buraxılış kartının verilməsi üçün isə 75 manat rüsum ödəniləcək.



Habelə taksi sürücüsü barədə məlumatları informasiya sisteminə ötürməyənlər cərimələnəcək.

Bununla bağlı İnzibati Xətalar Məcəlləsinə yeni 326-2-ci maddə (Taksi sifarişi operatorları tərəfindən nəqliyyat sahəsində qanunvericiliyin pozulmasına görə) əlavə olunur.

Xarici nömrəli avtomobillərlə ölkədaxili sərnişin və yük daşımalarını yerinə yetirənlər isə 400 manat cərimələnəcək.

İXM-ə əlavə edilən yeni bənddə qeyd edilib ki, xarici dövlət qeydiyyat nişanlı nəqliyyat vasitələri ilə Azərbaycan Respublikasının ərazisində ölkədaxili sərnişin və yük daşımalarının yerinə yetirilməsinə görə 400 manat məbləğində cərimə olunacaq.

Beynəlxalq və şəhərlərarası sərnişin daşınmasına görə yeni cərimələr də müəyyənləşir.

**İnzibati Xətalar Məcəlləsinə təklif edilən dəyişiklikdə avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması qaydalarının pozulmasına görə aşağıdakı yeni cərimələr nəzərdə tutulur:**

- beynəlxalq müntəzəm sərnişin daşınmasının Azərbaycan Respublikasının ərazisində yerləşən başlanğıc, aralıq və ya son təyinat məntəqəsinin avtovağzaldan (avtostansiyadan) kənarda həyata keçirilməsinə;

- Şəhərlərarası (rayonlararası) müntəzəm sərnişin daşınmasının şəhərlərin (rayon mərkəzlərinin) və ya qəsəbələrin ərazisində yerləşən başlanğıc, aralıq və son məntəqəsindən kənarda həyata keçirilməsinə;

- Şəhərlərarası (rayonlararası) müntəzəm sərnişin daşınmanın bilet-uçot vərəqi olmadan həyata keçirilməsinə;

- Qeyri-muntəzəm sərnişin daşınmasının (taksi minik avtomobilləri ilə sərnişin daşınması istisna olmaqla) formulyar doldurulmadan həyata keçirilməsinə görə - 50 manatadək məbləğdə cərimə nəzərdə tutulur.

**"İlkin mərhələdə bizim məqsədimiz taksilərin deyil, taksi gedişlərinin sayını azaltmaqdır".**

**Musavat.com xəbər verir ki, bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev deyib.**

"Bu gün taksi gedişlərinin 60 %-i 1,5-3 km ətrafındadır. Bu da o məsafədir ki, ya ayaqla getmək olar, ya da ictimai nəqliyyatdan istifadə etməklə", - deyə **nazir əlavə edib.**

**Bundan başqa, R.Nəbiyev deyib ki, heç bir ölkədə Azərbaycandakı qədər ucuz taksi xidməti yoxdur:** "Bu, belə olmalıdırmı? Yox. Bu ilin sonuna qədər qarşıya qoyduğumuz qısa uduşlar var. Burada zolaqların çəkilməsi və onların istismarının təmin edilməsi nəzərdə tutulub. Polis əməkdaşlarımız ictimai nəqliyyatın getdiyi xətlərlə pik saatlarda adi avtomobillərin də getməsini təmin edir. Amma qanunvericiliyə dəyişiklik və sonradan bizim qəbul edəcəyimiz məsələlər imkan verəcək ki, həmin xətlərin haradan çəkilməli olduğunu müəyyən edək".

Nazir vurğulayıb ki, taksidə qiymətlər birmənalı olaraq qalxacaq.

Rəşad Nəbiyev əlavə edib ki, Milli Məclisə təqdim edilən təkliflər məhz sərnişin və yük daşımaları sahəsində müvafiq tənzimlənmənin təmin edilməsini nəzərdə tutur.

Nazir Rəşad Nəbiyev vurğulayıb ki, Bakı şəhərində hər min nəfərə düşən taksi sayı oxşar şəhərlərlə müqayisədə 4-5 dəfə çoxdur (tıxac və ekoloji problemlər).

Sürücülər gündə 14-16 saat sükan arxasında olur (təhlükəsizlik riskləri, əmək qanunvericiliyinin pozulması).

Taksi fəaliyyəti ilə məşğul olan avtomobillərin 50%-dən çoxunun yaşı 15-dən çoxdur (ekoloji və təhlükəsizlik riskləri).

Gündəlik səyahətlərin sayı: fərdi maşınlar gündə ortalama 2-2,5 səfər edirlərsə, taksi fəaliyyəti həyata keçirən avtomobil 20-dən çox səfər edə bilər (tıxac və ekoloji risklər).

**Kölgə iqtisadiyyatı: mövcud sürücülərin çox kiçik qismi tələb olunan "fərqlənmə nişanı" əldə edib.**

"Təbii, biz bu vəziyyətə göz yuma bilmərik. Ona görə də qanunvericiliyə taksi fəaliyyətinin tənzimlənməsi, bəlli standartların qoyulması və nəzarət mexanizminin qurulmasını nəzərdə tutan dəyişikliklər təklif olunur. Biz bütün bu islahatlara bütövlükdə Bakı şəhərində mobilliyin genişləndirilməsi, əhalinin ictimai nəqliyyata çıxışının yaxşılaşdırılması və şəhərdə tıxacların azaldılması prizmasından baxırıq", - deyə nazir vurğulayıb.

Beləliklə, taksi fəaliyyəti ilə bağlı ciddi bir rejim tətbiq olunacaq. Sərnişinlərin təhlükəsizliyi, son vaxtlar taksiçilərdən gələn şikayətlər, onların hətta narkokuryelik etməsi faktları baxımından bu sahədə xaosun aradan qaldırılması müsbət qarşılanır.

Ancaq ekspertlər onu da qeyd edir ki, bu gün ölkədə on minlərlə şəxs məhz taksiçiliklə, rayonlararası, şəhərlərarası sərnişindaşıma ilə dolanır. Onların bir çoxu yeni qaydalardan sonra işsiz qala bilər. Habelə taksi qiymətləri bahalaşırsa, hökumət öncə ictimai nəqliyyatda nizam yaratmalıdır.

❑ **T.ƏHMƏDLİ,**
**"Yeni Müsavat"**

# Vasif Talıbovun başı qalmaqalda: yeni qurum yaradıldı, ətrafındakı həlqə daralır

"Bu qurumun təşəbbüsləri və Prezidentə müraciətləri cavabsız qalmayacaq"



**Naxçıvanlı Zərərçəkmişlər Birliyi yaradılır. TNS xəbər verir ki, belə bir təşəbbüslə Naxçıvan Şəhər Məhkəməsinin sabiq sədri, tanınmış hüquqşünas, vəkil Hüseyn Həsənov çıxışı edib. Birliyin yaradılmasında məqsəd Vasif Talıbovun Naxçıvan Muxtar Respublikasına rəhbərlik etdiyi dövrdə insanlara vurulmuş ziyanın hesablanması və ödənilməsinə nail olmaqdır.**

Son 30 il ərzində Vasif Talıbov və onun yaxın adamları tərəfindən minlərlə insanın əmlakı zorla əlindən alınıb, muxtar respublikada və ondan kənarda yaşayan naxçıvanlılara böyük məbləğdə ziyan vurulub. İnsanlara dəymiş zərərin Vasif Talıbovun və yaxın ətrafının şəxsi vəsaiti hesabına ödənilməsi məsələsi qaldırılıb.

Naxçıvanlı Zərərçəkmişlər Birliyi yaradıldıqdan sonra onun üzvləri V.Talıbovun məsuliyyətə cəlb edilməsi üçün ölkə başçısına müraciət edəcək. Birlik Naxçıvan məhkəmələrinin indiyə qədər qəbul etdiyi qanunsuz qərarları da gündəmə gətirəcək.

Bu barədə tanınmış jurnalist Aygün Muradxanlının rəhbəri olduğu Prime TV-nin dünən yayımlanan "Qırmızı masa" proqramında ətraflı bəhs olunub.

Naxçıvan əsilli tanınmış siyasətçilərin bu məsələyə mövqelərini aldıq.

**Böyük Quruluş Partiyasının sədri, deputat Fazil Mustafa "Yeni Müsavat"a bildirdi ki, bu kimi məsələlər insanların hüququdur:** "Hər bir insan öz hüququnu qorumaq üçün konstitusiyada verilən imkanlardan istifadə etməlidir. Yəni bir insanın hüququ pozulubsa, öz haqqını istənilən vaxt tələb etmək imkanına sahib olmalıdır. Ona görə də normal bir prosedurdur. İnsanlar öz hüquqlarını qorumaq istiqamətində addımlar atırlarsa, buna qanunvericiliyimiz hər hansı bir şəkildə qadağa qoymur. Yəni qanunvericiliklə tanınan imkanlardır. Ona görə də bütün bu kimi məsələlərlə bağlı fəaliyyətin olması öz hüquqlarını qoruma, pozulmuş hüquqlarını bərpa etmək baxımından bu istiqamətdə problemləri həll etmək imkanı yarada bilər. Hər halda, bu istiqamətdə atılan addımlar müəyyən dərəcədə dövlət qurumları tərəfindən nəzərə alınmalıdır".

**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, sabiq deputat Fərəc Quliyev bu təşəbbüsün nəticəsiz qalmayacağına inanır:** "Ölkədə aparılan bütün islahatların müəllifi ölkə prezidentidir. Naxçıvanda aparılan islahatların da müəllifi odur. Ora səlahiyyətli nümayəndə təyin etməklə Naxçıvanda vəziyyəti sahmana salmaq xətti götürüldü. Qalanları, əlbəttə, detaldır. Həm müxtəlif qurumların ləğv olunması, böyük, şişirdilmiş aparatların ləğv edilməsi, yerində kiçik idarələrin yaradılması, kadr məsələlərinin yenidən qaydaya qoyulması, müxtəlif yanaşmaların dəyişilməsi təqdir olunur. Naxçıvan üzrə təyin olunmuş nümayəndə də öz qurumunda öz kollektivi ilə fəaliyyətini həyata keçirir. Normal təşəbbüslər qəbul olunur. Əhali ilə sıx əlaqə var, görüşlər keçirilir, problemlər dinlənilir, onların uzun illər yığılıb qalmış problemləri həll olunur. İnsanların gözləntiləri çoxdur. Burada zərərçəkmiş çoxlu insanlar var. Bu gün belə bir təşəbbüslə Zərərçəkmişlər Birliyinin yaradılması gözləniləndir. Burada təəccüblü bir şey yoxdur. Çünki xeyli insan zərər çəkib. Əslində dağınıq şəkildə məsələlərə insanların fərdi şəkildə baxmağındansa, bir qurum ümumi olaraq bu məsələləri toplayıb ortaq fikir məcmusu kimi ortaya çıxarması daha normaldır. Bu həm aşağıların, yəni zərərçəkmişlərin xeyrinədir, həm də dövlət tərəfindən bunların sahmana salınması üçün qruplaşdırmaq imkanı yaranır. Ona görə də bu qurumun təşəbbüsləri və Prezidentə müraciətləri təbii ki, cavabsız qalmayacaq. Yaradılmış qurumun tərkibi ilə tanış deyiləm. Amma əgər bu məsələləri özündə ehtiva edən fəaliyyət olacaqsa, çatışmazlıqlar göstəriləcəksə, çıxış yolları önə çəkiləcəksə, buna dövlətimiz laqeyd qalmayacaq. İndinin özündə də Vasif Talıbovun komandasından korrupsiyada ittiham olunanlar, eləcə də həbsdə olanlar var. Araşdırmaılar davam edir. Müxtəlif qurumlarda yoxlamalar aparılır. Bu müraciətlərdən sonra təbii ki, bu yoxlamaların çərçivəsi böyüyəcək. İnsanların böyük gözləntiləri durmadan artır. Bir iki nəfərin varlanması, camaatı əzməsi müqabilində dövlətimiz, dövlət strukturlarımız gözdən salınıb. Buna imkan verməmək üçün təbii ki, bu insanlar cəzalandırılacaq. Bilinməlidir ki, yürüdülən bu xətt bir qrupa aid olub, bunun dövlətlə heç bir əlaqəsi yoxdur. Dövlət baba hər zaman hörmət edilən bir nəsnədir. Ona görə də belə bir ictimai nəzarətin qoyulması, iştirakçılığın təmin olunması çox mühümdür. Prezidentin özü bütün çıxışlarında cəmiyyəti ictimai nəzarətin qurulmasında fəal olmağa çağırıb. Hesab edirəm ki, təşəbbüsləri, sualları, çağırışları nəzərə alınacaq".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 102 (8238) 13 iyun 2023

**İyunun 12-sində Milli Məclisdə, Mədəniyyət komitəsinin təşkilatçılığı ilə "Qərbi Azərbaycan: soyqırıma məruz qalan tarix-mədəni irsimiz. Qərbi Azərbaycanın tarixi və mədəni irsinin dirçəlişi" mövzusunda ictimai dinləmə keçirildi. Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva giriş nitqi ilə çıxış edərək dövlət və ictimai qurum təmsilçilərinin, yaradıcı insanların, media təmsilçilərinin qatıldığı tədbirin önəmindən bəhs etdi.**



# Parlamentdə Qərbi Azərbaycanla bağlı dinləmə keçirildi - mühüm təkliflər, çağırışlar

## Qənirə Paşayeva: "Bu, Azərbaycanın tarixi torpaqları uğrunda mübarizə mərhələsidir"

## Əziz Ələkbərli: "Millət olaraq o torpaqlarda millətimizin minillər boyu yaratmış olduğu, Azərbaycanın mənəvi bütövlüyünün şərti olan bütün dəyərlərimizə əvvəl ruhən və şüurən sahib çıxmalıyıq"

Komitə sədri dinləmənin yüksək səviyyədə təşkilinə görə Milli Məclisin Sədri Sahibə Qafarova başda olmaqla, Milli Məclis Aparatına, Mədəniyyət komitəsinə, Əziz Əlibəylinin rəhbərliyi ilə Qərbi Azərbaycan İcmasına təşəkkür etdi. **Qənirə Paşayeva** Prezident İlham Əliyevin Qərbi Azərbaycan məsələsinə böyük önəm verməsini, qəbul olunan Qayıdış Konsepsiyası dövlət başçısının Qərbi Azərbaycan İcmasında keçirdiyi görüşdə qarşıya qoyulan əsas vəzifələrlə bağlı fikirlərini bölüşdü. "Dövlət və ictimai qurum təmsilçilərinin, yaradıcı insanların qatılımı ilə - belə bir mötəbər tərkibdə ictimai dinləmənin təşkil olunması və məhz Milli Məclisdə keçirilməsi, Qərbi Azərbaycanla bağlı vətəndaş cəmiyyəti institutlarımızın, xalqımızın, dövlətimizin mövzuya yüksək münasibətinin daha bir ifadəsidir. Əlbəttə, bu dinləmə də daxil olmaqla, Qərbi Azərbaycan mövzusunun cəmiyyətimizdə ən aktual mövzulardan birinə çevrilməsi 44 günlük müharibədə qazandığımız tarixi Zəfərin nəticələrinin bütün əməli fəaliyyət sahələrinə, o cümlədən mədəniyyət aləminə, yaradıcı mühitə sirayət etməsinin bir göstəricisidir". **Qeyd etdi ki, müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin Qərbi Azərbaycan mövzusuna - deməli, insan hüquqlarına, xalqımızın tarixi haqlarına, mədəni irsimizin qorunmasına verdiyi böyük önəmi burada minnətdarlıqla vurğulamalıyıq:** "Ötən il, dekabrın 24-də Prezident İlham Əliyevin Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılan şəraitlə tanış olması və oradakı nitqi bizimçün bir örnək təşkil edir. Həmin nitq bundan sonrakı fəaliynyətimizin proqramı, yol xəritəsi xarakterindədir".

**Deputat, Qərbi Azərbaycan İcmasının sədri Əziz Ələkbərli** icması adından Qərbi Azərbaycanda soyqırımına məruz qalmış tarixi-mədəni irsimizə dair belə bir dinləmənin keçirilməsinə yaratdığı şəraitə görə Milli Məclisin rəhbərliyinə, spiker Sahibə Qafarovaya təşəkkürünü bildirdi. Həmçinin mövzuya həmişə həssas münasibət göstərdiyinə və bugünkü tədbirin təşkilatçılığına görə Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayevaya minnətdarlığını ifadə etdi. İcma rəhbəri bildirdi ki, 2022-ci il dekabrın 24-də Prezident İlham Əliyevin Qərbi Azərbaycan İcmasının inzibati binasına gəlişi ilə Azərbaycanın ictimai-siyasi həyatında yeni bir mərhələnin, yeni bir siyasi xəttin təməli qoyuldu: "Bu, Azərbaycanın tarixi torpaqları uğrunda mübarizə mərhələsidir. Biz bu mərhələni 35 il gözlədik. Çünki qarşımızda Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü, suveren ərazilərimizin 30 illik işğaldan azad edilməsi məsələsi dururdu. Nəhayət, Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə 44 günlük Vətən müharibəsi nəticəsində biz bu vəzifəni şərəflə yerinə yetirdik və möhtəşəm bir Zəfərə imza atdıq. Cənab Prezidentin tövsiyəsi ilə artıq Qərbi Azərbaycan İcmasının fəaliyyət sənədi olan Qərbi Azərbaycana Qayıdış Konsepsiyası qəbul edilib və onun həyata keçirilməsinə start verilib. Şübhəsiz ki, Qərbi Azərbaycan dediyimiz indiki Ermənistan ərazisi son qarışına qədər tarixi Azərbaycan torpağıdır və Azərbaycan xalqı bu torpaqların son qarışına qayıdana qədər bizim mübarizəmiz davam edəcək".

**Ə.Ələkbərlinin sözlərinə görə, Qarabağ və Şərqi Zəngəzur ərazilərinin 30 illik işğaldan azad olunması təcrübəsi göstərdi ki, hər bir fiziki qayıdışın əsasında mütləq mənəvi qayıdış dayanmalıdır:** "Yəni biz bir millət olaraq o torpaqlarda millətimizin minillər boyu yaratmış olduğu, Azərbaycanın mənəvi bütövlüyünün şərti olan bütün dəyərlərimizə əvvəl ruhən və şüurən sahib çıxmalıyıq. Ruhən və şüurən sahib çıxdığımız heç nəyi heç bir qüvvə bizim əlimizdən ala bilməz və fiziki olaraq onlara sahib çıxmaqda bizə mane ola bilməz".

**İcma rəhbəri dedi ki, Qərbi Azərbaycanda milli kimliyimizi sübut edən amillərdən biri də həmin ərazilərdəki çoxsaylı toponimlərdir:** "Çoxlu sayda mənbələr, xəritələr sübut edir ki, bu coğrafiyada hay dilində qətiyyən coğrafi adlar mövcud olmayıb. Ermənilərin erməni sözü kimi təqdim etdiyi bəzi coğrafi adlar isə əslində türk mənşəlidir və türk dilindən erməni dilinə keçən sözlərdir. Məsələn, Quqark, Kotayk, Geğarkunik, Gümrü, Yerevan, Masis, Şirak və s. onlarla dırnaqarası "erməni" toponimi kimi".

**Deputat, Qərbi Azərbaycan İcmasının Ağsaqqallar Şurasının sədri Əhliman Əmiraslanov erməni vandallarının əməllərindən bəhs etdi, faktlar sadaladı**. "Bizim haqqımız var ki, dədə-baba yurdlarımıza geri dönək. Biz əcdadlarımızın yaratdığı mədəni irsə sahib çıxmalıyıq" . **İcma nümayəndəsi indiki Ermənistan ərazisindəki tarixi və mədəni irsimizin talan edilməsi istiqamətində törədilən cinayətlərdən bəhs etdi. Bildirdi ki, ötən illər ərzində azərbaycanlılara məxsus 500-dən çox qəbiristanlıq, 391 məscid, 7 memarlıq abidəsi erməni vandallar tərəfindən yer üzündən silinib:** "Ermənistandakı mədəni irsi əvvəldən planlaşdırılmış şəkildə məhv edilib. Ermənistanda yeganə salamat qalan Göy məscid qəsdən "İran məscidi" kimi təqdim edilir. Ermənistan hökuməti Azərbaycan mədəniyyətinin izlərini sonadək silməyə davam edir".

**Ə.Əmiraslanov bildirdi ki, Azərbaycanın mədəni irsinin mühüm nümunəsi olan Təpəbaşı məhəlləsi də məhv edilmək üzrədir. Ə.Əmiraslanov Aşıq Ələsgərin Göyçədəki məzarı və abidəsinin də dağıdıldığını qeyd etdi.** "Biz mənəvi irsimizin bərpası və qorunmasında beynəlxalq təşkilatların dəstəyinə ümid edirik. Ermənistanın beynəlxalq öhdəliklərə necə əməl etdiyini öyrənmək üçün bu ölkəyə faktaraşdırıcı missiyanın göndərilməsi zəruridir".

**Deputat Fazil Mustafa** bildirdi ki, biz diqqətimizi daha çox Qərbi Azərbaycandan didərgin salınmış insanların yurd-yuvalarına qaytarılması məsələsinə önəm verməliyik. Əks təqdirdə, oradakı abidələrin bərpası məsələsinə kosmik fəzadan baxan şəxs təsiri bağışlayacağıq.

**Qərbi Azərbaycan İcmasının Müşahidə Şurasının sədri Misir Mərdanov** Milli Məclisdəki dinləmədəki çıxışında vacib istiqamətlərdən bəhs etdi. Öncə bildirdi ki, ötən il cənab Prezidentin ad gününü Qərbi Azərbaycan İcmasının üzvləri ilə görüşə həsr etməsi və tarixi nitq söyləməsi Qərbi Azərbaycana qayıdış məsələsinin ən ciddi məsələlərdən biri olduğunu bir daha təsdiqləyir.

**M.Mərdanov bildirdi ki, bizim ən çatışmayan cəhətlərimizdən biri Qərbi Azərbaycan tarixini əks etdirən dərsliklər və əsərlər yazıb beynəlxalq səviyyəyə təqdim etməməyimizdir.** "Azərbaycan Təhsil Nazirliyi bu məsələyə çox ciddi fikir verməlidir. İkinci məsələ nüfuzlu jurnallarda sanballı elmi əsərlərin hazırlanmasıdır. Bir tərəfdən ermənilər və ya ermənipərəst şəxslər tərəfindən yazılmış əsərlərə münasibət bildirməlidir, digər tərəfdən nüfuzlu jurnallarda öz əsərlərimizi çap etdirməliyik".

M.Mərdanov digər məsələyə də toxundu. Bildirdi ki, 1988-ci ilin sonunadək Qərbi Azərbaycanda yaşamış azərbaycanlıların başına gələnlər arxivləşdirilməlidir. Dinləmədə iştirak edən telekanal rəhbərlərinə xitab edən M.Mərdanov televiziyaların bu məsələyə önəm verməsini zəruri saydı "Tövsiyə edirəm ki, hələ gec deyil, telekanal əməkdaşları o yerlərdən köçüb gəlmiş insanlarla görüşsünlər, necə köçürüldükləri barədə faktlar lentə alınsın. Film demirsiniz? Elə bunun özü filmdir".

M.Mərdanov bildirdi ki, 10-15 il əvvəl bəzi insanlar Şuşaya, Laşına qayıdışımıza inanmırdılar, bu gün də bəzilərində Qərbi Azərbaycana qayıdışa şübhə edənlər tapılır: "Mən 2001-ci ildə öz kəndimizdə olmuşam, İrəvandan kəndimizədək gəlmişəm. Kənd yerlərində məskunlaşma sıfır vəziyyətindədir. Vaxtilə bizim kəndimizdə 150 ev vardı. Amma mən getdiyim zaman o evlərin 50-sində qoca qadın və kişi yaşayırdı. Yəqin ki, onların çoxu artıq dünyada yoxdur. O torpaqların böyük hissəsi boşdur. Bizim ora qayıtmağımız üçün böyük şansımız var". M.Mərdanov qeyd etdi ki, dünyada 60 milyondan çox azərbaycanlı var. Onların bir hissəsi də qərbi azərbaycanlıdır və o insanlar arasında da seçim aparılmalıdır. M.Mərdanov qeyd etdi ki, qardaş Türkyədə də çoxsaylı insanlarımız var. Amma onların biri Cəfəridir, biri Ələvidir ki, bu da narahatlıq yaradır: "Biz Türkiyədə bu təbliğatı aparmaq üçün nüfuzlu həmvətənlərimizin gücündən istifadə etmək üçün addımlar atmalıyıq. Necə ki, İkinci Qarabağ müharibəsi zamanı hamımız qarabağlı idi. Gəlin burada da ayrı-seçkilik etməyək. Yalnız Qərbi Azərbaycandan olanlar yox, bütün Azərbaycan xalqı, dünyanın hər yerində yaşayan azərbaycanlılar birləşməlidir və cənab Prezidentin rəhbərliyi ilə biz o torpaqlara qayıtmalıyıq".

**Azərbaycan Mətbuat Şurasının sədri, Yazıçılar Birliyinin sədr müavini Rəşad Məcid tədbirin önəmindən bəhs etdi. Eyni zamanda bildirdi ki, Yazıçılar Birliyinin Qərbi Azərbaycan bölməsi yaxın vaxtlarda fəaliyyətə başlaya bilər:** "Zəfərimizə qədər hər birimiz qarabağlı idik, indi isə qərbi azərbaycanlı olmalıyıq. Hesab edirəm ki, Medianın İnkişafı Agentliyi, Mətbuat Şurası və Qərbi Azərbaycan İcması gələcəkdə birgə layihələr həyata keçirməlidir".

Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva Qərbi Azərbaycanla bağlı materialların hansı kanalda hazırlanmasından asılı olmayaraq, bütün mediada işıqlandırılmasını zəruri saydı və bununla əlaqədar həm Mətbuat Şurasının sədri Rəşad Məcidə, həm də MEDİA-nın rəhbəri Əhməd İsmayılova müraciət etdi.

Real TV-nin rəhbəri Mirşahin Ağayev "Biz ayağı heç vaxt Qərbi Azərbaycana dəyməyən insanların ürəyində Qərbi Azərbaycan sevgisi yaratmalıyıq" - söylədi və maraqlı məqamlara toxundu.

**Deputat, Xalq şairi Sabir Rüstəmxanlı** Milli Məclisdə keçirilən Qərbi Azərbaycanla bağlı dinləmədə bir sıra təkliflərini səsləndirdi. Bildirdi ki, qərbi azərbaycanlılara vurulan zərər, başlarına gələn müsibətlər sənədləşdirilməlidir. Bildirdi ki, vaxtilə ona "sabah siz beynəlxalq məhkəməyə müraciət edəndə hansı sənədlərlə gedəcəksiniz?" - sualı ünvanlayan olub. S.Rüstəmxanlı bildirdi ki, ermənilər saxta "soyqırım" iddiasını qoyanda biz də Qərbi Azərbaycan məsələsini masaya qoymalıyıq. Əsas arqument bu olmalıdır ki, ermənilər Şərqi Anadoludan Qərbi Azərbaycana köçməklə dövlətə sahibləndilər, azərbaycanlıları deportasiya edərək. Deputat dedi ki, Azərbaycan ərazilərindəki alban kilsələri də bütün dünyaya dəqdim olunmalıdır. "Qərbi Azərbaycanın tarixi dəqiq yazılmalıdır. Erməni dilini bilən alimlər yetişdirilməlidir. Qərbi Azərbaycan tarix və soyqırım muzeyi, son 200 ildə ruslarla birgə ermənilərin hansı soyqırımı törətməsini əks etdirən muzey yaradılmalıdır" - S.Rüstəmxanlı bildirdi.

**Qərbi Azərbaycanla bağlı dinləmədə çıxış edən Azərbaycan Televiziya və Radio Verilişləri QSC-nin sədri Rövşən Məmmədov** öncə tədbirin təşkilinə görə Milli Məclis rəhbərliyinə təşəkkürünü bildirdi. Daha sonra əlavə etdi ki, biz hər birimiz Qərbi Azərbaycanlıyıq və buna kimsə şübhə etməməlidir. R.Məmmədov telekanallara çağırışlarla bağlı bildirdi ki, media sahəsində Qərbi Azərbaycanla bağlı çox maraqlı təhlillər, materiallar gedir, sadəcə, tamaşaçının saatlarla televiziyanı izləmək üçün vaxtı yoxdur. "AzTV-də Qərbi Azərbaycanla bağlı gün ərzində 4-5 dəfə verilişlər gedir. Bu gün AzTV-də Qərbi Azərbaycan adlı veriliş gedir. Bir neçə il əvvəl AzTV İtaliya jurnalistləri ilə danışıqlara getdi və onların Qərbi Azərbaycana səfərinə nail oldu. Onlar Təpəbaşı və digər ərazilərdə oldular, reportajlar apardılar, həmçinin biz özəl görüntülər əldə etdik", - AzTV sədri bildirdi. Əlavə etdi ki, Qərbi Azərbaycanla bağlı şöbə fəaliyyət göstərir, erməni, fars, kürd dilində verilişlər yayımlanır internet üzərindən. "Biz əlimizdən gələnləri edirik" - deyən telekanal rəhbəri Qərbi Azərbaycanla bağlı resursun əldə edilməsi vacibliyindən də bəhs etdi: "Mən məsələyə optimist yanaşıram və əmin olun ki, bu istiqamətdə işlər görülür".

❑ **Elşad PAŞASOY,**
**"Yeni Müsavat"**

# Ərdoğan Azərbaycanda - mühüm səfərin detalları

## Əliyevlə hansı məsələlər müzakirə olunacaq?; Türkiyənin yenidən prezident seçilən lideri ilk xarici səfərini Azərbaycana edir; görüşdə iqtisadi əlaqələr, hərbi müttəfiqlik, regional mövzular masada olacaq; **Toğrul İsmayıl:** "İlk səfərin bura olması münasibətlərin güclü olduğunun simvoludur"

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycana gəlib. Bu, onun mayın 28-də təkrar prezident seçilməsindən sonra xarici ölkəyə ilk səfəridir. Hərçənd Azərbaycan xarici ölkə sayılmaz. Doğrudur, qardaş ölkə lideri Bakıya Şimali Kipr Türk Cümhuriyyətindən (ŞKTC) sonra təşrif buyuracaq. Ancaq ŞKTC dünya birliyinin üzvü olmadığı üçün Ərdoğanın ilk səfər etdiyi xarici dövlət elə Azərbaycan sayıla bilər. Türkiyə Prezidenti Administrasiyasının yaydığı məlumata görə, səfər çərçivəsində keçiriləcək görüşlərdə yeni dövrdə Türkiyə-Azərbaycan münasibətlərini yaxşılaşdıracaq digər əməkdaşlıq imkanları ilə yanaşı, cari beynəlxalq və regional hadisələrlə bağlı fikir mübadiləsinin aparılması nəzərdə tutulur.**

Ənənəyə uyğun olaraq, buradan (Şimali Kipr Türk Respublikasından) Azərbaycana gedəcəyəm.

APA-nın Türkiyə müxbiri xəbər verir ki, bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Şimali Kipr Türk Respublikasının Prezidenti Ersin Tatarla birgə mətbuat konfransı zamanı bildirib.

O qeyd edib ki, Azərbaycanda bir sıra görüşlər keçirəcək.

"Yeni Şafak" nəşri isə yazıb ki, Bakıda Azərbaycan və Türkiyə prezidentləri "Cənubi Qafqazda sülh və sabitlik haqqında" bəyanatlarla çıxış edəcəklər. Son illərdə iki ölkə arasında siyasi-iqtisadi, hərbi sahələrdə müttəfiqlik ən yüksək səviyyədə inkişaf etməkdədir. Şuşa Bəyannaməsi bu əlaqələri daha da gücləndirir. Türkiyənin regionda varlığı Azərbaycanın Qarabağdakı addımlarını da sürətləndirir. Eyni zamanda Zəngəzur dəhlizinin açılması Ankaranın İrəvan qarşısında qoyduğu əsas şərtlərdən biridir, bu halda əlaqələr tam bərpa edilə bilər. Həmçinin Ermənistan-Azərbaycan normallaşma prosesinin gedişindən asılı olaraq, Türkiyə-Ermənistan əlaqələri sinxron inkişaf edə bilər. Hər halda, Ərdoğanın Bakı səfərində həm iqtisadi münasibətlər, həm hərbi müttəfiqliyin artırılması, həm də regional məsələlər müzakirə ediləcək.

Belə xəbərlər də var ki, Türkiyə liderinin təyyarəsi Bakıya yox, Gəncəyə enə bilər. Onun ölkəmizə səfəri çərçivəsində işğaldan azad olunmuş ərazilərə səfəri istisna edilmir.

**Ankara Universitetinin professoru Toğrul İsmayılın "Yeni Müsavat"a bildirdiyinə görə, Ərdoğanın ilk xarici səfəri məhz Azərbaycanadır:** "Şimali Kipr daxili və xarici məsələdir, amma Azərbaycan ilk xarici ziyarətdir. Fikrimcə, Türkiyə liderinin səfəri bu günə qədər davam edən siyasətin bir parçasıdır. Belə səfərlərdə gündəmdəki mövzular da müzakirə olunur, digər məsələlər də... Amma istər Zəngəzur koridoru olsun, istər başqa regional layihələr, proses artıq başlayıb, burada başqa oyunçular da iştirak edir, yəni hansısa güc qarşısını ala bilməz. Türkiyə-Azərbaycan müttəfiqliyi isə proseslərin ana xəttini ortaya qoymaqdadır".

**T.İsmayıl hesab edir ki, dövlətlərarası təhlükəsizliyin güclənməsi buna ciddi şəkildə təkan verəcək:** "Bu ziyarəti yenidən prezident seçilmiş Ərdoğanın Azərbaycana ilk səfəri kimi qiymətləndirirdim. Bu da iki ölkə arasında münasibətlərin nə dərəcədə güclü olduğunun simvoludur. İlk xarici dövlət ziyarətinin Azərbaycandan başlanması uzaq keçmiş deyil. Azərbaycan dövlətinin ilk xarici səfər ziyarətinə baxaq, yeni çox ciddi simvollardır. Bu da dünya diplomatiyasına damğasını vuran məsələlərdir. Bunları kiçiltmək olmaz, əhəmiyyətini hər kəs görməkdədir. Bu cür görüşlərdə hər şey müzakirə edilir. Seçkilərə qədər dedi-qodu çox idi, Ərdoğan seçilməsə nə olacaq, seçilsə nə olacaq, görünən budur ki, irəlidəki 5 il müddətə bu yol davam edəcək".



**Hərbi analitik Alp Arslan İmamqulu qəzetimizə bildirdi ki, regionda gedən proseslər göstərir ki, ümumiyyətlə, Azərbaycan müttəfiqlərinin sayını artırmalıdır. Onun sözlərinə görə, real müttəfiqimiz hazırda Türkiyədir və bu da Şuşa bəyannaməsində öz əksini tapır.** "Lakin Türk dünyasının bir araya gəlməsi baxımından, deyə bilərəm ki, Ərdoğanın hakimiyyətdə olduğu dövrdə bu məsələlərə baxılacaq. Xüsusən Türk Dövlətləri Təşkilatına üzv ölkələrin prosesə cəlb olunacağını düşünürəm. Ona görə də Avrasiya materikində müttəfiqlərimizi artırmalıyıq". **Hərbi ekspert hesab edir ki, Türkiyə ilə hərbi müttəfiqlik daha da inkişaf etdirilməli, hərbi sənayenin inkişafı ilə bağlı birgə addımlar atılmalı, o cümlədən ortaq hərbi məktəblər, universitetlər təsis edilməlidir.** "Bu gün hərbçilərimiz Türkiyədə kurslara cəlb olunur, mən özüm də Türkiyədə təhsil almışam, amma zənnimcə, ortaq təhsil mərkəzinə ehtiyac var. Hətta türkdilli dövlətlərin ortaq hərbi akademiyasının qurulması zəruridir. Burada komanda-qərargah məktəblərinin, ortaq komando məktəblərinin yaradılması lazımdır. KTMT-də olan ölkələr kimi adı siyahıda formal keçməli deyil, daha geniş şəkildə iş qurmalıyıq, strateji müəssisələrimiz eyni mərkəzdə çalışmalıdır. Əgər ortaq hərbi məktəb yarada bilsək, bu həm də ortaq Turan ordusu deməkdir, o halda heç hərbi baza yerləşdirməyə ehtiyac qalmaz. Necə ki NATO-ya üzv ölkələr belə fəaliyyət göstərir, ən azı başlanğıc üçün bunu etməliyik".

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**

# Zəngəzur dəhlizi açılır, amma kimin nəzarətində - Paşinyanın qəliz dilemması

## Ermənistan Qərbin istəyi ilə 10 noyabr üçtərəfli bəyanatının 9-cu bəndindən imtina edir

**Xəbər verildiyi kimi, iyunun 2-də Moskvada Azərbaycan-Rusiya-Ermənistan üçtərəfli İşçi Qrupun iclası keçirilib. 9 saat çəkən toplantıda tərəflər arasında Arazdəyən-Culfa-Ordubad-Meğri-Horadiz marşrutu üzrə dəmir yolu əlaqəsinin bərpası və təşkili üzrə konkret addımların həyata keçirilməsi ilə bağlı ümumi anlaşma əldə olunub.**



İşçi qrupunun Rusiyadan olan həmsədri, baş nazirin müavini Aleksey Overçuk deyib ki, Azərbaycanın materik hissəsi ilə Naxçıvanı birləşdirən kommunikasiyanın açılması ilə bağlı faktiki razılıq əldə olunub, yalnız bəzi texniki detallar qalıb. Sitat: "Görüşün nəticələrinə görə əsas məqamlar - dəmir yolunun haradan keçəcəyi, gömrük nəzarətinin necə aparılacağı ilə bağlı razılaşma var. Bu, adi dəmir yolu olacaq. Heç kim heç bir şəkildə Ermənistanın suverenliyini şübhə altına almır. Bütün tərəflərdə maneələrin qaldırılmasına mümkün qədər tez başlamaq əhval-ruhiyyəsi var".

Lakin Overçuk yola nəzarətin 10 noyabr (2020) sənədi əsasında həyata keçirilməli olduğuna da diqqət çəkib. Orada isə (9-cu bənd) söhbət Rusiya FTX-dən gedir.

Öz növbəsində Azərbaycan baş nazirinin müavini Şahin Mustafayev "Baku-Moskva" nəşrinə açıqlamasında Zəngəzurdan keçən yolun Rusiya FTX-nin nəzarəti altında olacağını bildirib. Yəni əslində bu, Azərbaycanın mövqeyi deyil, 10 noyabr bəyanatının məlum bəndində nəzərdə tutulub.

**Ermənistan isə belə görünür həmin bəndin tələbindən imtina etmək istəyir. Ermənistan baş nazirinin müavini Mger Qriqoryanın ofisindən bildirilib ki, Naxçıvana gedən rabitə yollarına Ermənistan ərazisində Rusiya Federasiyası FTX-nin sərhədçiləri tərəfindən nəzarət edilməsinə dair razılıq əldə olunmayıb.** "Üçtərəfli İşçi Qrupunun müzakirələrində, o cümlədən sonuncu görüşdə belə bir razılaşma olmayıb. Ermənistanın mövqeyi belədir ki, 10 noyabr 2020-ci il bəyanatının 9-cu bəndinə əsasən baxılan marşrutlar ərazisindən keçən ölkənin suverenliyi altında olmalıdır", - məlumatda qeyd edilib.

Burada prinsipial bir məqam var. Məsələ ondadır ki, 10 noyabr kapitulyasiya sənədinə əsasən (6-cı bənd) Laçın yolu uzağı 2025-ci ilin noyabrınadək Rusiyanın nəzarətində qala bilərsə, Zəngəzur dəhlizi ilə bağlı (9-cu bənd) müddət göstərilmir. Lakin Azərbaycan dövləti 2025-ci ili gözləmədən artıq öz iradəsini ortaya qoyub və Laçının girişində nəzarət postu yaradıb. Analoji addımı İrəvan da ata biləcəkmi, Moskvaya qarşı özündə güc tapacaqmı? Rusiya zəif Ermənistana imkan verərmi?

İstisna deyil ki, məsələdə "qərbçi" Paşinyan hökumətinə pərdəarxasında ABŞ ciddi təzyiq edir. Çünki yola FTX-nin nəzarəti Rusiya və İranı tam qane edir, üstəlik, İrəvanın Moskvadan asılılığını artırır. Bəs Azərbaycana hansı variant əlverişlidir?

**Sosial Tədqiqatlar Mərkəzinin sektor müdiri İlyas Hüseynov** "Yeni Müsavat"a bildirdi ki, regionda Azərbaycan və Ermənistan arasında siyasi nizamlanma prosesində vasitəçilərin aktivləşməsi fonunda 2023-cü ildə intensiv keçirilən danışıqlar bir-birini əvəz edir. Burada ilkin təəssürat bundan ibarətdir ki, kommunikasiya xətləri ilə bağlı bir mübarizə var, narahatlıq mövcuddur və Qərbin irəli sürdüyü əsas tezis əvvəlcə elə Ermənistanın baş naziri tərəfindən dəfələrlə söylənilib. Bu, kommunikasiyalar üzərində suverenlik tezisidir: "Eyni zamanda burada Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın digər əraziləri arasında, Ermənistanla Qarabağ iqtisadi zonası arasında olan nəqliyyat bağlantıları, yollar, kommunikasiyalar bu gün həm də vasitəçilərin özlərinin maraqları dairəsinə düşüb. Həmçinin nəzərə almalıyıq, Rusiya-Ukrayna müharibəsi fonunda Rusiyaya qarşı çox ciddi iqtisadi sanksiyalar tətbiq olunur, məhdudiyyətlər müşahidə olunur və əlbəttə bu sanskiyalar həm də Cənubi Qafqazda Rusiyanın güclənməsi, təhlükəsizlik adı altında nəqliyyat yollarına nəzarəti Qərb üçün qəbul olunan deyil. Azərbaycan öz suveren hüquqlarından istifadə edərək Laçın yolu üzərində nəzarət-buraxılış məntəqəsini qurduqdan sonra artıq Ermənistan da 10 noyabr üçtərəfli bəyanatın 9-cu maddəsini şübhə altına qoyur. İrəvan qəsdən belə fikirlər irəli sürür ki, Rusiya Federal Təhlükəsizlik Xidmətinin sərhəd qoşunları təhlükəsizliyi təmin etməyəcək. Mənə belə gəlir ki, danışıqlar mahiyyəti və məntiqi üzrə məhz 10 noyabr üçtərəfli bəyanatdan irəli gələn predmetlə masaya yatırılmışdı, müzakirə olunurdu və üç ilə yaxın müddət ərzində keçirilən danışıqlardan sonra artıq belə bir fikri irəli sürmək məntiqdən kənardır. Bu, həm də Ermənistan-Rusiya arasında ziddiyyətli münasibətlərindəki ziddiyyətlərin bir göstəricisidir, eləcə də Ermənistanın Qərbə meyllənməsini gücləndirməsinin daha bir nümunəsidir".

Politoloqun sözlərinə görə, heç şübhəsiz ki, Ermənistanın baş nazirinin müavini-danışıqlarda bilavasitə iştirak edən Mger Qriqoryan qeyd etdiyimiz fikirləri Ermənistanın maraqlarından və suveren hüquqlarından irəli gələrək demir, daha çox Qərbdəki təlimatçıların fikirlərinin yerinə yetirir. Rusiyanı Cənubi Qafqazdan sıxışdırıb çıxarmaq məqsədini güdən bu cür açıqlamalar həm də iqtisadi nəqliyyat əlaqələrinin bərpa olunmasına və sülh müqaviləsinin imzalanmasına qarşı olan bir demarşdır. Moskvanın bu demarşa qarşı İrəvanı sıxışdırmaqla cavab verəcəyi gözləniləndir. Rusiya Zəngəzur dəhlizinə, açılacaq kommunikasiya xəttinə nəzarəti 10 noyabr üçtərəfli bəyanatının tələbinə uyğun olaraq Rusiya təhlükəsizlik qüvvələrinin nəzarət etməsini təmin etməkdə qərarlı olacaq. Ermənistanın bu məsələdə Rusiyanın önünə keçməyi bacarması asan deyil.

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 102 (8238) 13 iyun 2023

# "Rusiya istəmir ki, bu məsələ həll olunsun"

## Vahid Əhmədov: "Qarabağa dair məsələlərin həllini Brüsseldə görürəm, çünki onların mövqeyi Azərbaycanın mövqeyi ilə faktiki olaraq üst-üstə düşür"

**Baxış bucağı**

**Milli Məclis hökumətlə birlikdə "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" qanun layihəsinin müzakirələrini komitə və plenar iclaslarda davam etdirir. Büdcə qanununun bir ölkənin taleyində böyük önəm kəsb etməsi bəllidir.**

*Eyni zamanda büdcənin dürüstləşdirilməsi, əlavə və dəyişikliklər edilməsi zərurəti barədə suallar da ortaya çıxır. Deputat, parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vahid Əhmədov bu mövzu ilə əlaqədar "Yeni Müsavat"ın suallarını cavablandırıb.*

**- Vahid müəllim, büdcənin dürüstləşdirilməsi ilə bağlı müzakirələrin hansı zərurətdən irəli gəldiyi barədə rəsmi açıqlamalar oldu. Dövlət başçısının da bu məsələ ilə bağlı tapşırığı olmuşdu. Sizin bu müzakirələrə münasibətiniz necədir?**

- Ümumiyyətlə, dürüstləşdirilmiş dövlət büdcəsini şərtləndirən məsələlər var idi. Əgər biz 2022-ci ilin yekununa baxsaq, 2022-ci ilin dövlət büdcəsinin icrasında kifayət qədər müsbət məqamlar var. Mən belə hesab edirəm ki, 2022-ci ilin dövlət büdcəsinin icrası son on ildə ən yüksək səviyyədə icra olunan layihə idi. Büdcənin icrası təxminən 99 faizdən yüksək həyata keçirilmişdi. Bizdə hələ indiyədək belə, ən yüksək səviyyədə icra olmamışdı. Bu, həm ölkə hökumətinin, həm Maliyyə Nazirliyinin, həm İqtisadiyyat Nazirliyinin atdığı addımların nəticəsi idi. 2022-ci il dövlət büdcəsinin icrasında ilk dəfə olaraq Neft Fondundan transfert 12,7 milyard manat nəzərdə tutulmuşdusa, təxminən 4,8 milyard manat az vəsait istifadə olundu. Belə hadisə olmamışdı. İkinci bir misal: dövlət büdcəsinin kəsiri 3 milyard manata yaxın nəzərdə tutulurdusa, təxminən 1,4 milyard manat istifadə olundu. Yəni kəsir cəmi 1,6 milyard manat oldu. Faktiki olaraq qənaət edildi.

**- Kifayət qədər ciddi rəqəmlərdir və dediyiniz kimi, ilklər sırasındadır. Bu qədər maliyyə ehtiyatlarına qənaət edilməsi nəyin hesabına baş verdi, şəffaflığın təmin olunması, yoxsa nəzarətin artırılması hesabına?**

- Təbii ki, bu, şəffaflığın təmin olunması, kölgə iqtisadiyyatının müəyyən qədər aradan qaldırılması, korrupsiyaya qarşı aparılan mübarizənin nəticəsi idi. O cümlədən neftin qiymətinin yüksək olması öz təsirini göstərdi. Yəni bu sahədə 2022-ci ildə Azərbaycan hökuməti tərəfindən böyük işlər görüldü və məhz büdcənin belə bir şəkildə icrasına nail olundu. Büdcənin bu şəkildə icrası həm də 2023-cü il büdcəsinə düzəlişlər üçün şərait yaradan səbəblərdən biri oldu.

**- Demək, 2022-ci ildəki şəffaflığın, qənaətin, nəzarətin hesabına əldə olunan ehtiyatlar 2023-cü ildə ayrı-ayrı vacib sahələrə ayrılır və əlavə xərclərə ehtiyac duyulmur, eləmi?**

- Bəli. Eyni zamanda cari ilin ilk dörd ayının yekunları göstərdi ki, Azərbaycanın neft və qeyri-neft sektorunda kifayət inkişaf var. Əsasən də qeyri-neft sektorunda inkişaf oldu. Eyni zamanda neftin qiyməti öz sözünü dedi. Biz büdcədə neftin qiymətini 50 dollar götürmüşdük, amma neftin qiyməti orta hesabla 86,6 dollar oldu. Yəni 36 dollar əlavə vəsait daxil oldu. Bütün bunlar dövlət büdcəsinə yenidən baxılmasını şərtləndirdi. Bir tərəfdən də dövlət başçısı cənab İlham Əliyev bir neçə dəfə demişdi ki, bizim əsas prioritet işimiz Qarabağda tikintinin yekunlaşdırılması və əhalinin yurd yerlərinə köçürülməsidir. Bilirsiniz ki, Böyük Qayıdışa dair 2026-cı ilədək dövrü əhatə edən Dövlət Proqramı təsdiqlənib və artıq proses yüksək səviyyədə həyata keçirilməkdədir. Mayın 28-də cənab Prezident Laçına qayıdan ailələrlə görüş keçirdi. Orada əhalinin rahat yaşayışı üçün infrastruktur yaradılıb və proses davam edir. Ona görə də Laçın şəhəri də daxil olmaqla, digər ərazilərimizin qurulması üçün müəyyən qədər əlavə vəsait lazım idi. Mən Qarabağla əlaqədar bir misal da çəkim: 2021-2022-ci ildə Qarabağda həyata keçirilən işlərə haradasa 6,3 milyard manat vəsait xərcləmişik. Görülən işlər də kifayət qədər böyükdür, mən orada olmuşam və görmüşəm. Bu işlər hazırda sürətlə davam etdirilir. Biz 2023-cü ilin dövlət büdcəsində Qarabağa Böyük Qayıdışla əlaqədar 3 milyard manat vəsait ayırmışdıq. Amma bu vəsait bəs eləmirdi. Çünki orada işin miqyası kifayət qədər böyükdür. Ona görə də cənab Prezidentin göstərişinə əsasən, dövlət büdcəsində əlavə 2,2 milyard manatın ora ayrılması nəzərdə tutulur. Ümumilikdə 2023-cü ildə dövlət büdcəsindən 5,3 milyard manat Qarabağa sərf ediləcək. Bu, təxminən dövlət büdcəsinin altıda biridir, böyük rəqəmdir. Yəni Qarabağ dövlətimiz üçün prioritet sahədir. Yeri gəlmişkən, ötən həftə Prezident Administrasiyasının rəhbəri hörmətli Samir Nuriyevin rəhbərliyi ilə Əlaqələndirmə Qərargahının Laçın şəhərində iclas keçirməsi də dövlətimizin Qarabağa qayıdış məsələsinə nə qədər önəm verdiyini bir daha təsdiqləyir.



**"Hamını narahat edən inflyasiyadır"**

**- Prioritetlərdən biri də sosial istiqamətdir...**

- Ümumiyyətlə, dövlət büdcəsi təsdiq olunanda həmişə cənab Prezident əsas sosial layihələrə nəzər yetirib. 2022-ci ilin dövlət büdcəsində biz 45 faizi sosial layihələrə ayırmışdıq: müavinətdir, pensiyalardır, əmək haqlarıdır, şəhid ailələri, qazilərin məsələləridir, məktəb, xəstəxanalar və digər tikinti layihələridir. Amma mən deyərdim ki, hazırda Qarabağ məsələsi əsas prioritet məsələ kimi nəzərdə tutulur, ona görə də bu istiqamətə kifayət qədər böyük vəsait ayrılır. Məhz o səbəbdən 5,3 milyard manat vəsaitin ayrılması nəzərdə tutulub. Digər mühüm məsələyə gəldikdə, bilirsiniz ki, Qarabağla bağlı məsələ tam sona çatdırılmayıb, eyni zamanda sərhədlərin delimitasiya və demarkasiyası həllini tapmayıb. Həmçinin Rusiya hərbi kontingenti bölgədədir, Ermənistandan Laçın, Kəlbəcər, Naxçıvan bölgəsi son vaxtlar intensiv atəşə tutulur.

**- Dövlət başçısının Laçından etdiyi xəbərdarlıq da sıradan məsələ deyildi...**

- Bəli. Çox ciddi xəbərdarlıq idi. Prezident hətta bildirdi ki, biz amnistiya verməyə hazırıq. Özü də bu, həm ABŞ Dövlət Departamenti, həm Avropa dövlətləri tərəfindən çox yaxşı qarşılandı. Cənab Prezident həmişə olduğu kimi, sülh sazişinin imzalanmasına çalışır, birdəfəlik sərhəd məsələsinin həll olunmasını istəyir. Ona görə də müdafiə və təhlükəsizlik məsələləri bizimçün önəmli olduğuna görə, 1,1 milyard manat da bu sahəyə əlavə vəsaitin ayrılması nəzərdə tutulur. Eyni zamanda 800 milyon manata yaxın vəsait digər sahələrin - su, qaz, işıq və s. infrastruktur layihələrə, səfirliklərlə bağlı işlərə sərf olunacaq. Həmçinin Sahibkarlıq İnkişaf Fonduna müəyyən qədər vəsait ayrılacaq.

**- Azərbaycan dövlətinin maliyyə sahəsi ilə bağlı sıxıntısının olmaması da əlavə üstünlüyüdür.**

- Təbii ki. Azərbaycanın 65 milyard dollara yaxın ehtiyatı var. Bu, çox böyük ehtiyatdır, təxminən 110 milyard manata yaxın vəsait edir, dövlət büdcəsini 3 dəfə üstələyir. Ona görə də büdcədən vacib sahələrə vəsait ayrılır, bu, tamamilə düzgündür. Büdcə müzakirələrinin ilk oxunuşunda, həm komitə, həm plenar iclaslarda maliyyə nazirinin, İqtisadi İnkişaf Nazirliyinin rəhbərliyinin çıxışları çox müsbət məqamlar üzərində qurulmuşdu.

**- Bu gün sizi narahat edən əsas məsələlər nədir?**

- Hamını narahat edən inflyasiyadır. 2023-cü ilin dövlət büdcəsində 6,9 faiz götürülmüşdü, amma büdcədəki düzəlişlərdən sonra 10,4 faiz nəzərdə tutulub. Mən çıxışımda qeyd elədim, inflyasiya ilə bağlı Azərbaycanın daxilində də müəyyən problemlər var. Lakin əsas problem idxalda olan problemdir. Biz ölkəyə kifayət qədər məhsul idxal edirik. Xarici ticarətdə bizim bir saylı tərəfdaşımız Türkiyədir, sonra Rusiyadır, Ukraynadır, Orta Asiya ölkələridir və s. O ölkələrdə çox yüksək inflyasiya gedir. Biz oradan mal idxal edəndə həm inflyasiya idxal edirik, həm də qiymət artımı. Azərbaycanda da süni qiymət artımı var. Bununla əlaqədar Antiinhisar Xidməti işləyir, nazirlik işləyir, hökumətin antiinhisar tədbirləri var. Mən iclasda xahiş etdim ki, heç olmasa inflyasiyanı bir az aşağı səviyyədə qoruyub-saxlamaq, qiymət artımının qarşısını almaq üçün bu tədbirləri bir az da genişləndirmək və sərtləşdirmək lazımdır. Misal üçün, 2022-ci ildə ərzaq məhsullarında inflyasiya 20 faizə qədər olub, dərman vasitələrində inflyasiya 40 faizədək artıb. Biz heç olmasa ərzaq və dərmanla əlaqədar elə tədbirlər görməliyik ki, insanlar bu məsələlərlə bağlı əziyyət çəkməsinlər. Yəqin ki, bununla əlaqədar hökumətdə proqramlar işlənib-hazırlanacaq. Bu iki məsələ bizi çox narahat edir.

**- Vahid müəllim, Qarabağla bağlı gərginliyi tətikləmək istəyən qüvvələrin fəaliyyəti göz önündədir. Siz qarşıdakı dönəmdə nə gözləyirsiniz?**

- Cənab Prezident çox çalışır ki, Ermənistanla sülh sazişi imzalansın. Amma bunu istəməyən qüvvələr var. Son vaxtlaradək görüşlər həmişə üçtərəfli olurdu. Ancaq gördüyünüz kimi, Fransa prezidenti, Almaniyanın baş kansleri də işə qarışıb. Mən həmişə demişəm, yenə deyirəm: Fransa prezidenti olan yerdə Azərbaycan üçün müsbət heç nə görmürəm. Çünki o, birbaşa Ermənistanı müdafiə edir. Fransanın yerinə Türkiyə olsaydı, daha yaxşı olardı. Hesab edirəm ki, Qarabağla bağlı məsələlərin həllinin uzadılmasında bir əsas səbəb də Rusiya sülhməramlılarının bölgədə olmasıdır. Gəlin açıq danışaq, Rusiya istəmir ki, bu məsələ həll olunsun və sülhməramlılar Qarabağdan çıxsın. Sülhməramlılar Qarabağda olmasa, Azərbaycanla Ermənistan razılaşıb, sülh imzalayacaqdı. Cənab Prezident də bir neçə dəfə deyib ki, Qarabağda yaşayan mülki ermənilərlə bağlı heç bir problem yoxdur. Mülki ermənilər Azərbaycan vətəndaşlığını qəbul etməlidirlər, bizim qanunlarımızla yaşamalıdırlar. Azərbaycanda o qədər millət yaşayır ki, heç bir problem yoxdur. Mən Qarabağa dair məsələlərin həllini Brüsseldə görürəm. Çünki onların mövqeyi Azərbaycanın mövqeyi ilə faktiki olaraq üst-üstə düşür. Yəni onlar Azərbaycanın ərazi bütövlüyü çərçivəsində sərhədlərin delimitasiyası və demarkasiyasını, Azərbaycan və Ermənistanın ərazi bütövlüyünün qarşılıqlı şəkildə tanınmasını istəyirlər. Bu məsələlər bizi qane edir, ermənilər də orda yaşayır, yaşasın. Yaşamırlarsa, cənab Prezident dedi, artıq özlərinin problemidir, bizə aidiyyəti yoxdur.

**- Ermənistan Zəngəzur dəhlizi ilə bağlı da prosesi uzatmağa çalışır. Sizin gözləntiləriniz necədir?**

- Arazdəyən-Horadiz dəmir yolunun bərpası olduqca vacibdir. İqtisadi cəhətdən hansısa mənfəətdən söhbət getmir. Əhalinin gediş-gəlişi üçün bu dəmir yolunun əhəmiyyəti var. Ümumiyyətlə, bizimçün Zəngəzur dəmir yolu və avtomobil yolunun açılması çox vacibdir. Mən fikir verirəm, bir İran xaric, Zəngəzur dəmir yolunun əleyhinə çıxan dövlətlər yoxdur. Hətta Çin səfiri dedi ki, bu dəmir yolu bizim üçün çox vacibdir. Yəni bu dəmir yolu çəkiləcək. Yadınıza gəlirsə, cənab Prezident dedi istəsələr də, istəməsələr də, bu, baş verəcək. Bu dəqiqə həm Zəngilan, həm də Naxçıvan istiqamətində iş gedir. Həm dəmir yolu, həm avtomobil yolu çəkiləcək. Son vaxtlar müəyyən irəliləyişlər də var. Baş nazirin müavinləri görüşürlər, müəyyən problemlərin həll edildiyi barədə onlar tərəfindən açıqlamalar verilir. Zəngəzur dəhlizi bizim Naxçıvanla, o cümlədən Türkiyə ilə birbaşa əlaqələrin qurulması baxımından çox vacibdir.

**- Ermənistanın Azərbaycana vurduğu zərərin pul və ya ərazi şəklində ödənməsi məsələsi də yəqin ki, diqqət mərkəzindədir. Sizdə bu barədə məlumatlar nədən ibarətdir?**

- Ümumiyyətlə, bu məsələ mütəmadi olaraq gündəmə gəlir, araşdırılır, hesablamalar da var. Təxminən 350 milyard dollarlıq vəsaitdən söhbət gedir. Mən inanmıram ki, Ermənistanın o vəsaiti qaytarmaq imkanı olsun. Amma dediyiniz kimi, ərazilər var, pul yoxdursa, torpaq verə bilər. Biz bunu mütləq mübahisələndirməliyik, mütəmadi olaraq beynəlxalq səviyyədə müraciətlər olmalıdır.

(Müsahibənin tam mətni: Musavat.com-da)

❑ Elşad PAŞASOY,
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 102 (8238) 13 iyun 2023

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması**

# Qarabağda 10 min terrorçunun cinayəti - sülh əleyhinə...

## Nə qədər ki, silah daşınır, o qədər bölgədə sülhə təhdid var; növbəti mərhələ silahlı separatçılarla hesab çürütmək olacaq

**Ruslar və ermənilər Xəlifəli-Kərkicahan yolu ilə Qarabağa silah daşımağa davam edir. "Yeni Müsavat" bildirir ki, bu özbaşınalıqlar sülh əleyhinə törədilən cinayətlərdir. Nə qədər ki, silah daşınır, o qədər bölgədə sülhə təhdid var. Çünki silah erməni postlarına çatdırılır, onlar atəş açır və nəticədə regionda gərginlik artır. Belədə isə sülhdən danışmaq tezdir. Bu işdə rus hərbçiləri əlahiddə rol oynayır.**



Onlar separatizmi himayə etməklə 10 min erməni silahlısı ilə ordumuz arasında yeni təmas xətti yaratmağa çalışırlar. Bu isə Qarabağ iqtisadi zonasında yolverilməzdir. Bölgədə ordumuzdan və sülhməramlılardan başqa silahlı qüvvə qala bilməz. Əslində üçtərəfli sənədin 4-cü bəndində bu müddəa aydın göstərilib, amma 3 ildir ki, icra edilmir. Bununla da sülh əleyhinə cinayətlər davam edir. Çünki silahlı ermənilər qaldıqca, torpaqlarımıza sabitlik, əmin-amanlıq gəlməyəcək. Elə son həftələr də terrorçu qruplar fəallaşıb: müxtəlif istiqamətlərdən mövqelərimizi atəşə tutur, qurğular yerləşdirməyə cəhd edir, kəsəsi, 10 min terrorçu sülh əleyhinə var gücü ilə cinayət etməkdədir. Əgər Ermənistan lideri Qarabağın Azərbaycan ərazisi olduğunu təsdiqləyirsə, 10 min erməni silahlısının ərazilərimizdə nə iti azıb? Onlar ya getməli, ya getməlidirlər. Prezident Əliyev də Laçında açıq xəbərdar etdi ki, ya təslim olacaqlar və biz amnistiya elan edəcəyik, ya da onları necə çıxarmağın yollarını bilirik - yəni güc yolu var və 10 min separatçı ünsür ölmək istəmirsə, indidən əraziləri tərk etsinlər. Bakı Xocalıda təlimlərə, Ağdərədə və Xocavənddə postlara silah daşımağa sona qədər səbr etməyəcək. Kimsə Xocalıda bizə meydan sulaya bilməz. Ermənistan da sülh istəyirsə, 10 min tör-töküntüsünü rədd eləməlidir. Sözsüz ki, qondarma rejim və onların militarist varlığı Rusiyanın imperiya maraqlarına, Cənubi Qafqaz siyasətinə lazımdır. Rusların hərbi mövcudluğunu onların varlığı şərtləndirir. Əks halda, rus hərbi birləşmələri Qarabağda uzunmüddətli qala bilməzlər. Azərbaycan isə tələblərini sərtləşdirir. Laçın yolunda ermənilər "quzu balası" kimi növbəyə düzülüb nəzarətdən keçirsə, növbəti mərhələ əli silahlı separatçılarla haqq-hesab çürütmək olacaq.

**Xəzər Müdafiə Tədqiqatları Mərkəzinin rəhbəri Ramil Məmmədlinin sözlərinə görə, heç bir halda erməni silahlı birləşmələri Qarabağ ərazisində mühəndis-istehkam işləri həyata keçirə, səngər qaza, istehkam qura bilməzlər**: "Bu, təmas xəttinin yenidən yaradılması deməkdir. Eləcə də yenidən Azərbaycan Ordusunu hərbi əməliyyatlar keçirməyə təşviq və məcbur etməkdir. Separatçı ermənilərə tabe olan erməni silahlı birləşmələrinin hələ də tərk-silah olunmaması, ümumiyyətlə, orada mövcudluğu qanunsuzdur". **Hərbi ekspertin fikrincə, həm Rusiya, həm də Avropa İttifaqı bununla bağlı konkret mövqeyini nümayiş etdirməli və Azərbaycanın Qarabağda bu əraziyə tamamilə nəzarət etmə imkanlarını reallaşdırmasına imkan yaratmalıdır:** "Əks təqdirdə, yeni proses belə davam edərsə, vəziyyətin gərginləşməsi qaçılmaz haldır. Bu, Ermənistanın xeyrinə deyil. Çünki Qarabağın dağlıq və mərkəzi hissəsindəki strateji məntəqələr, mühüm yüksəkliklər, həmçinin Şuşa şəhəri məhz Azərbaycan Ordusunun nəzarəti altındadır. Ordumuz həmin yüksəkliklərdən erməni silahlı dəstlərinin dislokasiya yerlərini, hərəkətlərini və bütün prosesləri həm vizual, həm də müxtəlif avadanlıqlar vasitəsilə nəzarət edə bilir. Bu baxımdan, Ermənistanın belə zidd addımlar atması və beynəlxalq təşkilatların da bu şərti sərhəddə gedən proseslərə biganə yanaşması sonda regionda hərbi əməliyyatların yenidən alovlanmasına gətirib çıxara bilər".

Bundan əlavə, Fransanın Paris Şəhər Şurası Qarabağdakı separatçılar və terroristlərə yardımın göstərilməsi ilə bağlı növbəti qətnamə qəbul edib. **Politoloq Yeganə Hacıyeva** isə qeyd edir ki, Fransanın Ermənistanın terror siyasətini "himayə" etməklə, onu silahlandırmaqla və sülh danışıqlarına zərbə vurmasını nəzərə almaqla, bu ölkənin Azərbaycan ərazilərinə göndərdiyi "humanitar yardımın" hansı yüklər olmasını ehtimal edə bilərik: "Məsələn, 1988-ci ildə Ermənistanda zəlzələ zamanı Fransanın göndərdiyi "humanitar yüklər" daha sonra Qarabağda silahlı terrorizmin əsasını qoydu. Digər tərəfdən, Fransanın öz separatçı rejimləri ilə aqressiv siyasət yürütdüyü halda başqa ölkənin daxilində separatçılığın çiçəklənməsinə xidmət edən addımları, sadəcə, Azərbaycana qarşı olan siyasət deyil. Bu, Avropanın balaca diktatoru Makronun Ukraynadakı müharibə üzərindən Çinlə və Rusiya ilə sövdələşməsi elementləri və s. addımları kimi Fransanın Avropanın təhlükəsizliyinə "verdiyi töhfəsidir".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Emil SALAMOĞLU

# Rusiya regiondakı mövqelərini necə saxlamağı planlaşdırır?..

**Çox yaxşı yadımdadır, hələ ötən əsrin doxsanıncı illərinin lap əvvəllərində bir rusiyalı politoloq - siyasi analitik ölkəsinə qarşı geosiyasi təhdidləri müəyyənləşdirməyə çalışmış və onları bir neçə tezis şəklində qeyd etmişdi.**



**Hüseynbala SƏLİMOV**

Bu tezislərdən dördüncüsü bu idi ki, rəqib geosiyasi və geoiqtisadi güclər qlobal və regional kommunikasiya xətlərini Rusiyadan kənarda keçirməyə çalışacaqlar.

İllər keçəndən sonra bu detalı niyə xatırladıq? Hazırda politoloqlar Rusiya və Ermənistan liderlərinin sonuncu görüşündən çox danışırlar və yəqin ki, hələ bir müddət bu müzakirələr davam edəcək. Aydın məsələ idi ki, tərəflər ikitərəfli münasibətləri və bir də Azərbaycan-Ermənistan münaqişəsini müzakirə edəcəklər. Qeyd etmək lazımdır ki, həm ikitərəfli münasibətlərdə, həm də Azərbaycan-Ermənistan münaqişəsində bir yığın problem var. Biz onları detallarına qədər müzakirə etməyəcəyik, bircə onu qeyd edəcəyik ki, Rusiyanın Cənubi Qafqazdakı mövqeləri son vaxtlarda xeyli sarsılıb - bir tərəfdən ziddiyyətlərlə, irəliləmələrlə və geriləmələrlə olsa da, İrəvan onun üçün cızılmış xətdən ayağını kənara qoymağa cəhd edir, digər tərəfdən Azərbaycan-Ermənistan münaqişəsi hal-hazırda Rusiyanın otuz illik nəzarətindən çıxmaq üzrədir. Düzdür, hələ ki erməni baş naziri Nikol Paşinyanın bəyanatları və siyasi addımları ziddiyyətli xarakter daşıyır - bir tərəfdən o, ABŞ-ın və Avropanın çətiri altında baş tutan hər ciddi görüşdən sonra Rusiyaya yollanır və sanki bu hərəkətlərilə Kremlə hesabat verməyə və onu arxayın etməyə çalışır ki, o, Rusiya ilə münasibətlərinə sadiqdir.

Amma daha ciddisi budur ki, erməni baş naziri oyun oynayır və Qərblə Rusiya arasında manevr etməklə vaxt udmağa çalışır. Fəqət, bunlar heç də taktiki xarakterli siyasi gedişlər deyil - regionda Rusiyanın mövqelərinin zəifləməsi ciddi strateji xarakter daşıyır. Kreml bölgədə qalmağın alternativ yollarını aramaqdadır. Hazırda onun Dağlıq Qarabağdakı sülh missiyası tamam ifşa olunmaqdadır və 2025-ci ildə onların bölgədən çıxarılması haqqındakı çağırışlar sistemli və mütəmadi xarakter alır. Digər tərəfdən də Ermənistan real olaraq ərazisindəki Qərb missiyasını gücləndirməyə çalışır və bura KTMT-nın missiyasını dəvət etməyə tələsmir. Belə olan şəraitdə Rusiya nə etməlidir? Regiondakı mövqelərini necə qorumalıdır?

Burada qeyd edək ki, Rusiyanın Ermənistandakı mövqeləri o qədər dərin və çoxşaxəlidir ki, adam onun nə vaxtsa bu ölkədən gedə biləcəyinə elə də inanmır. Amma hər şeyin bir sonu olur və bu münasibətlərin də bir gün sonu olacaq. Bəs Rusiya bunun müqabilində nə etməyə çalışır? Nə qədər qəribə olsa da, Kremlin əsas ümidləri Zəngəzur dəhlizi ilə bağlıdır. Qeyd edək ki, Rusiya bu layihənin əleyhinə deyil. Amma burada bir ciddi məqam var - Moskva güman edir ki, dəhlizin təhlükəsizliyini təmin etməyi ona tapşıracaqlar.

Amma gəl, bunu nə İrəvan istəmir, nə də ki, Qərb və məhz elə bu səbəbdən yazının lap əvvəlində Qərbin bir planı-Rusiyanı kommunikasiya xətlərindən kənarda qoymağı qeyd etdik. Amma Zəngəzur dəhlizi Rusiyanın son ümididir, çox güman ki, 2025-ci ildə onun bölgədəki sülhməramlı missiyasına son deyiləcək. Bu yaxınlarda Rusiya baş nazirinin müavini dedi ki, gələcək dəmiryolu xətti ilə bağlı əsas məqamlar razılaşdırılıb. Üstəgəl, burada bir detalı da qeyd edək ki, Ermənistanın dəmiryolu şəbəkəsi Rusiyanın nəzarətindədir və buna görə də Zəngəzur layihəsini reallaşdırmaq onun üçün elə də çətin deyil. Əsas məsələ budur ki, bu layihənin ağası kim olacaq? Qərb və Ermənistan bu məsələni Rusiyaya həvalə edəcəkmi? Prinsipcə, Kreml Ermənistanı gec və ya tez buna razı sala bilər. Amma buna Qərb razılıq verəcəkmi?..



# Qaydasız eşşəklik

Zamin HACI
zaminhaci@gmail.com

**Bakıda piyadanı maşın vurub, yaralını təcili yardım maşınına qoyub xəstəxanaya aparanda xərək yırtılıb, xəstə yerə düşüb, ölüb. İndi bundan belə nəticə çıxartmalıyıq ki, ölkəmizdə təcili yardım maşınları, xərəklər üzrə yeni qanun hazırlanmalıdır. Xərək niyə xarab olsun ki? Hamısı dərəbəyliyin nəticəsidir. Hərə özündən bir təcili yardım xidməti açıb, oradan-buradan xərək əldə edirlər, ucuz qiymətlər yaranır, tibb bacıları və qardaşları az pul qazanır, narkomanlar xərək daşıyır...**

Ancaq qədim zamandan bəri biz təcili yardıma mənəvi hörmətin şahidi olmuşuq. Folklorumuzda bunu isbat edən çoxlu kəlamlar vardır: "Xərəyi ver xərəkçiyə, birini də üstəlik", "Xərək bol olarsa, basılmaz vətən", "Tələsən təndirə, təcili yardım kəndirə", "Aləmi bəzər, özü lüt gəzər" (iynə vuran həkimlər haqda tapmacadır), "Hər şeyin köhnəsi, xərəyin təzəsi" və sairə və ilaxır.

Qanunsuzluq pis şeydir. Hazırda bütün sferalar üzrə qanun-qaydalar müəyyən edilib, bircə taksi sürənlər qalmışdı, Allaha min şükür, artıq hökumətimiz bu sferada qaydalar qoyacaqdır. Məsələn, bizdə "Asqırmaq haqda qanun" var. Kimsə asqıranda ağzını yummasa, qabağındakı şəxsin üzünə tüpürsə, bunun məcəllədə maddəsi nəzərdə tutulur. Arvad almaq, soğan əkmək, toy eləmək, mağarın ölçüləri, bacanaq, yeznə, kürəkən, riyaziyyat, fizika, bədən tərbiyəsi, uşaq saxlamaq, dovşan saxlamaq... uzun sözün qısası, hər şeyin qanununu deputatlarımız yazmışdır, buna görə fürsətdən istifadə edərək şəxsən deputatımız Hacı Madərə təşəkkür edirəm.

Bayaq uşaq söhbəti elədim, sözgəlişi, hərdən məktəblərdə, təhsil sistemində müəyyən demaqoji mövzular ortaya atılır. Hesab edirəm olduqca süni hərəkətdir. Guya bizdə məktəb yoxdur, uşaqlar saxta qiymət alır, müəllimlər rüşvət alır, direktorlar ləzzət alır və sairə. Elə sonuncu hay-küyün mövzusu çox tragikomik idi, valideynlər müəllimə qızıl taxıb videosunu çəkmiş, paylaşmışdır, hətta nazirlik araşdırmaya başlamış.

Deməli, ayrıca "Müəllim (ə) lərə qızıl taxmağın üsulları haqda qanun" hazırlanmalıdır. Qızıl hansı günlər, hansı döşə, nədən sonra, nədən əvvəl taxılmalıdır, qiyməti neçə manata qədər olsa qəbuldur - bunlar hamısı bitdə-bitdə qanun layihəsinə yazılsa, mənasız, sarsaq sosial şəbəkə ulaşmalarına ehtiyac olardımı? Nə qədər gec deyil, sentyabra, növbəti dərs ilinə bu qanun hazırlanmalıdır.

Hərçənd biz balaca olanda Şura hökuməti müəllimə o qədər az pul verirdi ki, yazıq müəllimin heç yeməyə çörəyi olmurdu. O vaxt elə bu üzdən belə elmi inanc yaranmışdı: "Müəllim çörək yemir". Gəl gör bu ac məxluq qızıl eşqinə düşsün... Hardan... İndi də bəlkə şərti şumda kəsib müəllimin çörək yeməməsi haqda qanun hazırlamalıyıq.

Siyasi partiyalar haqda təzə qanun düzəltdik, siyasi partiyalarımız virus düşmüş toyuq ferması kimi başını yerə qoyub hamısı qırıldı, bir-iki partiya qala, ya qalmaya.

Media, jurnalistika haqda təzə qanun qayırıldı, qanunsuz vaxtlarda çalışan 525 qəzetdən indi heç 5 dənəsi qalmayıb, qəzet köşkləri də siqaret, araq, patı satır.

Güman edirəm taksilər haqda qaydalar qüvvətə minəndən sonra minməyə maşın tapılmayacaq, uca millətimiz eşşək minib gəzəcəkdir. Ancaq bu bizə əsas vermir ki, eşşəklər haqda hansısa qərar, qayda tənzimlənməsi olmasın. Yoxsa keçən həftə Astarada eşşəyin biri ağız atıb yazıq kəndlinin qulağını qopartmışdı. Uzunqulaq hərəkətdir. Eşşək qanun-qayda bilsəydi, hətta zəfəran aqroparkı açardı. İndi isə təmiz eşşəklik eləyir.

---



# Separatçıların sonuncu yayı: Qarabağda ildırımsürətli təmizləmə - cəmi 3 günə...

## "Böyük Qayıdış" planı, keçmiş köçkünlərin aktuallaşan təhlükəsizliyi Bakını tələsmək zorunda qoyur; Rusiya isə Qarabağda qalmağın yeni düsturunun axtarışında...

**44 günlük müharibədə tarixi və yağlı "Dəmir qapaz" yeyən işğalçı Ermənistanın topluma radikal-revanşist ovqat təzədən şiddətlənib. Buna "Gallup" İnternational Association şirkətinin kapitulyant ölkədə 27-31 may aralığında keçirdiyi rəy sorğusu şübhə yeri saxlamır.**

Məlum olub ki, ermənilərin 82%-i baş nazir Nikol Paşinyanın Qarabağı Azərbaycan ərazisi kimi tanımaq haqda bəyanatını rədd edir. 86% isə Qarabağdakı ermənilərin gələcəyini Azərbaycan daxilində təsəvvür etmir. Bundan əlavə, iki gün öncə N.Paşinyanın həmin mövqeyi əleyhinə Ermənistanda referendum keçirmək tələbi ilə ictimai təşəbbüs qaldırılıb və imza toplanmasına başlanıb. Konstitusiyaya görə, əgər 50 min imza yığılarsa, hökumət referendum qərarı verməli olacaq.

Göründüyü kimi, bədnam qonşularımız Azərbaycanla ədalətli sülh anlayışını hələ də "baş-ayaq" anlayırlar. Beynəlxalq hüquq, elementar qonşuluq və dinc-yanaşı yaşamaq prinsipləri israrla qulaqardı edilir. Paradoks həm də ondadır ki, "artsax"ı Azərbaycanın tərkibində təsəvvür etməyən ermənilər abırsızcasına beynəlxalq hüquqdan dəm vurur, ordumuzun guya Ermənistan ərazisinə girdiyini, onun "ərazi bütövlüyünü" pozduğunu iddia edirlər.

Bütün bunlar Nikol Paşinyanın öz xalqını sülhə hazırlaya bilmədiyinin bariz sübutlarıdır. Eyni zamanda yeni müharibənin siqnallarıdır. Çünki heç hakim qüvvə də, deyəsən, Azərbaycan və Türkiyə ilə böyük sülhdən ötrü əldən getmir. Təsadüfi deyil, Paşinyan komandasının üzvləri hələ də sülh müqaviləsi məsələsində "nala-mıxa" vurur, Qarabağdakı ermənilərin "hüquq və təhlükəsizliyi", Bakı-İrəvan dialoqu üçün beynəlxalq zəmanət tələb edir, hətta vaxtaşırı Azərbaycanı Qarabağda etnik təmizləməyə hazırlaşmaqda suçlayırlar. Başqa sözlə, kapitulyant tərəf sülh sazişi üçün faktiki bizə şərt irəli sürməkdədir.

Bunlar isə keçməz. Sülh ya qalib Azərbaycanın ədalətli şərtləri (5 prinsip) əsasında olacaq, ya da olmayacaq. "Nər hərb, nə də sülh" vəziyyətinin altını isə ən çox kim çəkəcək, o da çoxdan məlum. Nə yaxşı ki, regional və qlobal şərtlər bütünlüklə bizim tərəfimizdədir. Odur ki, işləri tezləşdirməliyik. Söhbət ilk növbədə Qarabağı qanunsuz silahlı tör-töküntülərin qalıqlarından təmizləməkdən gedir.

**Siyasi analitik Asif Nərimanlıya görə, Ukrayna cəbhəsində baş verənlər Qarabağdakı proseslərin inkişafına da müsbət təsir edən amildir.** "Çünki Rusiya Ukraynada müharibəyə başladıqdan sonra Azərbaycan Qarabağ iqtisadi rayonunda irəliləyişlərə nail oldu. Əks-hücum əməliyyatının başlanması bu kontekstdə bizim üçün yeni imkanlar açır və istisna deyil ki, Ukrayna cəbhəsində döyüşlər şiddətləndikcə, rəsmi Bakı Qarabağdakı mövqelərini də irəlilədə bilər", - deyə o ehtimal edib.

Yeni Bakının əlinin bir qədər də güclənməsi gözlənilləndir. Zatən, separatçı ünsürlər artıq onlara ayrılan gerisayımın bitmək üzrə olduğunu anlamağa başlayıblar. Bakının ard-arda iki dialoq çağırışını nümayişkaranə şəkildə geri çevirən oyuncaq rejim gərək ki, bunun davamının nə olacağının yaxşı fərqində olsun.

Bəllidir ki, Azərbaycan Prezidenti İlham Əliyev ötən ay Laçından bu xüsusda separatçılara konkret tələb-ismarış göndərib: qondarma dövlət atributlarından imtina, saxta parlamenti buraxmaq, digər qanunsuz və uydurma qurum və vəzifələrin ləğvi, separatçıbaşı Araik Arutyunyanın təslim olması. Yalnız bundan sonra onlar hansısa əfvə və ya amnistiyaya ümid bəsləyə bilərlər. Əks halda, tezliklə komandolarımızı və başları üstündə "Bayraktar"ları gözləsinlər...

**"Qarabağdakı münaqişə hər an qaynar fazaya keçə bilər".**

**Bunu erməni politoloq Sergey Melkonyan deyib.**

"Azərbaycanda artıq ictimaiyyət və ekspertlər səviyyəsində "antiterror əməliyyatı"ndan danışılır. Bu əməliyyat ilk növbədə Dağlıq Qarabağın müdafiə ordusuna və polisə (qondarma qurumda qanunsuz silahlı dəstələrə - red.) yönələcək. Həmin əməliyyat zamanı Rusiya sülhməramlı kontingentinin məsuliyyət zonasında olan əraziyə tam nəzarəti bərqərar etmək üçün dəqiq zərbələr endiriləcək", - deyə erməni ekspert təlaş içində vurğulayıb.

**Onun sözlərinə görə, Azərbaycan Ukrayna kampaniyası fonunda Rusiyanın təzyiq imkanlarının xeyli azaldığını görür:** "Rus sülhməramlılarının hazırkı kontingenti Azərbaycan tərəfindən həyata keçiriləcək hücumların qarşısını almaq üçün kifayət deyil. Azərbaycanın Qarabağ ətrafında cəmləşmiş yeni hərbi bazalarının, çoxlu sayda hücum silahı və hərbi texnikasının olduğu nəzərə alınsa, bütün proses cəmi 3 günə tamamlana bilər".

**Melkonyan Rusiyanın sülhməramlı missiyasının mandatının 2025-ci ilin noyabrında başa çatdığını xatırladaraq, Azərbaycan tərəfinin həmin müddəti yeniləmək niyyətində olmadığını da söyləyib.** "Yəni hansısa yeni düstur icad olunmasa, Rusiya tədricən oradan çıxmalı olacaq", - deyə o əlavə edib.

Əslində Qarabağda sürətli təmizlənmə əməliyyatı Ukrayna müharibəsinin nəticəsindən asılı olmayaraq da aparılacaq. Çünki bu, Azərbaycanın legitim haqqıdır və üstəgəl, Putinin imzası duran 10 noyabr kapitulyasiya sənədində əksini tapıb. Bundan ötrü Bakı 2025-ci ilin noyabrını gözləmək niyyətində deyil.

Daha bir səbəbə: 2025-ədək "Böyük Qayıdış" proqramı çərçivəsində azad olunan ərazilərimizə minlərlə keçmiş məcburi köçkün yerləşəcək ki, onların təhlükəsizliyi təmin etmək dövlətin borcudur. Bu isə qanunsuz silahlı dəstələri Qarabağdan tam çıxarmadan, yaxud onları tərk-silah eləmədən mümkünsüzdür.

Odur ki, seçim separatçı ünsürlərindir. Vaxt daralır. Böyük ehtimalla, bu yay onlar üçün sonuncu olacaq - zor, ya xoş...

❑ **Siyasət şöbəsi, "Yeni Müsavat"**

# Danışıqların davamı üçün danışıqlar: Vaşinqtonun “götür-qoyu” çoxmu çəkəcək...

**Politoloq:** “Görüşü təşkil edən tərəflər İrəvana pozuculuq hərəkətlərinə görə adekvat reaksiya vermirlər, təzyiq göstərmirlər, ona görə Ermənistan arxayınlaşır və ənənəvi siyasətini dəyişmir”

**Bəlli olduğu kimi, iyunun 12-nə Vaşinqtonda nəzərdə tutulan Azərbaycan və Ermənistan XİN rəhbərləri arasında ABŞ-ın moderatorluğu ilə sülh danışıqlarının növbəti çoxgünlük raundu təxirə salınıb. Azərbaycan XİN-dən bildirilib ki, müzakirələrin konkret tarixi dəqiqləşdiriləcək. “Ümidvarıq ki, bu görüş yaxın zamanlarda baş tutacaq”, - deyə XİN-in mətbuat katibi Ayxan Hacızadə vurğulayıb. Maraqlıdır ki, Ermənistan XİN-dən danışıqların rəsmi Bakının xahişi ilə təxirə salındığı bəyan edilib.**

“Hazırda ABŞ Azərbaycan və Ermənistan arasında danışıqların növbəti raundunun nə vaxt keçiriləcəyi ilə bağlı konkret tarixi dəqiqləşdirə bilmir”.

ABŞ Dövlət Departamentindən “Amerikanın səsi”nin erməni bölməsinin məsələ ilə bağlı müraciətinə cavab olaraq belə deyilib.

Dövlət Departamenti əlavə edib ki, Vaşinqton iki ölkə liderlərinin Kişinyovdakı son görüşü də daxil olmaqla, Ermənistan və Azərbaycan arasında müxtəlif yerlərdə davam edən danışıqlardan məmnunluğunu bildirir.

“Tərəflər Cənubi Qafqaz regionunda sülhsevər gələcəyə can atmağa davam etdikcə, biz danışıqların növbəti raunduna ev sahibliyi etməyi səbirsizliklə gözləyirik. Birbaşa dialoq problemlərin həlli, davamlı və layiqli sülhə nail olmaq üçün açardır”, - açıqlamada qeyd olunub.

Bundan bir gün sonra - iyunun 9-da isə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi vəzifəsini icra edən Derek Hoqanla telefon danışığı aparıb. Telefon danışığı zamanı Azərbaycan və ABŞ arasında ikitərəfli əməkdaşlıq gündəliyi, eləcə də Azərbaycanla Ermənistan arasında



normallaşma prosesindən irəli gələn məsələlər üzrə fikir mübadiləsi aparılıb. Azərbaycan və Ermənistan arasında son bir ay ərzində aparılan danışıqlar və gündəmdə duran açıq məsələlərin həlli perspektivləri barədə ölkəmizin mövqeyi diqqətə çatdırılıb. Bundan bir gün qabaq Hoqan Ermənistan XİN başçısı ilə danışıb.

Əlavə edək ki, iyulun 21-də Brüsseldə Şarl Mişelin vasitəçiliyi ilə İlham Əliyev və Nikol Paşinyan arasında üçlü formatda daha bir görüşlə bağlı anons verilib. Vaşinqton danışıqları isə Brüssel prosesinin tərkib hissəsi sayılır. O zaman sülh prosesində pauza daha nə qədər sürəcək? Danışıqların davamı Avropada, yoxsa Amerikada olacaq?

**Politoloq Xəyal Başirov** “Yeni Müsavat”a bildirdi ki, Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması istiqamətində proses ötən ilin oktyabrından Ermənistan və Fransanın üzündən dayanmışdı. Amma son iki aydır Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması, əlaqələrin qurulması, sülh sazişi istiqamətində bir sıra görüşlər keçirilib. Bura Moskvada dövlət başçılarının iştirakı ilə keçirilən görüşü, Brüssel platforması çərçivəsində 5-ci görüşün keçirilməsi və eyni zamanda Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin ABŞ-da görüşməsini qeyd etmək olar. Sülhün əldə edilməsi, real sülh sazişinin bağlanması baxımından bu cür görüşlərin keçirilməsi önəmlidir. Ancaq hər söhbət səmimi müzakirələrdən gedirsə, yalnız bu cür görüşlərin müsbət nəticələri ola bilər: “Ermənistan və görüşə ev sahibliyi edən tərəf səmimi olmadıqca keçirilən görüşlərin nəticələri də olmaz. Ermənistan tərəfi yenə də özünün 30 ilə yaxın müddət ərzində ATƏT-in Minsk Qrupunun həmsədrliyi institutunun mövcudluğu dönəmindəki qeyri-səmimi siyasətini davam etdirir, yenə də vaxtı uzatmağa, görüntü xarakterli görüşlər keçirməyə çalışır. İrəvan danışıqların davamı üçün danışıqlar aparmaq taktikası ilə hərəkət etmək siyasətini davam etdirir. Təbii ki, bunu deməyə əsaslarımız var ki, Ermənistan keçirdiyi görüşlərə, imzaladığı sənədlərə, verdiyi bəyanatlara zidd addımlar atıb. Azərbaycan görüşlərə dəstək verən tərəflərin təşkilatçılığı ilə görüşlərə qatılır, müzakirələr aparır, sənədlər imzalayır və atdığı bütün addımlarında səmimidir, imzasının arxasında dayanır. Lakin Ermənistandan bunu görmürük”.

**Politoloq qeyd etdi ki, görüşü təşkil edən tərəflər isə İrəvana pozuculuq hərəkətlərinə görə adekvat reaksiya vermirlər, təzyiq göstərmirlər. Ona görə də Ermənistan arxayınlaşır və ənənəvi siyasətini dəyişmir**: “Danışıqların təşəbbüskarı olan dövlətlərin də səmimi olmadıqları zaman-zaman buradan özünü göstərir. Ermənistan hələ də sülhə hazır deyil. Danışıqlar prosesində iştirak etsə belə, məqsədi sülhün əldə edilməsi, sülh sazişinin imzalamaq deyil. Ermənistanın niyyəti fərqlidir, məqsəd vaxt qazanmaq və məkrli planlarını həyata keçirmək üçün zaman əldə etməkdir. Ona görə də nə qədər ki, Ermənistan bu cür mövqedə olacaq keçirilən görüşlərin istər Vaşinqtonda, istərsə də başqa paytaxtlarda baş verməsinin istənilən nəticəsi olmayacaq. İndi də Ermənistan çalışır ki, danışıqlardakı müşahidə olunan pauzanın günahını Azərbaycanın üzərinə atsın.

Azərbaycan isə istəyir ki, real nəticəli danışıqlar olsun, danışıqlar xatirinə danışıqlar olmasın. Nəticəsi olmayacaq görüşlərdən Azərbaycan imtina da edə bilər”.

**X.Başirovun sözlərinə görə, Azərbaycan üçün danışıqların Avropada, ABŞ-da, yaxud Rusiyada aparılması birinci dərəcəli məsələ deyil, Azərbaycan üçün önəmli olan odur ki, bu görüşlərdə real nəticələr əldə edilsin, sülh sazişi reallaşdırılsın:** “Bu olmayacaqsa, görüşlərin harada keçirilməsinin mənası, əhəmiyyəti qalmır. Azərbaycan danışıqların tərəfdarıdır və yəqin ki, növbəti görüş də heç də uzaq olmayan zamanda baş tutacaq. Bu görüşün Avropada, yoxsa ABŞ-da reallaşacağına gəlincə, gələn ay Brüssel formatı çərçivəsində növbəti görüşün keçirilməsi ilə bağlı razılıq əldə edilib. Azərbaycanın istəyi sadəcə odur ki, real nəticəli görüşlər olsun. Brüssel formatında gələn aya nəzərdə tutulan görüşün pozulması üçün Ermənistan hansısa pozuculuq addımı atmayacaqsa yəqin ki, liderlərin görüşü baş tutacaq. Dövlət başçıları səviyyəsində görüşlərin baş tutması daha vacibdir. Xarici işlər nazirləri səviyyəsində keçirilən görüşlər ölkələrin başçılarının danışıqlarına hazırlıq da hesab edilir. Sülh sazişini şübhəsiz Azərbaycanın və Ermənistanın liderləri imzalayacaq”.

❑ **Etibar SEYİDAĞA,**
**“Yeni Müsavat”**

# Bakı-İrəvan anlaşmasına qarşı fransız-rus gizli birliyi

Moskva və Paris cütləşərək Ermənistanın danışıqları pozması üçün əllərindən gələni edir; **partiya sədri:** “Sülh müqaviləsi imzalansa, Rusiya və Fransanın bölgədə varlığına ehtiyac qalmayacaq”

**Bakının 5 məlum baza prinsipi əsasında Ermənistanla sülh müqaviləsi imzalanmasına əsas əngəl əslində İrəvandan çox Moskva və Parisdir. Rusiyanın manevə yaratmasının səbəbləri haqda dəfələrlə təhlillər yazmışıq. Şimal qonşumuz öz maraqları çərçivəsində elə bir “sülh” sənədinin imzalanmasına çalışır ki, Kreml istədiyi vaxt konflikti təzədən qızışdıra bilsin, bölgədə hərbi varlığını saxlasın. Ermənistanın böyük “bacısı” Fransa da Rusiyadan geri qalmır. Rəsmi Paris bir yandan özünü qərəzsiz göstərib guya sülh prosesinə töhfə vermək istəyir, o biri yandan isə altdan-altdan İrəvanın danışıqlarda destruktiv mövqe tutması üçün əlindən gələni edir.**



Fransanın kapitulyant ölkəni silahlandırmağa başlaması-nın, - həm də Hindistan və İran vasitəsilə, - ayrı adı yoxdur. Çünki hərbi cəhətcə dirçələn İrəvan aydındır ki, masa arxasında özünü daha barışmaz və daha həyasız aparacaq, şərt diktə edəcək. Beləcə, rəsmi Parisin Ermənistanı aşkar himayə etməsi, onu silahlandırması sülh danışıqlarına zərbə vurmaqla yanaşı, faktiki Vaşinqtonun moderatorluğu ilə aparılan sülhyaratma prosesinə qarşı açıq təxribatdır. Deməli, həm də ədalətli sülhə qarşı olan Rusiyanın əlinə işləyir, dolayısı ilə Moskvaya “pas” verir...

Yeri gəlmişkən, Fransa Ukraynaya təcavüz məsələsində Rusiyaya münasibətdə hələ də qeyri-stabil davranır. Kollektiv Qərb kimi birmənalı Ukraynanın yanında qərar tutmur, nala-mıxa vurur. Bir tərəfdən Ukraynaya dəstək ifadə edir, digər tərəfdən isə Parisin Moskva ilə gizli danışıqlar apardığına dair məlumatlar yayılır. Yəni yenə oxşar taktika. Ümumiyyətlə, bu gün Fransa Prezidenti Emmanuel Makron Avropa siyasətində ən çox korrupsiyaya uğramış bir hakimiyyəti təmsil edir. Məhz onun siyasətinin nəticəsidir ki, Fransada etirazlar səngimir və artıq vətəndaş itaətsizliyi həddinə çatıb. Bu da diqqətçəkicidir ki, BMT-nin rəsmi qurumu olan və mənzil-qərargahı Parisdə yerləşən UNESKO-nun hazırkı rəhbəri fransız Odri Ozile də qatı ermənipərəstin biri olmaqla yanaşı, adı tez-tez korrupsiya qalmaqallarında hallanır.

Bizi isə maraqlandıran bölgədəki proseslərə yarıaşkar, yarıgizli şəkildə çomaq soxan Moskva-Paris birliyidir. Tərəflər sanki qoş addımlayırlar, regiona sülh gəlməməsi üçün öz resursları vasitəsilə mane olmağa çalışırlar. Hətta bu prosesdə Paris-Tehran arasında da nəqliyyat kommunikasiyaları, sərhədlərə nəzarətlə bağlı müttəfiqlik görmək olur. Bəs Vaşinqton nəyi seyr edir? Rusiya ilə Fransanın regionda gizlənpaça oxşayan oyunlarından xəbərdar deyilmi? Yoxsa ABŞ da dayanıqlı sülhdə maraqlı deyil?

**AMİP sədri Arzuxan Əlizadə “Yeni Müsavat”a hər iki gücün addımlarını şərh edərkən burada sirr olmadığını vurğuladı. Partiya sədrinin sözlərinə görə, müxtəlif platformalarda, ayrı-ayrı regionlarda gedən münaqişələrdə bu qüvvələr qarşı-qarşıya olsalar da, bizim bölgədə Rusiya, Fransa, Amerikanın mövqeləri az qala üst-üstə düşür:** “Buna erməni sevgisi demək olmaz, sadəcə, Cənubi Qafqazda təsirini qoruyub saxlamaq niyyətidir. Ona görə Rusiya və Fransa Qarabağ, ermənilər mövzularında fərqli yanaşmalar ortaya qoysalar da, eyni maraqdadırlar. Əgər sülh müqaviləsi imzalansa, o zaman Rusiya və Fransanın bölgədə varlığına ehtiyac qalmayacaq. Özəlliklə Türkiyənin bizim regionda güclənməsi fonunda Paris və Moskva köhnə mövqelərinə qayıtmağı arzulayırlar. Ona görə hər ikisi Ermənistana silah yardımı edir, hərbi və siyasi dəstək verir, maliyyə ayırır”.

**ABŞ-ın bu iki dövlətin davranışlarına müşahidəçi qalmasına gəlincə, AMİP sədri hesab edir ki, bölgədə Vaşinqtonun da iqtisadi və siyasi maraqları mövcuddur:** “O da sirr deyil ki, Qərb dövlətləri ilə Amerika arasında ciddi rəqabət var. Lakin Vaşinqton regionda İran olduğunu bildiyi üçün müttəfiqləri ilə əməkdaşlıqda maraqlıdır. Ona görə həm Azərbaycanla münasibətləri genişləndirir, həm Ermənistanda ən böyük diplomatik korpusu saxlayır. Yəni ABŞ-ın maraqları Rusiya və Fransadan böyük ölçüdə fərqlənmir, o da bölgədə mövcudluğu üçün öz siyasətini davam etdirir. Yəni vasitəçilik missiyasında hər üç tərəf səmimi görünmür. Çünki vasitəçilikdə məqsəd kimin sülhü imzaladacağı halda bölgədə dominant olacağıdır. Hədəf budur - region uğrunda mübarizə...”

❑ **Emil SALAMOĞLU,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 102 (8238) 13 iyun 2023

# "Böyük Qayıdış"a ərəb yatırımı - böyük pulları hara cəlb etmək olar - təhlil

## Cəlbedici şərtlər təmin olunarsa, azad olunan ərazilərə bir neçə milyard dollarlıq Səudiyyə mənşəli investisiya təmin etmək mümkündür

**Azərbaycan işğaldan azad olunmuş ərazilərdəki bərpa prosesinə yerli sərmayə ilə yanaşı, xarici investisiyaların da cəlbinə nail olmağa çalışır. Bunun üçün hökumət bu ilin yanvarından etibarən işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarlara vergi təşviqləri verib: Azad edilmiş ərazinin rezidentləri 2023-cü il yanvarın 1-dən etibarən 10 il müddətində mənfəət (gəlir), əmlak, torpaq və sadələşdirilmiş vergidən azad edilib. Habelə bu azadolma ərazinin rezidentinin həmin ərazidəki fəaliyyəti ilə bağlı əldə olunan satışdankənar gəlirlərinə də şamil ediləcək. Həmçinin işğaldan azad edilmiş ərazilərdə ƏDV ödəyicisi olan rezidentlər tərəfindən iqtisadi fəaliyyət sahələri və mal nomenklaturaları üzrə texnika, texnoloji avadanlıqlar və qurğular, habelə xammal və materialların idxalı 2023-cü il yanvarın 1-dən etibarən 10 il müddətində ƏDV-dən azad edilib. Bu məqsədlə ƏDV-dən azad edilən iqtisadi fəaliyyət sahələri və mal nomenklaturalarının siyahısının ayrıca təsdiq edilməsi nəzərdə tutulub.**

Bununla yanaşı, işğaldan azad olunmuş ərazinin rezidenti olan hüquqi şəxslərin səhmdarları və payçılarının divident gəlirləri də 2023-cü il yanvarın 1-dən etibarən 10 il müddətində vergidən azad edilib.

Azad olunan ərazilərdə fəaliyyət göstərəcək sahibkarlara kommunal ödənişlərdə də güzəştlər tətbiq olunur. Nazirlər Kabinetinin müvafiq qərarına əsasən, işğaldan azad edilmiş ərazilərdə istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlara 2023-cü ilin 1 yanvar tarixindən 10 il müddətində istehlak olunan kommunal xidmətlərə (elektrik enerjisi və təbii qazın satışı, su təchizatı və tullantı sularının axıdılması xidmətləri) görə xidmətlərinin ölkədaxili tariflərinə uyğun olaraq ödənilən vəsaitin 20 faizi həcmində dövlət büdcəsinin vəsaiti hesabına maliyyə yardımı ödəniləcək.

Beləliklə, hökumət azad olunan ərazilərin iqtisadiyyatının bərpasına özəl investorları stimullaşdırmaq üçün kifayət qədər böyük güzəşt və imtiyazları nəzərdə tutan addımlar atıb. Bu addımlarla yanaşı, geniş yatırım imkanlarına malik ölkələrin müvafiq qurumları ilə müzakirələr, təmaslar intensivləşdirilib.

Bir neçə gün əvvəl Şuşada keçirilən Azərbaycan-Səudiyyə Ərəbistanı İşgüzar Şurasının 2-ci iclası bu baxımdan maraq doğurur. İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədovun dediyinə görə, tədbir KOBİA və Səudiyyə Palataları Federasiyasının təşkilatçılığı ilə baş tutub. İclasda işgüzar əlaqələrin genişləndirilməsi və Qarabağda investisiya imkanlarını müzakirə edilib.

Qeyd edək ki, Səudiyyə Ərəbistanı fondları və müvafiq dövlət qurumları ilə Azərbaycan arasında əlaqələrdə intensivləşmə ötən ildən müşahidə olunur. Dekabr ayında Səudiyyə Ərəbistanının investisiyalar naziri, Azərbaycan və Səudiyyə Ərəbistanı arasında birgə komissiyanın həmsədri Xalid ibn Əbdül Əziz Əl-Falehin rəhbərlik etdiyi geniş tərkibli nümayəndə heyəti Bakıya gəlib. Nümayəndə heyətini Prezident İlham Əliyev də qəbul edib.



Xalid ibn Əbdül Əziz Əl-Faleh səfər çərçivəsində Azərbaycan hökuməti ilə Səudiyyə Ərəbistanı Krallığı hökuməti arasında Müştərək Komissiyanın həmsədri, maliyyə naziri Samir Şərifovla da görüşüb, işğaldan azad olunmuş Zəngilan rayonuna səfər edib. Zəngilanın "Ağalı" kəndində jurnalistlərə açıqlamasında Səudiyyəli nazir bəyan edib ki, ölkəsinin investorları işğaldan azad edilmiş ərazilərdə yaşıl enerji (günəş və külək enerji sahəsində), turizm, kənd təsərrüfatı və texnologiya sahəsinə yatırım etməkdə maraqlıdır.

O qeyd edib ki, Azərbaycanla Səudiyyə Ərəbistanı əlaqələrinin müxtəlif aspektləri var. Səudiyyə Ərəbistanı Azərbaycanda beş infrastruktur layihəsində iştirakçı olub. Krallıq həmçinin işğaldan azad edilmiş ərazilərdə əhalinin yenidən öz torpaqlarına geri qaytarılması və həyatın normal axarına qayıtması üçün investisiya edə bilər.

**Nazir bildirib ki, Qarabağda geniş kənd təsərrüfatı potensialının olduğu bugünkü səfər zamanı müşahidə edilib:** "Qarabağda iribuynuzlu heyvandarlıq sahələri ilə tanış olduq. Böyük potensialın olduğunu gördük. Səudiyyə Ərəbistanı üçün ərzaq təhlükəsizliyinin təmin edilməsi zəruridir və bu baxımdan işğaldan azad edilmiş ərazilərə yatırımda maraqlıyıq. Zəngilanda yeni tikilən hava limanı çox cəlbedicidir. Eyni zamanda yeni yaradılan ağıllı kəndi görmək bizdə xoş təəssürat yaratdı və təəccüb doğurdu. İndi mənimlə birlikdə buraya Səudiyyə Ərəbistanının böyük nümayəndə heyəti gəlib. Burada yalnız dövlət deyil, özəl sektor, o cümlədən energetika, xüsusilə də yaşıl enerji, turizm və kənd təsərrüfatında çalışan özəl biznesin təmsilçiləri var. Səudiyyə Ərəbistanı Qarabağ regionuna investisiya yatırmaq niyyətindədir. Xüsusi qeyd edim ki, yeni tikilən ağıllı kənd və Zəngilan aeroportu bizi təəccübləndirdi. Buralar ailəvi istirahət üçün gözəl yerlərdir".

Dekabrın 19-da isə Azərbaycan-Səudiyyə Ərəbistanı biznes forumu, Azərbaycan Səudiyyə Ərəbistanı Müştərək Komissiyasının 7-ci iclası keçirilib. İclasdakı çıxışında S.Şərifov bildirib ki, işğaldan azad edilmiş Azərbaycan torpaqlarında bərpa və yenidənqurma prosesinə Səudiyyə Ərəbistanı İnkişaf Fondu və Səudiyyə İnvestisiya Fondu tərəfindən maliyyə vəsaiti ayrıla bilər. O qeyd edib ki, Səudiyyə Ərəbistanından olan özəl şirkətlərin də Qarabağın bərpa prosesində iştirakı nəzərdən keçirilə bilər.

**Müştərək komissiyanın iclası zamanı Krallığın investisiya naziri Xalid ibn Əbdül Əziz Əl-Faleh bildirib ki, ölkəsi azərbaycanlı tələbələrə təqaüd ayıra bilər:** "Elm və təhsil sahəsində iki ölkə arasında əməkdaşlığın genişləndirilməsi baxımından azərbaycanlı tələbələrə Səudiyyə Ərəbistanı universitetlərində təhsil almaq üçün təqaüd proqramı hazırlaya bilərik. Bu müxtəlif sahələri, o cümlədən texnologiya, rəqəmsal sahələr, riyaziyyat və digər elm sahələrini əhatə edə bilər".

O da məlum olub ki, Səudiyyə Ərəbistanı 2030-cu ilə qədər Azərbaycandan 20 minə qədər insanı işlə təmin etməyə hazırdır. Bu məsələ Bakıda keçirilən biznes forum çərçivəsində Səudiyyə Ərəbistanının "ARCO for human resources" şirkəti ilə Azərbaycan Məşğulluq Agentliyi (HR Cell) arasında imzalanmış Anlaşma Memorandumunda nəzərdə tutulub. Məqsəd məişət və biznes sahələrinə Azərbaycandan işçi qüvvəsini cəlb etməkdir. 24 aylıq əmək müqaviləsi əsasında həyata keçiriləcək bu işlər üçün aylıq əmək haqqı rekruitinq haqqına (500 ABŞ dolları) əlavə 850 ABŞ dollardan başlayır: "Səudiyyə Ərəbistanının əmək bazarını böyütmək və bazarın yüksək tələbatını "Krallığın 2030-cu il baxışı" proqramının icra tələblərinə uyğun olaraq ödəmək üçün yerli məişət və biznes sahələrinə ixtisaslı insan resursları cəlb olunacaq. Səudiyyə Ərəbistanı bazarında bütün fəaliyyət növləri və peşələri üzrə iş yerləri var, Azərbaycan vətəndaşları üçün Səudiyyə Ərəbistanı Krallığında məşğulluq imkanları isə iki ölkə arasında münasibətlərin və strateji əməkdaşlığın möhkəmlənməsinə töhfə verəcək", - memorandumda bildirilir.

**Xalid bin Əbdüləziz Əl-Falih çox maraqlı açıqlama verərək, Səudiyyə Ərəbistanının Azərbaycanın Avropaya elektrik enerjisi ixracı prosesində iştirak etmək istədiyini bəyan edib. Səudiyyəli nazir əlavə edib ki, Buxarestdə imzalanan sənədə qoşulmaq fikrindədirlər:** "Bildiyiniz kimi, "Acwa Power" şirkəti Azərbaycanda 240 meqavatlıq enerji layihəsi icra edir. Amma bu bizim üçün azdır. İstərdik ki, daha böyük enerji layihələri icra edək və Azərbaycanın bir neçə gün öncə Avropaya elektrik enerjisi ixracı ilə bağlı imzaladığı müqaviləyə biz də qoşulaq".

Səudiyyə Ərəbistanı investisiya imanları çox geniş olan bir ölkədir. İndiyədək bu ölkə ilə iqtisadi-ticari, həmçinin investisiya əlaqələrinin güclü inkişafı qeydə alınmayıb. Səudiyyə Ərəbistanı şirkətləri indiyədək Azərbaycan iqtisadiyyatına 400 milyon dollar investisiya yatırıb. "Acwa Power" şirkətinin yatırımı da nəzərə alınsa, məbləğ ən yaxşı halda 700 milyon dollara çatar. İndiyədək Səudiyyə İnkişaf Fondu ilə məktəb tikintisi, kanal və yol tikintisi sahələrində maliyyə əməkdaşlığı həyata keçirilib, su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihələri üzrə işlər davam etdirilir.

Neftlə zəngin olan Səudiyyə Ərəbistanı böyük maliyyə ehtiyatlarına malik ölkələrdəndir. Uzun illər boyu inkişaf etmiş ölkələrin istehsal sahələrinə yüz milyardlarla dollar yatırımlar edilib. 2008-ci ildən etibarən Səudiyyə fond və şirkətləri sənayedən çəkilməyə və vəsaitlərini yeni texnologiyalar sahəsinə yönəltməyə başlayıblar. Bura müasir maliyyə bazarı alətlərindən tutmuş İT startapları, elektromobil, alternativ enerji istehsalına qədər çoxsaylı istiqamətlər aiddir.

Səudiyyə şahzadəsi Əl-Valid ibn Təlal əl-Səudun yaratdığı "Kingdom Holdinq" şirkəti "Four Seasons", "Citigroup", "Twitter", "21st Century Fox", "The Walt Disney Company" şirkətlərində paya, həmçinin Paris və Nyu-Yorkda öz hotellərinə malikdir.

"Bloomberg"in yaydığı məlumata görə, Səudiyyə Ərəbistanının Suveren Fondu (Public Investment Fund) kiberidman sahəsinə 38 milyard dollar sərmayə yatırmağa hazırlaşır. Ölkə iqtisadiyyatının neftdən asılılığını azaltmaq planının tərkib hissəsi olan bu yatırımla Səudiyyə 2030-cu ilədək dünya kiberidmanının mərkəzi olmağı hədəfləyir. "Public Investment" Fundu artıq bu yatırımlar üzrə fəaliyyətləri həyata keçirmək üçün "Savvy Games Group" adlı şirkət də yaradıb.

Adıçəkilən fond bundan əvvəl "Activision Blizzard", "Electronic Arts", "Nintendo", "Embracer Group AB" şirkətlərinə, həmçinin "Modern Times Group" şirkətinin kiberidman bölməsinə 1,05 milyard dollar yatırım edib.

Bütün bunlar onu göstərir ki, cəlbedici şərtlər təmin olunarsa, azad olunan ərazilərə bir neçə milyard dollarlıq Səudiyyə mənşəli investisiya təmin etmək mümkündür. Bu isə vətənlərinə dönəcək on minlərlə insan üçün iş yeri imkanı deməkdir...

❑ **Dünya SAKİT,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 102 (8238) 13 iyun 2023

**Son günlər hər fürsətdə məktəbin, müəllimlərin gözdən salınması kampaniyası aparılır. Sosial şəbəkələrdə Xırdalan şəhəri 1 nömrəli tam orta məktəbin 4-cü sinfinin müəllimi Yaqut Ağamalıyevaya valideynlərin qızıl əşyalar hədiyyə etməsini özündə əks etdirən görüntülər yayılıb. Abşeron-Xızı Regional Təhsil İdarəsi sözügedən məktəbin ibtidai sinif müəllimi Yaqut Ağamalıyevanın müəllim nüfuzuna xələl gətirən davranışını qınayıb və belə halların yolverilməz olduğunu vurğulayıb. Xırdalan şəhər 9 saylı tam orta məktəbdə də analoji hadisə yaşanıb. “Əlifba” bayramında müəllimə qızıl bilərzik hədiyyə edilib.**

# Nüfuzunu qızıl sırğaya dəyişən müəllimlər: çıxış yolu nədir? - rəylər

## **Məleykə Əlizadə:** “Dürüst cəmiyyət qurmaq üçün müəllimlərin nüfuzunu qorumaq lazımdır”

## **Ceyhun Məmmədov:** “Müəllimlərin nüfuzuna mənfi təsirin məsuliyyətini həm özləri, həm də valideynlər daşıyır”



Xırdalan 1 və 9 saylı məktəbin ibtidai siniflərinin buraxılış mərasimində valideynlərin ibtidai sinif müəllimlərinə qızıl-zinət əşyası hədiyyə etmələrinə dair yayılan görüntülərə aydınlıq gətirilib.

Abşeron-Xızı Regional Təhsil İdarəsindən APA-nın sorğusuna cavab olaraq bildirilib ki, faktla bağlı araşdırma davam etdirilir.

“İlkin məlumat belədir ki, bu, sırf valideynlərin şəxsi təşəbbüsü və istəyi əsasında baş verib. Ortada heç bir məcburiyyət yoxdur. Həmçinin bu hadisə dərs zamanı deyil, dərsdənkənar olub. Valideynlərdən də izahat alınıb. Onlar da müəllimi müdafiə edərək, bunun şəxsi təşəbbüsləri olduğunu ifadə ediblər”, - deyə cavabda qeyd olunub.

Digər videogörüntüdə Binəqədi rayonunun 179 saylı məktəbinin qadın müəllimlərinin ölkənin rayonlarının birində maşını saxlayaraq yolun ortasında əylənməsi qeydə alınıb. Məktəbin direktoru Tural Hətəmov yayılan video ilə bağlı Musavat.com-a bildirib ki, yolda rəqs edən şəxs 179 saylı məktəbdə çalışmır: “Biz bununla bağlı hüquq-mühafizə orqanlarına da müraciət etmişik ki, məktəbimizlə bağlı qarayaxma kampaniyası aparılır. Konkret olaraq həmin şəxs bizim məktəbin müəllimi deyil. Biz araşdırmışıq ki, ümumiyyətlə, o adam heç müəllim də deyil. Sadəcə olaraq, kimsə bu videonu sosial şəbəkələrdə yayıb və əlaqəsi olmadığı halda bizim məktəbin adı hallanıb”.

Sözügedən hadisələr görüntülərlə təsbit edilsə də, bəzi hallarda əhəmiyyətsiz hadisələr ölkənin əsas problemi kimi qələmə verilir. Bu isə məktəbin az qala heç bir funksiya daşımadığını sanki təsdiqləyir. Belə getsə, valideynlər arasında “oxutmuram, əl çəkin” tendensiyası başlayacaq və bəzi yerlərdə yeniyetmə qızları məktəbə buraxmayacaqlar, oğlanları təhsildən ayırıb “bir işin qulpundan yapışmağa” göndərəcəklər. Zatən illərdir oxumaq istəyən şagirdlər uğurlarını repetitor yanına getməklə əldə edə bilir...

Müəllimlər haqqında elə bir təsəvvür yaradılır ki, sanki onlar bizim uşaqlıq təsəvvürümüzdəki kimi çörək yeyib, su içməməlidirlər, toyda-nişanda oynamamalıdırlar, daima hərbçilər kimi standart mundirdə gəzməlidirlər, şəxsi həyatları olmamalıdır və s. Məktəb və müəllimlər haqqında bu yaramaz antitəbliğata necə son vermək olar?

**Tarix elmləri üzrə fəlsəfə doktoru, təhsil eksperti Məleykə Əlizadə “Yeni Müsavat”a bildirdi ki, müəllimlər sağlam cəmiyyətin qurucuları hesab olunurlar. Ekspert hesab edir ki, azad, demokratik, dürüst cəmiyyət qurmaq üçün müəllimlərin nüfuzunu qorumaq lazımdır:** “Müəllimlərə hədiyyə verilməsi ilə bağlı kadrları sosial mediada valideynlər yayırlar. Onların məqsədi nədir? Düşünürəm ki, müəllimlərə hədiyyə verilməsi qeyri-adi hadisə deyil. Bəzi valideynlər övladları ilə məşğul ola bilmirlər, onların əziyyətini müəllimlər çəkir. İldə iki dəfə-müəllimlər günündə, 8 mart bayramında bahalı olmayan, kiçik hədiyyə verilməsində pis heç nə yoxdur. Düşünürəm ki, qızıl hədiyyə edilməsini ictimailəşdirmək doğru deyil. Müəllim qulağına sırğa taxılmasına və bunun videosunun da çəkilib yayılmasına icazə verirsə, o, müəllim adını daşımağa layiq deyil. Onun yetişdirdiyi şagirdlər onu o vəziyyətdə gördükdə düşünürlər ki, onlar da müəllim olub bahalı hədiyyə qəbul edə bilərlər. Bir sözlə, müəllimin nüfuzunu salan müəllimin özüdür. Özünə hörmək etməyən müəllimlər nəzərə almırlar ki, onların yanlış hərəkətləri yaxşı müəllimlərin nüfuzuna da mənfi təsir edir”.

**M.Əlizadə vəziyyətdən çıxış yolu haqqında danışarkən qeyd etdi ki, ilk növbədə müəllimlər özləri dəyişmək üçün cəhd etməlidirlər, əks halda, heç bir tədbir effekt verməyəcək:** “Yanvardan aprelə qədər respublika üzrə 5 min müəllimə təlim keçilib. Bu rəqəm daha artıq ola bilərdi, lakin müəllimlər istəmədilər. Təlim məktəbdə sağlam psixo-sosial mühitin formalaşdırılması ilə bağlı idi. İstədik ki, müəllimlər təlimdə könüllü iştirak etsinlər, nəticədə layihəni az sayda iştirakçı ilə həyata keçirdik. Qeydiyyatdan keçənlər mövzunu öyrəndikdən sonra "biz bunu bilirik" deyə təlimdə iştirak etməkdən imtina etdilər. Onlar üçün müəllimin təmiz adının olub-olmaması maraqlı deyil. İştirak edənlər isə nüfuzunu qorumağa çalışan müəllimlər idi. Onların rüşvət almaqda adları hallanmır, hədiyyə alarkən videoları paylaşılmır. Müəllimlər bahalı hədiyyə qəbul edən iş yoldaşlarını tənqid etməlidirlər. Elm və Təhsil Nazirliyinin görməli olduğu çox işlər var. Problemləri qısa zamanda həll etmək qeyri-mümkündür. Təhsil sahəsində radikal islahatlar etmək mümkün deyil. Bu gün görülən işlərin nəticəsi 10 ildən sonra görünəcək".

**Millət vəkili Ceyhun Məmmədov mövzunu şərh edərkən bildirdi ki, müəllimlərin nüfuzuna mənfi təsirin məsuliyyətini həm özləri, həm də valideynlər daşıyır:** “Müəllimlər də, valideynlər də müəllimlərin nüfuzuna xələl gətirə biləcək addımlardan uzaq olmalıdırlar. Heç bir halda buna şərait yaratmaq olmaz. Bizim qarşımızda duran əsas məsələlərdən biri məktəbin, müəllimin nüfuzunun qorunmasıdır. Hər müəllim nəzərə almalıdır ki, atdığı yanlış addım bütün müəllimlərin adına yazılır. Eyni zamanda hər neqativ hadisənin ciddi şəkildə araşdırılmasının və ictimaiyyətə dəqiq məlumat verilməsinin tərəfdarıyam. Əgər qanunsuz hərəkətlərə yol verilirsə - rüşvət alınırsa, vəzifədən sui-istifadə edilirsə, lazım gəlsə, sərt, radikal addımlar atılmalıdır. Elm və Təhsil Nazirliyi də neqativ halların qarşısını almaq üçün çevik reaksiya verməli, ciddi tədbirlər görməlidir ".

Abşeron rayonu Xırdalan şəhər 1 və 9 nömrəli tam orta məktəbin direktorları barəsində intizam tənbehi tədbiri tətbiq olunub.

**Abşeron-Xızı Regional Təhsil İdarəsindən APA-nın sorğusuna cavab olaraq bildirilib ki, hər iki məsələ ilə bağlı xidməti araşdırma aparılıb:** “Araşdırmanın nəticəsi ilə bağlı bildiririk ki, 10.06.2023-cü il tarixində Xırdalan şəhər 1 nömrəli tam orta məktəbin ibtidai sinif müəllimi Yaqut Ağamalıyevanın, 11.06.2023-cü il tarixində Abşeron rayonu Xırdalan şəhər 9 nömrəli tam orta məktəbin ibtidai sinif müəllimi Cəlalə Abdullayevanın iştirakı ilə tədbir keçirilib. Tədbirlə bağlı yayılan videogörüntülərdə valideynlər tərəfindən ibtidai sinif müəllimlərinə qiymətli hədiyyənin təqdim olunması əks edilib.

Qeyd edilib ki, bu tipli tədbirlərin təşkilinə ciddi nəzarətin olmamasına görə Abşeron rayonu Xırdalan şəhər 1 və 9 nömrəli tam orta məktəbin direktorları barəsində intizam tənbehi tətbiq olunub. Eyni zamanda müəllimlərlə söhbət aparılıb.

Bildiririk ki, sözügedən hərəkətlər müəllimlərin etik davranış qaydalarını, xüsusilə ictimai etimad prinsipini pozmaqla müəllimin peşə nüfuzuna xələl gətirir.

Qeyd edək ki, ümumi təhsil müəssisələrində müəllimlərin peşə fəaliyyətinə zidd olan belə hallara yol verilməməsi ilə bağlı dəfələrlə məktəb rəhbərlərinə təlimat və tapşırıqlar verilib, bu və ya digər hallarla əlaqədar müxtəlif cəza tədbirləri həyata keçirilib.

Göstərilən halların yenidən baş verməməsi üçün valideynləri belə təşəbbüslərdən çəkinməyə çağırırıq".

❑ **Nigar HƏSƏNLİ,**
**“Yeni Müsavat”**

# Həbsdə olan sabiq deputatla bağlı daha bir cinayət işi açılıb

**“Azərbaycan Beynəlxalq Bankı” ASC-nin vəzifəli şəxsləri ilə əlbir olaraq cinayət törətmiş Dünyamin Xəlilov və Azad Cavadovun barəsində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində aparılmış cinayət işinin istintaqı yekunlaşıb.**



Dünyamin Xəlilov

APA xəbər verir ki, bu barədə Baş Prokurorluq məlumat yayıb.

Məlumata görə, istintaqla Dünyamin Xəlilov və Azad Cavadovun 2001-2015-ci illər ərzində “Azərbaycan Beynəlxalq Bankı” ASC-nin sabiq rəhbər vəzifəli şəxsləri ilə birgə sabit cinayətkar qrup yaradaraq rəhbərlik etdikləri “General Construction” və “Bakı Fındıq Emalı Müəssisəsi” məhdud məsuliyyətli cəmiyyətlərinin işçilərinə kreditlərin rəsmiləşdirilməsinə dair bankın vəzifəli şəxsinin verdiyi qanunsuz göstərişləri icra edib həmin şəxsləri bankın müxtəlif filiallarına göndərməklə adlarına rəsmiləşdirilmiş ümumilikdə 6 milyon 642 min manatdan artıq məbləğdə pul vəsaitini mənimsəmələrinə əsaslı şübhələr müəyyən edilib.

İş üzrə toplanmış sübutlar əsasında Dünyamin Xəlilov və Azad Cavadova Cinayət Məcəlləsinin 179.3.1 və 179.3.2-ci (mütəşəkkil dəstə tərəfindən və külli miqdarda mənimsəmə) maddələri ilə ittiham elan edilib, hazırda azadlıqdan məhrumetmə növündə cəza çəkmələri nəzərə alınmaqla barələrində qətimkan tədbiri seçilmədən cinayət işi baxılması üçün aidiyyəti üzrə Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib.



Firad Əliyev

# Gədəbəydə kafedə baş verən insidentə görə 2 nəfər həbs olunub

**Gədəbəy rayonu, Novosaratovka kəndi ərazisində yerləşən “Dəniz” adlı kafedə şəxslər arasında yaranmış mübahisə nəticəsində Tapdıqov Teymur Cümşüd oğlunun ölməsi, Tapdıqov Samir Cümşüd oğlunun və Müdafiə Nazirliyinin N saylı hərbi hissəsinin müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu, əsgər İbrahimov Elpərəs Bəhman oğlunun müxtəlif dərəcəli bədən xəsarətləri alması faktı ilə əlaqədar Şəmkir hərbi prokurorluğunda cinayət işi istintaq edilir.**

Bu barədə Musavat.com-a Respublika Hərbi Prokurorunun böyük köməkçisi-Hərbi Prokurorluğun Mətbuat Xidmətinin rəhbəri, baş ədliyyə müşaviri Firad Əliyev bildirib.

Onun sözlərinə görə, aparılmış istintaqla İbrahimov Elpərəs Bəhman oğlunun sözügedən məkanda bıçaqla Tapdıqov Teymur Cümşüd oğluna müxtəlif dərəcəli bədən xəsarətləri yetirməklə sonuncunu qəsdən öldürməsinə əsaslı şübhələr müəyyən edildiyindən E.B.İbrahimova Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 120.1-ci maddəsi (qəsdən adam öldürmə) ilə ittiham elan edilərək, Şəmkir hərbi prokurorunun təqdimatına əsasən Gəncə Hərbi Məhkəməsinin qərarı ilə barəsində 4 (dörd) ay müddətində həbs-qətimkan tədbiri seçilib.

Bundan başqa, istintaq zamanı Tapdıqov Seymur Cümşüd oğlunun qeyd olunan məkanda bıçaqla İbrahimov Elpərəs Bəhman oğluna müxtəlif dərəcəli bədən xəsarətləri yetirməklə sonuncunu qəsdən öldürməyə cəhd etməsinə əsaslı şübhələr müəyyən olunduğundan S.C.Tapdıqova Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 29,120.1-ci maddəsi (qəsdən adam öldürməyə cəhd) ilə ittiham elan edilərək, Şəmkir hərbi prokurorunun təqdimatına əsasən, Gəncə Hərbi Məhkəməsinin müvafiq qərarı ilə barəsində 4 (dörd) ay müddətində həbs qətimkan tədbiri seçilib. Hazırda istintaq davam etdirilir və qanunvericiliyin tələblərinə uyğun olaraq bütün tədbirlərin görülməsi, o cümlədən hər bir fakta və əməlin hüquqi qiymət verilməsi təmin ediləcək.



# Molla rejimindən növbəti hiylə - Güneydə Azərbaycan kəlməsinə yasaq cəhdi

## Sabir Rüstəmxanlı: "İran rejimi nə edirsə, öz ziyanına edir, xalqın ruhunu və varlığını dəyişdirə bilməz"

**İran hökuməti Güney Azərbaycanın Marağa şəhərinə "Səhənd" fars adı ilə əyalət statusu verməyə hazırlaşır. Bu barədə "Azad İran" "Teleqram" kanalı xəbər verib.**

Bildirilir ki, panfarsizm "beyin mərkəzi" Azərbaycan adının silinməsi planını davam etdirir. Məqsəd isə Rza xanın dövründən davam edən Azərbaycan adını Təbriz şəhəri və ətrafı ilə məhdudlaşdırmaqdır.

"Şərqi Azərbaycanı parçalayıb, orada Səhənd adında yeni bir vilayət yaratmaq fikrindədirlər. Ora Şərqi Azərbaycan yox, Səhənd vilayəti deyiləcək və Azərbaycan adı üstündən götürüləcək".

Bunu Axar.az-a **güneyli araşdırmaçı və milli fəal Məhəmməd Rəhmanifər** İranın Güney Azərbaycanı parçalayaraq yeni vilayətlərə bölmək planından danışarkən deyib.

**Onun sözlərinə görə, bu vilayətləri yaratmaqda məqsəd İranın Azərbaycan kəlməsinə olan qısqanclığıdır:** "İranın əsas məqsədi Azərbaycan kəlməsini Güney Azərbaycan torpaqlarından silməkdir. Bu siyasət illərdir davam edir. Hələ Pəhləvilər zamanında çalışıblar ki, torpaqlarımızı parçalayıb, vilayətlərə təzə adlar verməklə, Azərbaycan adını bölgələrin üzərindən götürsünlər. Bəzi yerləri Azərbaycandan ayırıb, başqa vilayətlərə verdilər. Bir vaxtlar Zəncanı ayırıb, vilayət etdilər. Astaranı, Sunquru, Bicarı ayırıb kürd vilayətlərinə tabe etdilər. Həmçinin Xoy adında bir vilayət yaratmaq istəyirdilər, lakin o zaman biz qarşı çıxdıq. İndi isə Səhənd adlı vilayət yaratmaq fikrindədirlər".

**O, hələ rəsmiləşdirilməyən prosesin Tehran KİV-lərində təbliğatının aparıldığını bildirib:** "Azərbaycan adı hazırda iki vilayətin üstündə qalıb: Qərbi və Şərqi Azərbaycan. 20 il bundan öncə də Şərqi Azərbaycanın daxilində şəhər olan Ərdəbili eynən bu cür ayırıb, ayrıca vilayətə çeviriblər. Əsl məqsədləri birdir: Azərbaycanı parçalamaq və tarixi adını silmək. Çalışırlar elə şərait yaratsınlar ki, Azərbaycan adını dilə gətirməyə ehtiyac qalmasın. İranın rəsmi televiziya və qəzetlərində Qərbi Azərbaycanı "Ustani Urmiyə", Şərqi Azərbaycanı "Təbriz" olaraq təqdim edir, Azərbaycan Respublikasına da "Bakı Cümhuriyyəti" deyirlər".

Azərbaycan dövləti molla rejiminin bu məkrli planlarına necə mane ola bilər?

**Mövzu ilə bağlı millət vəkili Sabir Rüstəmxanlı "Yeni Müsavat"a danışıb. Millət vəkili qeyd edib ki, Azərbaycan torpaqlarında olan adlar, abidələr təkcə Azərbaycanın deyil, bütün dünya mədəniyyət irsinin bir parçasıdır:** "Məlum olduğu kimi, molla rejimi Güney Azərbaycanda bir sıra Azərbaycan abidələrinin, o cümlədən Ərk qalası və digərlərinin dağıdılmasına çalışır. Fikrimcə, Azərbaycan artıq beynəlxalq miqyasda bu məsələləri beynəlxalq təşkilatların diqqətinə çatdırmalıdır.

Məlum olduğu kimi, molla rejimi illər öncə Şərqi Azərbaycanı parçalayıb Ərdəbil ostanı yaratdı, indi də Marağa şəhərinə "Səhənd" fars adı ilə əyalət statusu verməyə hazırlaşır.

Beləliklə, molla rejimi tədricən öz istədiyi planı həyata keçirir, amma nəzərə almır ki, bununla xalqın qəzəbini daha da artırır, xalqı bu məsələlərə qarşı daha ciddi şəkildə etiraz etməyə sövq edir. Amma bunun xeyri yoxdur, nə qədər dəyişdirsə də, heç nəyə nail ola bilməyəcək. Vaxtilə Şimali Azərbaycanda da bir sıra şəhərlərin, o cümlədən Gəncənin adı dəyişdirilib, Kirovabad qoyulmuşdu. Amma hamısı sonra öz yerini tutdu. Yəni İran rejimi nə edirsə öz ziyanına edir, xalqın ruhunu və varlığını dəyişdirə bilməz.

Təbii ki, Azərbaycan hökuməti bu məsələyə öz mövqeyini bildirəcək, amma qeyd etdiyim kimi, Azərbaycan hökumətindən daha çox QHT-lər, ictimaiyyət, cəmiyyəti buna etiraz etməlidir. Onların dediyinin əksinə, daim öz dilimizdə olan sözləri işlətməliyik".

❑ **Xalidə GƏRAY, "Yeni Müsavat"**

# "Pfizer"lə bağlı qorxunc iddia: həyatımız təhlükədədir...

## Mərdan Əliyev: "Baş verən olay yüz hadisədən biridir"

**Türkiyəli alimlər Özlem Türeci və Uğur Şahin tərəfindən Almaniyada qurulan "BioNTech" şirkəti məhkəməyə verilib. Musavat.com xarici mediaya istinadən xəbər verir ki, şirkətə qarşı qaldırılan iddiada istehsal etdikləri koronavirusa qarşı peyvəndin insan orqanizminə zərər verdiyi bildirilir. İddia ilə məhkəməyə Almaniyada tibb sahəsində çalışan və adı açıqlanmayan bir qadın müraciət edib. Səhiyyə işçisinin peyvənd olunduqdan sonra ürək ritminin pozulması və beynində problemlərin ortaya çıxdığı vurğulanıb. O, şirkətdən 150 min avro təzminat istəyir. "BioNTech" isə bildirir ki, peyvəndin qadının orqanizmindəki dəyişikliklərlə heç bir əlaqəsi yoxdur. Şirkət qeyd edib ki, məhkəməyə müraciət edən tərəflər qeyd olunan yan təsirlərin peyvənddən qaynaqlandığını sübut edə bilməyiblər. Məsələ ilə bağlı məhkəmənin sabah baş tutacağı gözlənilir.**




Qeyd etmək yerinə düşər ki, koronavirusun ilk vaxtlarında tətbiq edilən "SinoVac" vaksinin sonradan effektsiz olduğu bildirildi, hətta bu vaksinin heç bir təsirə malik olmadığı deyildi. Odur ki, bizim ölkədə də daha çox "Pfizer/Biontek" vaksininin yüksək effektə malik olduğu barədə ekspert rəyləri verildi. İnsanlara bunun faydaları barədə məlumatlar verildi, zərərli olmadığı qeyd edildi. Bəzi həkimlər isə "Pfizer" vaksininin təhlükəli olduğunu desə də, rəsmi olaraq bu təkzib edildi. Amma görünən odur ki, hazırda həm koronavirusa yoluxub, sonradan vaksin olunanlar, həm də süni şəkildə immunitet əldə edənlər, yəni sadəcə vaksin olunanlar bir çox simptomlardan şikayətçidir. Əsasən də insanlar yaddaş pozğunluğu, diqqət dağınıqlığından narazılıq edirlər. "Mən virusa yoluxmamışam, amma iki doza "Pfizer" vaksini vurdurmuşam. Heç vaxt yaddaşdan əziyyət çəkməyən biri olaraq deyim ki, indi qohumların adını belə unuduram. Bir neçə dəqiqə əvvəl dediyim sözü belə xatırlaya bilmərəm. Dərmanlar da köməyimə çatmır. Son iki ildə bu məndə yaranıb", - deyə Səbinə adlı oxucumuz bildirir.

Yeri gəlmişkən, xatırlatmaq yerinə düşər ki, bir müddət əvvəl "Pfizer-Biontech" şirkətinin beynəlxalq inkişaf etmiş bazarlar üzrə rəhbəri Janine Small deyib ki, vaksinin bazara çıxarılmazdan əvvəl koronavirusun insandan insana ötürülməsinin qarşısının alınmasında effektivliyi üçün COVİD-19 peyvəndini sınaqdan keçirməyiblər. Avropa Parlamentində Roosun sualına cavab verən şirkət rəhbəri bunun səbəbini, "biz elmin sürəti ilə hərəkət etməli olduq", - deyə cavablandırıb. Bu cavab isə sosial şəbəkələrdə müzakirələrə səbəb olub. İclasda sualı verən Avropa Parlamentinin deputatı Robert Roos Smallun cavabının videosunu tvitter hesabında paylaşaraq, "başqaları naminə peyvənd et" tezisi "həmişə yalan olub", deyə yazıb. Onun fikrincə, yeganə məqsəd əhalini peyvənd etməyə təşviq etmək olub.

Bu arada, "Associated Press"in məlumatına görə, "Pfizer" heç vaxt vaksinin bazara təqdim edilməzdən əvvəl klinik sınaqlar zamanı virusun ötürülməsinin qarşısını almaqda effektivliyini təsdiqlədiyini deməyib. Peyvəndin buraxılmasından qısa müddət əvvəl "Pfizer"in baş direktoru Albert Burla dərmanın hələ də sınaqdan keçirildiyini vurğulayıb.

"Pfizer"in rəsmiləri isə deyir ki, virusun yayılmasının qarşısının alınması tədqiqatın son nöqtəsi deyildi - bu, COVİD-19-un, xüsusən də ağır formasının qarşısının alınmasında effektivliyi yoxlamaq idi. Virusun ötürülməsi ilə alaqəli göstəricini ölçmək çətindir - kor, təsadüfi, plasebo ilə idarə olunan sınaq lazımdır.

Oxforddan olan mütəxəssislərin rəhbərlik etdiyi bir qrup alim isə Biontech/Pfizer və Oxford/Astrazeneca vaksinlərindən nadir nevroloji fəsadların riskinin artmasından danışıb. Onlar peyvəndin ilk dozasını alan 32 milyon ingilisin məlumatlarını təhlil edərkən bu qənaətə gəliblər.

Həqiqətən də, "Pfizer/biontek" vurduranlar təhlükədədirmi? Nə etmək lazımdır?

**İnfeksionist-hepatoloq Mərdan Əliyev mövzu ilə bağlı "Yeni Müsavat"a dedi ki, bu cür iddialar həm dünyada, həm də bizdə var:** "Belə fikirlər var ki, peyvənddən bir müddət sonra problem yarandı, hətta ölüm halları baş verdi. Bu cür fikirlər eyni dərəcədə koronavirus infeksiyası ilə bağlı da səsləndirilir. Buna yoluxub sağalandan sonra insanlarda müəyyən simptomların müşahidə edildiyi də deyilir. Amma peyvəndlə bağlı məsələ sübut olunmayıb, bunu sübut etmək də mümkün deyil. Ola bilər, orqanizm peyvəndə müəyyən reaksiya bildirsin. Çünki bu immun sisteminə bağlı olan məsələdir. Amma deyim ki, bu, yüzdə-yüz peyvəndlə bağlı deyil. Bu xəstənin müəyyən xroniki problemləri var, peyvənd ona təsir edə bilər. Peyvənd xəstəliyin zəifləmiş formasıdır və peyvənd olunan şəxslər xəstəliyi sanki yüngül formada keçirirlər. Beləliklə də yüngül formada keçirib immunitet əldə edirlər. Canlı virus ona yoluxanda artıq immunitet var deyə insan xəstələnmir. Burada psixoloji məsələ də var. Peyvənd olunmamışdan öncə də insanlar deyirdi ki, peyvəndi qəsdən yaradıblar ki, insanları öldürsünlər. Ona görə mən deyilənlərə çox inanmıram. Təbii ki, məhkəməyə vermək də mümkündür. Hər kəsin hüququdur. Fikrimcə, baş verən o hadisə də yüzlərlə hadisədən biridir. Koronavirus yaranan vaxtlarda tez-tez belə hallarla rastlaşırıq. Amma şəxsi fikrimə görə, peyvənd belə hallara səbəb olmur. Bu adi bir peyvənddir. Necə ki əvvəllər də peyvənd olunurduq. Təbii ki, burada biznes maraqları var. Şirkətlər burada rəqabətə girdi, kim tez peyvənd istehsal edə bildisə, o da külli miqdarda pul qazandı. Amma yenə də bu, tam təbii peyvənddir, əvvəlki peyvəndlər kimidir".

Qeyd edək ki, Azərbaycanda vaksinasiya prosesi davam etdirilir. Son sutkada koronavirus (COVİD-19) əleyhinə 40 vaksin vurulub. Bu barədə Nazirlər Kabineti yanında Operativ Qərargahın 11 iyunda verilən məlumatında bildirilir. Bildirilib ki, bir gündə birinci doza üzrə 14, ikinci doza üzrə 13 vaksin vurulub. Üç və daha çox doza üzrə vaksinasiya olunanların sayı 12 nəfərdir. Həmçinin pozitiv nəticədən sonra buster doza üzrə vaksinasiya olunanların sayı 1 nəfər təşkil edib. Ümumilikdə isə ölkəmizdə 14 milyona yaxın insan vaksin olunub.

❑ **Afaq MİRAYİQ, "Yeni Müsavat"**

Yeni MÜSAVAT
N 102 (8238) 13 iyun 2023

**Azərbaycan Mərkəzi Bankı 2023-cü ilin birinci rübünün yekunları üzrə tədiyə balansının göstəricilərini açıqlayıb. Göstəricilərdən aydın olur ki, 2023-cü ilin I rübü üzrə tədiyə balansı əsasən neft və qaz qiymətlərinin əlverişli olması, qeyri-neft-qaz ixracının artması və kapitalın və maliyyənin hərəkəti hesabına müsbət meyllərdən təsirlənib. B təsir nəticəsində cari əməliyyatlar balansında 3.4 milyard dollar, kapital və maliyyənin hərəkəti hesabında isə 1.3 milyard dollar profisit yaranıb, ehtiyat aktivləri 3.5 milyard dollar artıb.**

# Rusiyadan Azərbaycana pul köçürmələri 3 dəfə artıb - səbəb

## Sanksiyalar belə ölkəmizdən Şimala əmək miqrasiyasını azaltmayıb

2023-cü ilin I rübü üzrə cari əməliyyatlar hesabının profisiti 3.4 milyard dollar və ya ÜDM-in 18.9 faizini təşkil edib. Neft-qaz sektoru üzrə cari əməliyyatlar balansının profisiti ötən ilin müvafiq dövrünə nəzərən 7.6 faiz azalaraq 5.1 milyard dollar, qeyri-neft-qaz sektoru üzrə cari əməliyyatlar balansının kəsiri isə 10.3 faiz artaraq 1.7 milyard dollara yüksəlib.

**Mərkəzi Bankın açıqladığı göstəriciləri şərh edən iqtisadçı-ekspert Rövşən Ağayevin sözlərinə görə, ölkənin cari əməliyyatlar balansında 5,1 milyard dollarlıq profisit neft-qaz sektorunun hesabına yaranıb:** "Amma onun əvəzində cari hesabın qeyri-neft kəsiri 10 faiz (157 milyon dollar) artaraq 1.7 milyard dollara yaxınlaşıb. Eyni zamanda xarici ticarət balansının qeyri-neft defisiti ötən ilin 3 ayına nisbətən 23 faiz (377 milyon dollar) böyüyüb.

Ölkədən "xalis xəta və nöqsanlar" maddəsi altında dəqiq uçota alına bilməyən xalis kapital çıxışı 1.2 milyard dolları ötüb və son 15 ilə baxsaq, bu həddi tarixi rekord da saya bilərik".

**Mərkəzi Bankın məlumatına əsasən, birinci rübdə maliyyə hesabında 1.3 milyard dollar profisit yaranıb (ötən il 1.2 milyard dollar kəsir vardı). Ekspert qeyd edir ki, müsbət saldonun yaranmasının səbəbi heç də ölkəyə xarici kapital axını ilə bağlı deyil:** "Azərbaycan rezidentlərinin xaricdəki aktivlərini geri çağırması hesabına formalaşıb bu profisit. Məsələn, bank sektorunun xaricdəki portfel qoyuluşları hesabına 693 milyon dollar, xaricdəki neft-qaz layihələri hesabına 453 milyon dollar xalis kapital geridönüşü baş verib.

Xarici neft-qaz şirkətləri ölkəyə birbaşa investisiya formasında 1.2 milyard dollara yaxın sərmayə gətirsələr də, kapital və mənfəət repatriasiyası formasında ölkədən 3 ay ərzində 3.1 milyard dollar çıxarıblar - yəni bu şirkətlər 3 aylıq tədiyə balansı üçün 2 milyard dollara yaxın kəsir yaradıblar".

Mərkəzi Bankın açıqladığı tədiyə balansından o da aydın olur ki, vətəndaşlara xaricdən göndərilən pul baratlarının həcmi 77 faiz (210 milyon dollar) artaraq 481 milyon dollara çatıb. Bu həcmin 312 milyon 629 min dollarını Rusiyadan edilən pulköçürmələri təşkil edib. Mərkəzi Bankın məlumatına görə, illik müqayisədə bu rəqəm 3,1 dəfə və ya 212 milyon 926 min dollar artıb. 2022-ci ilin ilk 3 ayı ərzində Rusiyadan Azərbaycana 99 milyon 703 min ABŞ dolları məbləğində vəsait köçürülmüşdü.

Qeyd edək ki, birinci rübdə Rusiyadan pul köçürmələri ümumi köçürmələrin həcminin 69,2 faizini təşkil edib. Ötən il Azərbaycana edilən pulköçürmələrinin 82 faizi Rusiyanın payına düşüb. Müqayisə üçün qeyd edək ki, 2021-ci ildə Rusiya Federasiyasından pul köçürmələri cəmi 55 faiz təşkil edib.



Mərkəzi Bankın məlumatına əsasən, 2022-ci ildə Azərbaycanda fiziki şəxslərə xaricdən edilən pul köçürmələrinin həcmi 3 milyard 620 milyon dollar təşkil edib. Bu, 2021-ci illə müqayisədə təxminən 3,2 dəfə çoxdur.

Qeyd edək ki, 2022-ci ildə Ukraynada işğalçı müharibəyə görə Qərbin ağır sanksiyaları ilə üzləşən Rusiyadan fiziki şəxslərin xaricə pulköçürmələrində kəskin artım müşahidə olunub. Bir sıra postsovet ölkələrinə belə köçürmələrdə 6-7 dəfə artım qeydə alınıb. Rusiya ekspertləri bunu Rusiyada əmək miqrantı kimi çalışan həmin ölkə vətəndaşlarının sanksiyaların mənfi təsirindən ehtiyatlanaraq, yığdıqları vəsaitləri vətənlərinə göndərmək istəyi ilə əsaslandırırlar. Lakin əksər xarici müşahidəçilər bu köçürmələrin arxasında Rusiyanın hüquqi şəxslərin xarici valyuta çıxışına tətbiq etdiyi maneələrdən yayınmaq prosesinin dayandığını bildirirlər.

Maraqlıdır ki, bu ilin əvvəlindən Rusiyadan xaricə pulköçürmələrində artım sürəti zəifləyib. Əsasən Asiya ölkələrinə köçürmələrdə azalmalar müşahidə olunur. Lakin Cənubi Qafqaz ölkələrində artım davam edir. Belə ki, birinci rübdə Rusiyadan Ermənistana fiziki şəxslərin pulköçürmələrinin həcmi 1,2 milyard dollar təşkil edib. Bu, keçən ilin eyni dövründəkindən 5 dəfədən də çoxdur.

Eyni dövrdə xaricdən Gürcüstana köçürmələrin həcmi 1 milyard 255,7 milyon dollara bərabər olub. Bunun 678,5 milyon dolları Rusiyadan reallaşıb, artım 55 faizə yaxındır.

Daha maraqlı bir fakt sanksiya və müharibəyə cəlb olunma təhlükəsinə baxmayaraq Rusiyaya postsovet məkanından əmək miqrantları axınında artımın olmasıdır. Rusiya Federal Təhlükəsizlik Xidmətinin məlumatına əsasən, 2023-cü ilin birinci rübündə ölkəyə gəlişini "iş tapmaq"la əsaslandıran əmək miqrantlarının sayı 1,3 milyon nəfər olub ki, bu da ötən ilin eyni dövründəkindən 1,6 dəfə çoxdur.

Gələnlərin 630,8 min nəfəri Özbəkistan, 349,4 min nəfəri Tacikistan, 172,6 min nəfəri Qırğızıstan, 47,3 min nəfəri Ermənistan, 34,8 min nəfəri Qazaxıstan, 28,7 min nəfəri Azərbaycan vətəndaşları olub.

Ümumiyyətlə, Rusiya həmişə azərbaycanlı əmək miqrantlarının axın etdiyi istiqamət olub. Bəzi məlumatlara əsasən, 90-cı illərdən indiyədək 2 milyon azərbaycanlı Rusiyaya əmək miqrasiyası edib. Rusiya Miqrasiya Xidmətinin məlumatına əsasən, 2017-2019-cu illərdə bu ölkəyə gəlib rəsmi əmək miqrantı kimi qeydiyyata düşən azərbaycanlılarına illik sayı 56-57 min nəfər təşkil edib. 2021-ci ildə bu göstərici 63,9 min nəfərə çatıb. Ötən il Rusiyaya iş dalınca gedib rəsmi qeydiyyata düşən azərbaycanlıların sayında 3 faizə yaxın artım baş verib. Ukraynadakı müharibəyə cəlb olunmaq təhlükəsinə baxmayaraq, 95,1 min nəfər insan Rusiyaya gedişinin əsas səbəbi kimi əmək miqrasiyasını göstərərək, rəsmi əmək miqrantı kimi qeydiyyata düşüb.

Bir çox soydaşlarımız əmək miqrantı kimi ödəniş ödəməmək üçün Rusiya vətəndaşlığı alırlar. Belə ki, 2019-cu ildə 9,5 min azərbaycanlı Şimal qonşunun vətəndaşı olubsa, 2021-ci ildə bu rəqəm 30,8 min nəfərə çatıb. 2022-ci ildə vətəndaşlığın həm də hərbi mükəlləfiyyət yaratmasına baxmayaraq, 23 min azərbaycanlı Rusiya vətəndaşlığı alıb.

Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2022-ci il ərzində ölkə əhalisinin gəlirləri əvvəlki ilə nisbətən nominal ifadədə 20,5 faiz artaraq 68 milyard 914,6 milyon manata çatıb. Bu dövrdə əhalinin hər nəfərinə orta hesabla 6844,9 manatlıq gəlir düşüb. Xaricdən göndərilən pulların həcminin 6 milyard 154 milyon manata bərabər olduğunu nəzərə alsaq, əhalinin nominal gəlirlərində onun 9 faiz paya malik olduğunu deyə bilərik.

2023-cü ilin yanvar-mart aylarında isə ölkə əhalisinin nominal gəlirləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə 15,2 faiz artaraq 18 milyard 479,9 milyon manat və ya hər nəfərə orta hesabla 1823,7 manat təşkil edib. Bu isə o deməkdir ki, əhalinin gəlirlərində xaricdən göndərilən pulların payı 4 faiz təşkil edib.

Dövlət Statistika Komitəsinin xaricdən göndərilən pul baratları daxilolmalar üzrə apardığı hesablamalar göstərir ki, 2022-ci ildə Qazax-Tovuz rayonu bu pulların həcminə görə birinci yerdə olub. Belə ki, son bir ildə Ağstafa, Gədəbəy, Qazax, Tovuz və Şəmkir rayonlarının sakinləri Rusiyadan adambaşına orta hesabla 13 manat pul alıblar. Yəni bu ərazidə yaşayan hər bir şəxsə il ərzində Rusiya Federasiyasından orta hesabla 156 manat pul göndərilib. Müqayisə üçün qeyd edək ki, 2021-ci ildə bu rəqəm cəmi 8 manat 10 qəpik olub. Beləliklə, 60 faizdən çox artım var.

Lənkəran-Astara rayonu adambaşına orta pul köçürmələrinin ən çox olduğu ikinci iqtisadi rayondur. Astara, Cəlilabad, Lerik, Lənkəran, Masallı və Yardımlıya köçürülən aylıq pullar hər sakinə orta hesabla 12 manat 10 qəpik təşkil edib. Maraqlıdır ki, 2021-ci ildə bu rəqəm daha çox olub - 13 manat 10 qəpik.

Üçüncü yeri hər ay orta hesabla adambaşına 12 manat (2021-ci ildə bu rəqəm 8 manat 50 qəpik) daxil olan Gəncə-Daşkəsən bölgəsi tutur. Ən az "xarici" pullar Mil-Muğan iqtisadi rayonunun sakinlərinin payına düşüb. Bu rayon əhalisinin gəlirlərində pul köçürmələrinin xüsusi çəkisi cəmi 0,5 faiz təşkil edib.

Eyni göstərici üzrə ikinci ən aşağı nəticə Sumqayıt şəhərinin də daxil olduğu Abşeron-Xızı iqtisadi rayonunda qeydə alınıb. Burada xaricdən pul köçürmələri əhalinin gəlirlərinin cəmi 0,6 faizini təşkil edib.

Rusiyada Qərb sanksiyalarının yaratdığı böyük təhlükələrə baxmayaraq, Azərbaycan vətəndaşlarının iş dalınca bu ölkəyə kütləvi axınının davam etməsi Vətəndə onları qane edən iş şərtlərinin olmamasının açıq göstəricisidir. İllər uzunu yüz min-yüz min Şimala axan bu əmək mirantları sanksiyalar Rusiya iqtisadiyyatını çökdürəcəyi halda milyonlar olaraq geri dönəcəklər...

**❑ Dünya SAKİT, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 102 (8238) 13 iyun 2023

# Vanqanın qorxulu proqnozları - dünyaya və Azərbaycana nə vəd edir...

## Ekspertlər deyir ki, Rusiya Ukraynada uğursuzluğa düçar olarsa, taktiki nüvə silahına əl ata bilər

**12 yaşında kor olan bolqarıstanlı Vanqa 1996-cı ildə dünyasını dəyişsə də, 11 sentyabr hücumları, Böyük Britaniyanın “Brexit”i kimi olayların baş verəcəyini əvvəlcədən demişdi. Vanqanın 2023-cü il üçün proqnozları da az vahiməli deyil:**

“Dünya öz oxundan çıxacaq” deyən Vanqa 2023-cü ildə dünyanın hərəkət marşrutunda dəyişikliyin olacağını təxmin edib. Bu dəyişikliyin nəticələri isə faciəvi ola bilər. Çünki Yerin hərəkət oxunun çox az dəyişməsi belə ciddi iqlim dəyişikliyi və canlılar üzərində dağıdıcı təsirlərlə nəticələnə bilər.

- **Bioloji silahdan istifadə.** Vanqa böyük ölkələrdən birinin insanlar üzərində bioloji silahın sınağını keçirəcəyini və bunun minlərlə insanın ölümü ilə nəticələnəcəyini deyib.

- **Günəş sunamisi.** Bolqar kahinin təxmininə görə, 2023-cü ildə tarix boyu bənzərinə rast gəlinməmiş günəş fırtınaları olacaq.

- **Laboratoriya körpələri**. Vanqa 2023-cü ildə təbii yolla doğumlara son qoyulacağını deyirdi. Belə ki, bütün dünyada laboratoriya şəraitində uşaqların dünyaya gəlməsi tendensiya halını alacaq.

- **Nüvə fəlakəti.** Kahin 2023-cü ildə böyük bir atom elektrik stansiyasında partlayışın olacağı qənaətində idi.



Rusiya-Ukrayna müharibəsi fonunda Vanqanın proqnozları real görünür. 2022-ci ilin sentyabrında Vladimir Putin Rusiya ərazisini qorumaq üçün nüvə silahından istifadə etməyə hazır olduğunu bildirib. Rusiya liderinin Ukraynada kiçik “taktiki” nüvə silahının mümkün istifadəsi ilə bağlı açıqlaması dünya boyunca çox ciddi narahatlığa səbəb olmuşdu. Bu açıqlamadan sonra ABŞ Prezidenti Co Bayden Putinə xəbərdarlıq edərək, bunun İkinci Dünya müharibəsindən bəri ən dəhşətli hərbi eskalasiya olacağını demişdi.

Söhbət hansı silahlardan gedir?

Taktiki nüvə silahları (TNS) döyüş meydanında istifadə etmək və ya məhdud nüvə zərbəsi endirmək üçün çatdırılma vasitələri ilə birlikdə kiçik nüvə silahlarıdır. Onlar geniş radioaktiv çirklənmə olmadan müəyyən hədəfləri məhv etmək üçün istifadə oluna bilər. Ən kiçik taktiki nüvə başlığının gücü trotil ekvivalenti ilə bir kilotona qədərdir. Partlayışın gücü min ton trotilin partlama gücündən çox deyil. Ən böyük taktiki nüvə başlığı 100 kilotona qədər ola bilər. Strateji nüvə silahları daha güclüdür - 1000 kilotona qədər. Onlar həmçinin minlərlə kilometr məsafədə istifadə olunur. Tarixdəki ən güclü termonüvə partlayışı - Sovet Çar Bombası - 58 meqatondan çox idi. Xirosimaya atılan Amerika atom bombasının gücü 15 kiloton olub.

Rusiyanın hansı taktiki nüvə silahı var? ABŞ kəşfiyyatının məlumatına görə, Rusiyanın 2000-ə yaxın taktiki nüvə silahı var. Taktiki nüvə başlıqları qanadlı və ya taktiki raketlər, habelə artilleriya mərmiləri kimi adi döyüş vasitələrinə yerləşdirilə bilər. Taktiki nüvə silahı üçün təyyarə və ya gəmilərdən də istifadə edilə bilər. Belə döyüş başlıqları raketlərə, torpedalara və ya dərinlik bombalarına quraşdırılır. ABŞ iddia edir ki, Rusiya son illərdə bu cür silahların hazırlanmasına böyük sərmayələr qoyub, onların məsafəsini və dəqiqliyini artırıb. Taktiki nüvə silahları hərbi münaqişədə heç vaxt istifadə olunmayıb. ABŞ və ya Rusiya kimi nüvə gücləri hesab edirlər ki, adi müasir silahlar taktiki məqsədlərə nail olmaq üçün kifayət edir. Bundan əlavə, indiyədək heç bir nüvə dövləti taktiki nüvə silahlarından istifadə etməklə nüvə müharibəsi riskinə getmək istəməyib. Bununla belə, Rusiya strateji raketlərdənsə, taktiki nüvə silahından istifadəyə daha meylli ola bilər. Rusiya prezidentinin ötənilki açıqlamasından sonra belə qənaət formalaşıb ki, taktiki nüvə silahı şimal qonşumuz üçün adi silahların bir hissəsidir.

2022-ci ilin fevralında, Ukraynanın işğalından az əvvəl Vladimir Putin Rusiyanın strateji nüvə qüvvələrinin (RSNQ) “xüsusi döyüş vəziyyətinə” gətirilməsinə dair əmr verib və strateji nüvə qüvvələrinin təlimlərini keçirib.

“Ölkəmizin ərazi bütövlüyü təhdid edilərsə, Rusiyanı və insanlarımızı müdafiə etmək üçün bütün vasitələrdən istifadə edəcəyik. Bu, blef deyil”, - Putin belə demişdi.

Hərbi analitiklərin bir çoxu hesab edir ki, Rusiya müharibədə uğursuzluqla üzləşərsə, Ukraynada taktiki nüvə silahlarından istifadə edə bilər.

1945-ci ildən bəri ilk dəfədir ki, dünyada nüvə silahından istifadə olunması bu qədər real təhlükə kəsb edir. Təhdidlər real şəkil alacaqsa, dünyanı idarə edənlər bəşəriyyətin gələcəyi üçün bu ağılsız addımı atacaqlarsa, regionumuz üçün də təhlükə yaranacaq. Bu halda radiasiyalı, zəhərli buludların ölkəmiz üzərinə gəlməsi, keçməsi də qaçılmaz olacaq. Radioloqlar, nüvə fizikasından baş çıxaranlar nə deyir? Sərhədlərimizdən uzaqlarda olan dövlətlər arasında olacaq nüvə müharibəsi halında onun ölkəmizə zərərləri nə dərəcədə ola bilər?

**Radiasiya Problemləri İnstitutunun yaradıcısı, uzun illər “Milli Nüvə Tədqiqatları Mərkəzi” Qapalı Səhmdar Cəmiyyətinin sədri olmuş akademik Adil Qəribov “Yeni Müsavat”a deyib ki, nüvə silahları iki yerə bölünür:** “Taktiki və strateji nüvə silahları var. Taktiki nüvə silahları daha kiçik gücdə olan silahlardır. Bu silahlar 10-15 kilometr məsafəyə təsir edə bilir. Strateji nüvə silahlarının təsir gücü isə daha böyükdür. ABŞ Yaponiyaya 2 strateji nüvə silahı atmışdı. Nəticələrini də bütün dünya gördü. Bu silahlar lokal xarakterli proseslərə səbəb olur. Rusiya nüvə silahlarının tətbiqi ilə bağlı ideyanı İngiltərə Ukraynaya kasıblaşmış uran əsasında hazırlanmış silahlarını vermək qərarından sonra gəldi. Rusiya düşündü ki, Ukrayna belə bir addım atsa, ona nüvə silahı ilə cavab verməlidir. Rusiya çıxılmaz vəziyyətdə qalacağı təqdirdə belə bir addımı ata bilər”.

**Akademik deyib ki, Rusiya nüvə silahlarının sayına və gücünə görə ilk yerdə olan dövlətdir:** “Dünyada mövcud olan nüvə başlıqlarından yarıdan çoxu Rusiyadadır. Rusiyanın özünün məğlubiyyət halı ilə barışmaq fikri yoxdur. Yəqin ki, ilkin olaraq taktiki nüvə silahından istifadə edəcək. Ukrayna ərazisində Rusiya taktiki nüvə silahlarından istifadə etməli olsa, radioktiv buludlar şəklində qonşu dövlətlərə təsiri ola bilər. Bizim Azərbaycan üçünsə bunun heç bir təsiri olmayacaq”.

**Akademik bildirib ki, Azərbaycan üçün real nüvə təhlükəsi yarada biləcək 2 dövlət var:** “İran sürətlə bu sahədə böyük strateji xətlər həyata keçirir. İranda artıq 60 faiz zənginləşmiş uran alıblar və bu xətti davam etdirirlər. Bizə dost olmayan qonşu dövlət Ermənistanda da bu sahədə müəyyən irəliləyiş var. 44 günlük Vətən müharibəsinin pikində Ermənistan tərəfi bəyan etdi ki, çirkli bombaya malikdirlər və bu bombadan istifadə edə bilərlər. Çirkli bomba taktiki nüvə silahlarında istifadə edilən həmin radioaktiv maddələrə hesablanmış, Britaniyanın Ukraynaya verdiyi çirkli bombalarla eynidir. Sadəcə, belə bombalarda nüvə partlayışından söhbət getmir. Bizim üçün bu sahədə 2 qonşu dövlətin hərbi taktikası daha çox əhəmiyyət kəsb edir”.

❑ **Elşən MƏMMƏDƏLİYEV,**
**“Yeni Müsavat”**

## Rusiyada deputat öldürülüb



Aleksandr Kolodiçin

**Rusiyanın Xantı-Mansiysk Muxtar Dairəsi (Yuqra diyarı) Dumasının deputatı Aleksandr Kolodiçin meyiti Yeni Moskva rayonunda aşkarlanıb.**

APA xəbər verir ki, bu barədə Rusiya hüquq-mühafizə orqanları məlumat yayıb.

Qeyd olunub ki, deputatın meyiti Yeni Moskvada fərdi yaşayış evinin zirzəmisində tapılıb və cəsədin üzərində zorakılıq əlamətləri aşkarlanıb.

Deputatın yoldaşı evdə bıçaq xəsarətləri ilə ağır yaralanmış vəziyyətdə tapılıb və xəstəxanaya yerləşdirilib.

Hadisə ilə bağlı 1 nəfər saxlanılıb və həmin şəxsin həyətyanı sahədə çalışan işçi olması bildirilib.

## Leysan olacaq, dolu düşəcək, çaylardan sel keçəcək - xəbərdarlıq



**Azərbaycanın rayonlarında iyunun 13-ü gündüz şimal və qərb rayonlarından başlayaraq 17-si gündüzədək bəzi yerlərdə fasilələrlə leysan xarakterli yağış yağacağı gözlənilir.**

Milli Hidrometeorologiya Xidmətindən APA-ya verilən xəbərə görə, əsasən Qazax-Gəncə, Qarabağ və Şərqi-Zəngəzur, Balakən-Şəki, Quba-Qusar, Dağlıq Şirvan, Lənkəran-Astara, mərkəzi-aran rayonlarında yağıntıların arabir intensiv və güclü olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var.

Şərq küləyi bəzi yerlərdə arabir 20-25 m/s-dək güclənəcək.

Çaylarda sululuğun artacağı, bəzi dağ çaylarından qısamüddətli sel keçəcəyi gözlənilir.

# Türkiyə və Gürcüstanda pandemiya cərimələri qaytarılır, bəs Azərbaycanda?

## Azər Badamov: "Cərimələnmiş vətəndaşlarla bağlı icra olunmamış qərarlar da ləğv edilməlidir"

**Türkiyə Konstitusiya Məhkəməsi maraqlı qərar çıxarıb. Məhkəmə koronavirus pandemiyası zamanı karantin rejimi qaydalarını pozduqlarına görə ölkə vətəndaşlarına cərimə kimi ödədikləri pulların geri qaytarılmasına qərar verib. Pandemiya zamanı cərimələnən vətəndaşlar pullarının geri qaytarılması üçün müraciət edə biləcəklər. Belə ki, 11 mart 2020-ci il tarixindən 9 noyabr 2022-ci il tarixədək ödənilmiş bütün məbləğlər geri qaytarılacaq, ödənilməmiş cərimələr isə avtomatik olaraq ləğv ediləcək.**

Pandemiya borclarını silən və cərimələrin məbləğini vətəndaşlarına qaytarmağa qərar verən növbəti ölkə qonşu Gürcüstan olub. Bu addım ölkə vətəndaşları tərəfindən siyasi müdriklik aktı kimi qiymətləndirilib.

Bəs Azərbaycanda da analoji qərarlar verilə, ödənilən pandemiya cərimələri qaytarıla, ödənilməyən cərimələr silinə bilərmi?

Qeyd edək ki, Daxili İşlər Nazirliyinin məlumatına görə, cəmi bir ay ərzində, yəni 2020-ci il martın 17-dən aprelin 17-dək karantin rejimini pozduğuna görə ölkədə 57 minə yaxın şəxs cərimələnib. Nəzərə alsaq ki, ölkəmizdə quru sərhədlərinin açılması istisna olmaqla, bütün pandemiya məhdudiyyətləri 2022-ci ildə aradan qaldırılıb, cərimələnənlərin sayı bir milyonu da keçə bilər.



Onu da xatırladaq ki, karantin rejimini pozanlar üçün cərimələr pozuntunun növündən və pozucunun statusundan asılı olaraq 50 manatdan 400 manatadək olub. Yəni hesablasaq, dövlətin insanlara qaytaracağı vəsaitin məbləği on milyonlarla manatla ölçülə bilər.

Azərbaycan hökuməti də qardaş Türkiyə və Gürcüstan kimi analoji qərar verə bilərmi?

**Hüquqşünas Əkrəm Həsənov** mövzu ilə bağlı fikirlərini "Yeni Müsavat"a açıqladı. O, "Gürcüstanda bilmirəm bu qərarı kim verib, amma Türkiyədə Konstitusiya Məhkəməsi veribsə, bu, siyasi addım deyil", - deyə qeyd etdi: "Yeni məhkəmə aktı siyasi akt deyil. Məhkəmə aktı hüquqi aktdır. O, məqsədəuyğunluq baxımından deyil, qanunauyğunluq baxımından qəbul edilib. Düzdür, mən həmin qərarı oxumamışam. Amma məhkəmə qəbul edə bilməz ki, "dünən cərimələmişdik, gəlin bu gün bağışlayaq". Elə qərarı parlament verə bilər. Amma Konstitusiya Məhkəməsi veribsə, deməli, o cərimələrin qanunsuz olduğunu deyib. Bunun başqa izahı yoxdur. 2020-ci ildə, hələ pandemiya dövründə dəfələrlə bildirmişəm ki, bizdə də həmin cərimələr qanunsuzdur. Çünki cərimələr insanlara qarşı tələb edilən məhdudiyyətlərə görə idi. O cür məhdudiyyətlər, insan haqlarının həyata keçirilməsinin məhdudlaşdırılması yalnız ölkədə fövqəladə vəziyyətin elanı əsnasında mümkün ola bilərdi. Amma buna bizdə getmədilər. Bəziləri bunu ictimaiyyətdə belə izah edirdi ki, fövqəladə vəziyyətdən irəli gələn məhdudiyyətlərə görə dövlət müəyyən kompensasiyalar ödəməli idi. Buna görə də bizdə fövqəladə vəziyyət elan olunmadı. Sırf karantin rejimini Nazirlər Kabineti elan etdi. Amma buna səlahiyyəti yox idi. Yəni bu müstəvidə bizdə şikayət edən olmadı. Bizdə də Konstitusiya Məhkəməsinə məsələ gedib çıxsa, bəlkə olardı. Amma bu da mümkün deyil. Çünki bizim qanunlara görə bu müddət bitib. Yəqin ki, Türkiyədə də Konstitusiya Məhkəməsinə gedib çıxmaq üçün əvvəlki məhkəmə instansiyalarını keçiblər".

**Bununla belə, ekspert hesab edir ki, məsələ əgər siyasi bir addım kimi bizdə təklif olunarsa, onun əleyhinə olacaq**: "Bir növ bu cərimələr bağışlansın, amnistiya edilsin, bunun əleyhinəyəm. Bu zaman belə çıxır ki, cərimələr qanuni idi, sadəcə, dövlət xoşməramlı addım atır və cərimələri qaytarır. Bunun gələcək perspektiv üçün çox mənfi nəticələri ola bilər. Yəni qanuni hesab etdiyimiz hüquq normasına, məhdudiyyətə görə onun pozulmasına görə təqsirkar məsuliyyətə cəlb olunmalıdır. Sonra hamı buna görə bağışlansa, gələcəkdə istənilən məhdudiyyəti də pozanların sayı arta bilər. İnsanlarda belə fikir yaranacaq ki, onsuz sonra bağışlayacaqlar. Bu, insanlarda məsuliyyətsizlik hissinin yaranmasına apara bilər. Bizdə praktikada belə hallar olub. Təqribən 10 il əvvəl Tarif Şurası qərar qəbul etmişdi, Prezident onu ləğv etdi. Bu, xoşməramlı addım oldu, heç o qanun da deyildi, Prezidentin də səlahiyyətində idi. Amma bu insanlarda fikir yaratdı ki, sabah qanunları onsuz da dəyişə bilərlər. Biz bunun nəticəsini 2015-ci ilin fevral devalvasiyasında gördük. Mərkəzi Bank devalvasiya elan etdi və insanlar gözləyirdi ki, Prezident o qərarı ləğv edəcək. Hətta adamlar tanıyıram ki, devalvasiyanın ilk günlərində dollarları daha ucuz satırdı, manat alırdı ki, onsuz da qərar dəyişəcək, mən qazanacağam.

Yaxud özəlləşdirmə çekləri 1990-cı ildə buraxılıb, müddəti qısa idi, bir neçə dəfə artırıblar. Artıq 2011-ci ildən qüvvədə deyil. Bəzilərində o çeklərdən qalıb, istifadə etməyiblər, adi vətəndaşda bunlar azdır, əsasən möhtəkirlər vaxtında alıblar, istifadə etməyiblər, indi də deyirlər bunun vaxtını artırın. Müddət artırılmasını tələb edirlər, tarif artırılır, deyirlər tarifi azaldın. Cərimələri silin deyirlər. Bunun nəticəsi çox pis ola bilər. Bizdə onsuz da qanunlara riayət etmə ənənəsi zəifdir. Bunu da bağışlasalar, məsuliyyətsizlik hissi yaranacaq. Yekun olaraq deyim ki, əgər bizdə pandemiya ilə bağlı, məhdudiyyətlərlə bağlı cərimələr Konstitusiya Məhkəməsi tərəfindən qanunsuz sayılsa, bu halda cərimələrin qaytarılması məhz hüququn, qanunun ali təntənəsi olardı. Bağışlanması isə yanlışlıq olardı".

**İqtisadçı millət vəkili Azər Badamov mövzu ilə bağlı "Yeni Müsavat"a dedi ki, məhz dövlətin gördüyü təxirəsalınmaz tədbirlər sayəsində Azərbaycan dünyada pandemiyaya qarşı ən yaxşı mübarizə aparan ölkələrin sırasına daxil oldu:** "Bu gün isə demək olar ki, pandemiya başa çatıb. Amma pandemiya ilə bağlı tələbləri pozduğuna görə tətbiq olunmuş cərimələrin taleyi insanları narahat edir. Türkiyə və Gürcüstanda pandemiya ilə bağlı tətbiq olunmuş cərimələrin ləğv olunması ilə bağlı qərarlar qəbul edilib. Belə bir qərar ölkəmizdə də qəbul olunsa yaxşı olacaq. Çünki bu cərimələrin tətbiqi pandemiyaya qarşı mübarizədə vətəndaşların məsuliyyətini artırmaq məqsədi daşırdı. Ona görə də hesab edirəm ki, cərimələnmiş vətəndaşlarla bağlı icra olunmamış qərarlar da ləğv olunmalıdır".

**❑ Afaq MİRAYİQ,**
**"Yeni Müsavat"**

# Yas və toy sahiblərinə vergi tətbiqi təklifinə reaksiyalar

## Öncə mərasimlərimizi israf və dəbdəbədən xilas edək; iddia: "Aydın Xan Əbilov bu fikirləri hökumətin sifarişi ilə səsləndirib"

**"Azərbaycanda vergi mədəniyyəti ilə bağlı ictimai düşüncədə olan kompleksləri yox etmək lazımdır və insanlar qəbul etməlidirlər ki, bir dövlətin yaşaması üçün rüşvəti aradan qaldırmaq, korrupsiyanı məhv etməklə yanaşı, mütləq vergi mədəniyyəti bütövlükdə cəmiyyətdə oturuşmalıdır".**



Bu sözləri Yenisabah.az-a **yazıçı-kulturoloq Aydın Xan Əbilov** deyib.

Kulturoloq toy və yas məclislərindən əldə edilən gəlirin vergiyə cəlb olunmasını təklif edib: "Ona görə də hər bir insan işləyən zaman, mükafat alan zaman onun ailə büdcəsinə pul gələn zaman dövlətə mütləq vergi verməlidir və bu onun müqəddəs borcudur. Vergilər verilməsə, dövlət orqanları çalışa bilməz, pensiyalar verilə bilməz, məktəblər işləyə bilməz, dövlətlərin sosial problemləri həll oluna bilməz. Bu baxımdan, Azərbaycanda toylar və yaslarla bağlı vergi mədəniyyəti olmalıdır. Bir toydan 50-100 min yığıla bilər və bunun yarısı xərclərə gedir, o xərcləri kənara qoyuram, lakin real gəlir var və o gəlirin müəyyən faizi dövlətin büdcəsinə getməlidir. Yoxsa hər kəs uşaq pulu istəyir, pensiyaların artmasını tələb edir, məvaciblərinin artırılmasını istəyir, bəs dövlət bu pulu haradansa götürməlidir ki, artım da olsun".

**Sözünə davam edən kulturoloq bildirib:** "Qəribədir, biz 10 manat lotereyadan pul udanda həmin puldan vergi tutulur, baklara pul qoyduqda faiz götürürüksə, həmin faizdən də vergi tutulur. Amma toyda, yasda, ad günü şənliklərində qazanılan həmin pullardan, nəmərlərdən, yığılan vəsaitlərdən heç bir vergi tutulmur. Yüz minlərlə qazanılan puldan insanlar vergi vermək istəmir. Bu nə dərəcədə düzgündür?"

**Onun sözlərinə görə, toylardan tutulan vergi hesabına kasıb təbəqəyə kömək etmək də mümkündür və bu, ədalət prinsipi ilə tənzimlənməlidir**: "Burada bir məsələ var, düşünürəm ki, yuxarı və orta təbəqə vergi verməlidir, amma aşağı təbəqə üçün əksinə, dövlət kompensasiya ödəməlidir. Çünki kasıb toy etdiyi zaman bəzən restoranlara verməyə pulu olmur, bu da həm yeni yaranan ailənin özü üçün problem olur, həm də toy edən valideynlər üçün. Biz ədalət prinsipini qorumaq şərti ilə bu məsələyə xüsusi önəm verməliyik".

Kulturoloqun təklifi Azərbaycanda nə dərəcədə reallaşa bilər və nə verəcək? Bəlkə yas və toy yiyələrinə vergi tətbiqindən öncə yas və toy mərasimlərimizi israfdan, dəbdəbədən necə xilas etmək barədə düşünək?

**Mövzu ilə bağlı "Xəmsə" restoranlar şəbəkəsinin sahibi, iş adamı Mürvət Həsənli "Yeni Müsavat"a danışıb. İş adamı kulturoloqun təklifinin məntiqsiz olduğunu bildirib:** "Tutaq ki, kimsə toy edir və toyuna 150 nəfər gəlir, pul yazdırır. Qarşılığında həmin toy sahibi gələcəkdə pul yazdıranların toyuna gedib, həmin pulu yazdırır. Yəni burada toy sahibinin gəliri olmur. Yəni tutaq ki, kimsə onun toyuna 100 manat yazdırıbsa, gələcəkdə o da həmin adamın toyuna 100 manat yazdırır. Yaxşı, indi burada hansı gəlir əldə olunur ki, camaat ona görə vergi ödəsin?

O ki qaldı mükafata, kimsə toy sahibinə mükafat verəndə, qarşılığında toy sahibi də gələcəkdə onun övladının toyuna mükafat alır".

**İqtisadçı deputat Vahid Əhmədov da təklif olunan fikri məqbul hesab etmədiyini bildirdi:** "Xatırlayırsınızsa, bir müddət əvvəl müğənnilərə müəyyən rüsumlar qoyuldu və qaydasına salındı. Yəni əgər normal fəaliyyət varsa və həmin fəaliyyəti qiymətləndirmək mümkündürsə, bu başqa məsələ. Amma elə fəaliyyət növü var ki, onu qiymətləndirmək **mümkün deyil".**

**İqtisadçı Akif Nəsirli isə qeyd edib:** "Aydın Xan Əbilov dostumuzdur. Amma ola bilsin ki, onun mədəniyyət sahəsində düşüncələri gərəkli, faydalı olsun, amma bu dedikləri mədəniyyətə aid deyil, tamam fərqli məsələdir.

Tutaq ki, toya nəmər salınır. Buna görə insanlardan vergi tutmaq lazım deyil. Həmin puldan yeni qurulan ailənin ehtiyaclarını ödəmək üçün istifadə etmək lazımdır. Çox təəssüf ki, biz bu gün belə istifadə etmirik, toy günü yığılan pulların hamısını digər məsələlərə, artıq məsrəflərə xərcləyirik. Məsələn, maşının kirayələnməsinə, musiqiçilərin gəlməsinə və sairə. Yəni bir günün içində yığılan vəsait bir günün içində də xərclənir, yeni ailə quran cütlüyə heç nə qalmır. Əslində bu problemi, israfçılıq məsələsini qabartmaq lazımdır.

Yasa gələndə isə insanlar hüzr yerinə gəlib, rəmzi olaraq ehsan yeyir və yas sahibinə kömək, dəstək məqsədilə 30-40 manat yazdırır. Bu ondan ötrüdür ki, yas sahibi dəfn və digər xərclərini qarşılaya bilsin. Başqa bir məsələ, məlum olduğu kimi, dövlətin büdcəsinin əsas hissəsi neft pullarından formalaşır. Belə olan halda isə bir tərəfdən rüsum, bir tərəfdən cərimə artırılır, bir tərəfdən vergi tutmaq mənbələri axtarılır. Bunların hansı vətəndaşın xeyrinədir? Çox maraqlı tendensiya müşahidə olunur. Hesab edirəm ki, Aydın xan Əbilova da hökumətin sifarişi ilə bu cür fikirlər səsləndirib".

**❑ Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**

iyun

YENİ MÜSAVAT

Son səhifə

N 102 (8238) 13 iyun 2023



## Misirdə turistlərlə dolu gəmi yanıb

**Misirin Marsa əl-Aləm kurort şəhəri sahillərində turistlərin olduğu yaxta yanıb. Hadisə zamanı Qırmızı dənizə birlikdə dalan üç britaniyalı turist itkin düşüb. Daha 12 Britaniya vətəndaşı 12 misirli ekipaj üzvü ilə birlikdə xilas edilib. Onlar yaxınlıqdakı Marsa Şaqra Dalğıc Kurortunda təhlükəsiz yerə aparılıblar. "Hurricane" adlı yaxtadakı yanğına elektrik qısaqapanması səbəb olub. Şəxsiyyətləri açıqlanmayan qalan üç britaniyalı turistin axtarışı aparılır. Böyük Britaniya Xarici İşlər Nazirliyi hadisə ilə bağlı yerli hakimiyyət orqanları ilə əlaqə saxladığını və zərər çəkmiş vətəndaşlara dəstək verdiyini bildirib.**



## Qadın tabutda dirildi

**Ekvadorda dəfninə hazırlıq görülən yaşlı qadının ölmədiyi məlum olub. Belə ki, qadının yaxınları onun paltarını dəyişmək üçün tabutu açıb və qadının nəfəs aldığını müşahidə ediblər. Hadisə yerinə çağırılan təcili tibbi yardım maşını qadını xəstəxanaya aparıb. Qadın reanimasiyaya yerləşdirilib. Onun oğlu mətbuata verdiyi açıqlamada bildirib ki, bir gün əvvəl anasını xəstəxanaya yerləşdirib. Bir neçə saat sonra həkim anasının öldüyünü bildirib. Qadına beyin ölümü diaqnozu qoyulub.**

"Hətta bizə anamın həyatdan köçməsi ilə əlaqədar müvafiq sertifikat da verildi", - deyə onun oğlu bildirib. Oğlu hazırda anasının vəziyyətinin stabil olduğunu bildirib.

# D vitamini çatışmazlığı Yaponiyada ciddi problemə çevrilir



**Dzikey Universitetinin Tibb Məktəbinin son araşdırmasına əsasən, testdən keçən Tokio sakinlərinin 98%-də D vitamini çatışmazlığı aşkar edilib. D vitamini bədənə kalsium və digər mineralları düzgün şəkildə mənimsəməyə kömək edir və sümükləri möhkəmləndirir. O, bədənə üç yolla daxil olur: günəş işığına məruz qalma, yağlı balıq kimi heyvan mənşəli məhsulların və göbələk kimi bitki mənşəli qidaların qəbulu ilə.**

Yapon mətbəxində əhəmiyyətli miqdarda D vitamini olan qidaların çeşidi kifayət qədər geniş yayılıb. Bunlar qızılbalıq, skumbriya və tuna balığı, həmçinin şiitake kimi göbələklərdir. Bununla belə, 5500 yetkin kişi və qadının qan testləri D vitamini səviyyəsinin tövsiyə olunandan aşağı olduğunu sübut edib. Çatışmazlığa gənclərdə daha çox rast gəlinir ki, bu da pəhrizin dəbə düşməsi ilə bağlıdır.

# Çində evlənənlərin sayı rekord həddə düşüb



**Çində 2022-ci ildə təxminən 6,8 milyon nikah qeydə alınıb ki, bu da ölkədə belə statistikanın aparılmağa başladığı 1986-cı ildən bəri minimum göstəricidir. Çinin Mülki İdarəetmə Nazirliyinə istinadən yayılan məlumata görə, təkcə son bir ildə ailə quranların sayı 803 min azalıb. Həmçinin, ölkədə evlilik yaşı da artmaqda davam edir. Hazırda Çində insanların çoxu 27 yaşdan yuxarı ailə həyatı qurur.**

Ekspertlərin sözlərinə görə, gənclərin evliliyə baxışları dəyişib. Onların bir çoxu artıq ailənin yaradılmasını və uşağın doğulmasını həyatda məcburi hadisələr kimi qəbul etmir. Bundan başqa, real həyatda evliliyin bahalaşması da gənclərin seçiminə təsir edir.

Xatırladaq ki, Çində maksimum nikah sayı 2013-cü ildə qeydə alınıb. O zaman 13,4 milyon cütlük nikah bağlayıb.



## İstanbulda həyətində nadir heyvanlar saxlayan şəxs həbs olundu

**Villasında ev heyvanı kimi on iki nadir maral və altı tovuz quşu saxlayan şəxs İstanbul polisi tərəfindən nəzarətə götürülüb. Aşkar edilən maralların nəsli kəsilmək ərəfəsində olduğu üçün onları ev heyvanı kimi saxlamağın mümkün olmadığı qeyd edilib.**

İstanbulun Silivri səmtindəki bir villanın bağçasında maral və tovuz quşlarının tapılması xəbərini alandan sonra Qaçaqmalçılıqla Mübarizə İdarəsi hadisə yerinə operativ qrupları göndərib. Məlumata görə, əmlak sahibi və heyvanların baxıcısı saxlanılıb. Ələ keçirilən heyvanlar Milli Parklar Departamentinə təhvil verilib.

# Bunları bilirsinizmi?

* İtaliyada yeni prezident seçilərkən minlərlə vətəndaş bir-birinə apelsin ataraq bunu qeyd edir.
* 1865-ci ilin fevral ayı bütövlənmədiyi yeganə tarixdir.
* Tarix boyun ən çox film Drakulaya aid çəkilib.
* Şokoladlı peçeniye 1933-cü ildə istehsal olunub.
* Al-Kapone öz 85 illik yubileyini Alkatras hhəbsxanasında qeyd edib.
* 27 sentyabr Turizm günü kimi bütün dünyada qeyd edilir.
* 1990-cı ildə ABŞ-da 15 000 insanın tozsorandan xəsarət aldığı qeydə alınıb.
* Elianora Ruzvelt gündə 3 dəfə şokalada çəkilmiş sarımsaq dilimləri yeyirmiş.
* Bayt sözü səkkiz sözünün qısaldılmışıdır (by eight)
* İudaizmdə qürub-gün batma sutkanın o anına deyilir ki, həmin vaxt qırmızını qaradan seçmək qeyri-mümkün olur.
* Dünyada ən sadiq canlı erkək tülkülər hesab olunur bilirsinizmi niyə? Çünki ailədə dişi tülkü həlak olarsa erkək tülkü ömrünün sonuna kimi "subay" yaşayır. Erkək tülkü həlak olarsa dişi tülkü həmin an özünə yeni erkək kavaler axtarıb tapır..
* Soğanın spesifik iyi onun torpaqdan canına çəkdiyi kükürdün iysidir.
* Skunslar dəhşətli qoxuları ilə yanaşı ilan zəhərinə qarşı güclü immunitetləri vasitəsilə özlərini müdafiə edə bilirlər.
* Ən uzun öpüş səhnəsinə "You're in the Army Now" filmdə izləmək olar. Öpüş 3 dəqiqə 3 saniyə davam edir.
* Donuzlar göyə baxa bilmirlər.
* Alman kimyaçısı Hennig Brand kükürdü sidik analizi zamanı aşkarlamışdır.
* Bingemtonda (Nyu York) 9-cu sinif oğlan şagirdlərinin bığ saxlaması qadağandır.
* Dələlər ağacda daha sürətlə qaçırlar, nəinki yerdə.
* İnsan burnunda 5 milyona yaxın iybilmə hüceyrələri mövcuddur. Alman ovçarkasında bu 220 milyona bərabərdir. Araşdırmalar göstərir ki, bu heyvanın iy bilmə qabiliyyəti insanınkından 44 dəfə daha güclüdür.
* ABŞ-ın qeyri-qanuni olaraq ölkəyə gələn gəliri qanuni olaraq daxil olan gəlirindən 10% çoxdur.
* Filmlərdə ən çox yer alan idman növü boksdur.
* Lentəbənzər soxulcanlar yemək tapmayarkən öz özlərini yeyən yeganə canlıdır.
* Alyaksa universiteti 4 müxtəlif saat qurşağında yerləşir.
* Amerikanın bütün prezidentləri eynək taxırlar. Hərçənd ki, ictimai çıxışları zamanı onu çıxaranları var.

# Alimlər alkoqolun yaratdığı 60 xəstəliyi müəyyən ediblər



**Spirtli içkilər 60 xəstəliyin inkişaf riskini artıra bilər. Onlardan 33-ü atipikdir və onların alkoqol ilə əlaqəli olması heç ağla belə gəlmir. Belə xəstəliklərdən ağciyər xərçəngi, sınıqlar, qan dövranı xəstəliklərini göstərmək olar.**

Alimlər müəyyən ediblər ki, kifayət qədər təhlükəsiz hesab edilən minimum doza belə tez-tez istifadə edildikdə xəstəliklərə yol açır.

Elm adamlarının sözlərinə görə, alkoqol məsələn, podaqra, mədə xorası, katarakta, ürək işemiyası, bronxit, artroz və sistemli birləşdirici toxuma xəstəliklərinə səbəb ola bilər.

Qida xərclərini azaltmaq və yemək israfının qarşısını almaq üçün məhsulları soyuducuda düzgün formada mühafizə etmək lazımdır. Bu zaman uzun müddət daha təravətli və sağlam şəkildə ərzaqları istehlak edə bilərsiniz.

Qida məhsullarını soyuducuda saxlamağa imkan verən 5 üsul aşağıdakılardır.

**1.** Süd məhsullarını tərs çevirib saxlayın. Qatıq, kəsmik və ya xama qabını tərsinə çevirərək soyuducuya qoyun. Bu üsul qida məhsullarının xarab olmasına səbəb olan bakteriyaların çoxalmasının qarşısını alan vakuum effekti yaradır.

**2.** Bananın saplaq hissəsini streçlə sarın. Bananı aldıqdan sonra bir-bir ayırıb streçləyin. Bu üsul meyvənin daha çox yetişməsinin qarşısını alaraq təravətini tərkibində saxlayır.

**3.** Pendiri nəmli tutun. Pendirin ömrünü uzatmaq üçün yaxşı nəm balansını qorumaq lazımdır. Pendiri birbaşa plastik qabda saxlamaq pendirin nəfəs almasını əngəlləyir. Buna görə ən yaxşı üsul pendiri yağlı kağıza büküb soyuducuda saxlamaqdır.

**4.** Kartofu alma ilə birgə saxlayın. Erkən cücərmənin qarşısını almaq üçün, kartofu alma ilə birlikdə saxlayın. Çünki alma kartofun təzə qalmasına kömək edən və cücərməsinin qarşısını alan kimyəvi maddə ifraz edir. Eyni zamanda kartofun erkən cücərmənin qarşısını almaq üçün kartofu qaranlıq və sərin yerdə soğandan uzaq saxlayın. Kartofu soğana yaxın saxlamaq erkən cücərməyə səbəb olur.

**5.** Göyərtiləri kağız dəsmallara bükün. Yaşıllıqlarınızı qorumağın və ömrünü uzatmağın ən yaxşı yolu, tamamilə quru bir kağız dəsmala büküb böyük bir qabda saxlamaqdır. Kağız dəsmallar göyərtiləri sağlam nəmlik səviyyəsində saxlamağa kömək edir, eyni zamanda təzə və səliqəli saxlayır.

**Səhifəni hazırladı: SELCAN**

Redaktor: Elşad MƏMMƏDLİ

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Sifariş: 1530
Lisenziya N: B 114
SAYI: 1.500

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.